**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİNƏ DAİR

## H E S A B A T

**(2019)**

**Bakı – 2020**

Təqdim olunan hesabatda BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrəMüvəkkilinin 2019-cu il üzrə həyata keçirdiyi fəaliyyət, irəli sürülən təklif və tövsiyələr yer almışdır.

Bu hesabatın hazırlanması və Müvəkkilin Milli Preventiv Mexanizm funksiyalarının həyata keçirilməsi prosesində İşgəncələrin Qarşısının Alınması üzrə Komitənin, İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitə (SPT) və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT), Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin (CEDAW),Uşaq Hüquqları üzrə Komitənin (CRC), Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Komitənin (CRPD), habelə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə (UPR) İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş təklif və tövsiyələri nəzərə alınmışdır.

Başçəkmələrin nəticəsi olaraq təhlillər əsasında hazırlanmış məlumatlar, statistik göstəricilər, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu hesabata əlavə edilmişdir.

**İSBN:**

**MÜNDƏRİCAT**

**Ön söz**.......................................................................................4
Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar..................................5

**BÖLMƏ 1. FAKÜLTATİV PROTOKOLA ƏSASLANAN MİLLİ PREVENTİV MEXANİZM MANDATI**..........................................7
1.1. Fakültativ Protokolun tələbləri.......................................................7
1.2. Milli qanunvericilik..........................................................................8
1.3. Milli Preventiv Mexanizmin fəaliyyət istiqamətləri.......................10

**BÖLMƏ 2. MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR**..............................................12
2.1 Preventiv başçəkmələrin təşkili....................................................12
2.1.1. Plan üzrə başçəkmələr...............................................................12
2.1.2. Plandankənar başçəkmələr........................................................13
2.2. Başçəkmələrin həyata keçirilməsi................................................13
2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri........................................16
2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri..........33
2.2.4. Dövlət Miqrasiya Xidmətinin müəssisələri................................47
2.2.5. Müdafiə Nazirliyinin müəssisəsi................................................49
2.2.6. Səhiyyə Nazirliyinin müəssisələri..............................................50
2.2.7. Təhsil Nazirliyinin müəssisələri................................................57
2.2.8. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri...66
2.2.9. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri........................70

**BÖLMƏ 3. HÜQUQİ TƏHLİL**.......................................................74

**BÖLMƏ 4. HÜQUQİ MAARİFLƏNDİRMƏ**...................................91

**BÖLMƏ 5. İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**...................................................96

**BÖLMƏ 6. TƏKLİF VƏ TÖVSİYƏLƏR**.........................................99

Əlavə 1.........................................................................................103

Əlavə 2.........................................................................................106

## ÖN SÖZ

Məlum olduğu kimi, Azərbaycan Respublikası 2 dekabr 2008-ci ildə BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunu ratifikasiya etmiş və ölkə Prezidentinin 13 yanvar 2009-cu il tarixli Sərəncamı əsasında Protokolda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin (MPM) funksiyalarını həyata keçirən təsisat qismində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir.

Ölkədə aparılan hüquqi islahatlar çərçivəsində bu funksiyaların icrasından irəli gələn vəzifələrin yerinə yetirilməsi Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Müvəkkilin müvafiq dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, hüquq müdafiəçiləri, vəkillər, kütləvi-informasiya vasitələri, beynəlxalq təşkilatlar, xarici ölkələrin Milli İnsan Hüquqları Təsisatları, yerli və beynəlxalq ekspertlərlə olan əlaqələri onun MPM qismində fəaliyyətinin də inkişafına, uğurlu və konstruktiv əməkdaşlıq əlaqələrinin qurulmasına, faydalı müzakirələr, treninqlər və təcrübə mübadilələrinin təşkilinə imkan vermişdir.

MPM qismində işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə fəaliyyət çərçivəsində istər praktik yanaşma, istərsə də qanunvericiliyə təklif və tövsiyələrin verilməsi, habelə təşkilati baxımdan mövcud fəaliyyətin təkmilləşdirilməsi məqsədilə təşəbbüslər göstərilməkdədir.

Təqdim olunan hesabat Azərbaycan MPM-nin 2019-cu il üzrə fəaliyyətini əhatə etməklə, görülmüş işlər, preventiv başçəkmələr və onların nəticələri, verilmiş təklif və tövsiyələr və onların icrası vəziyyəti, eləcə də MPM-in həyata keçirdiyi hüquqi maarifləndirmə və digər fəaliyyət istiqamətlərinə dair tədbirləri özündə əks etdirir.

Ümidvaram ki, hesabatda qaldırdığımız məsələlər, verdiyimiz təklif və tövsiyələr milli və beynəlxalq qanunvericiliyin tələblərinə uyğun şəkildə ölkə təcrübəsinin vəmüvafiq istiqamətlər üzrə fəaliyyətin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

Hesabatla əlaqədar göndəriləcək təkliflərə görə əvvəlcədən təşəkkür edirik.

**Səbinə Əliyeva**
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

# MƏTNDƏ İSTİFADƏ OLUNMUŞ ANLAYIŞLAR VƏ İXTİSARLAR

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması

**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs

**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etmə hüququ olmadan saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer

**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı

**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**CÇM** – Cəzaçəkmə müəssisəsi

**CEDAW** - Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə

**CİM** – Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi

**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

**DİQ** –Daxili İntizam Qaydaları

**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

**DMX** – Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti

**DTX** – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**ƏN** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

**ƏoŞHK** – Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Komitə (CRPD)

**FP** – "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu

**HP** – Azərbaycan Respublikasının Hərbi Prokurorluğu

**İQK**– BMT-nin İşgəncələrin Qarşısının Alınması Komitəsi (CAT)

**İQA** – BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə AltKomitəsi(SPT)

**İQAK** – Avropa Şurasının İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Komitəsi (CPT)

**İHOSM** – İnzibati həbs olunanların saxlanılma məntəqəsi

**İİV** – İnsanın İmmunçatışmazlığı Virusu

**İşgəncə** – İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza

**İMM** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin İxtisaslaşdırılmış müalicə müəssisəsi

**İT** – İstintaq təcridxanası

**KİV** – Kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu

**Konvensiya** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"

**QİÇS** – Qazanılmış İmmunçatışmazlığı Sindromu

**MN** – Azərbaycan Respublikasının Müdafiə Nazirliyi

**MPQ** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrup

**MPM** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm

**MSY** – Müvəqqəti saxlama yeri

**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**PB** –Polis bölməsi

**PX** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti

**RPİ** – Rayon polis idarəsi

**RPŞ** – Rayon polis şöbəsi

**SN** – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

**SMR** – Məhkumlarla rəftara dair minimal standart qaydalar

**Şöbə** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi

**ŞPİ** – Şəhər polis idarəsi

**ŞPŞ** – Şəhər polis şöbəsi

**ŞRPŞ** – Şəhər rayon polis şöbəsi

**TN** – Azərbaycan Respublikasının Təhsil Nazirliyi

**UHK** – Uşaq Hüquqları Komitəsi (CRC)

# BÖLMƏ 1.

# FAKÜLTATİV PROTOKOLA UYĞUN MİLLİ PREVENTİV MEXANİZMİN MANDATI

## 1.1. Fakültativ Protokolun tələbləri

FP[1]-nin əsas məqsədi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir.[2] FP konstruktiv dialoqun vacibliyini və tənzimlənən münasibətlərə reaksiya verilməsi baxımından, preventiv-qarşısını alma tədbirlərinin görülməsini vurğulayır. FP-nin innovativliyi, həm də onun hər hansı yeni hüquq və ya standartı, yaxud pozulmuş hüquqların bərpasını deyil, mövcud standartın, yəni işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını əks etdirməsində təzahür edir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır (buraya İQA və Milli Preventiv Mexanizmlər daxildir). Beynəlxalq səviyyədə yaradılmış İQA BMT-nin yeni nəsil saziş qurumudur.

FP-nin 17-ci maddəsinin tələblərinə görə hər bir iştirakçı dövlət tərəfindən protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq dəstəklənməli, təyin və ya təsis edilməli olan MPM azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin milli səviyyədə müntəzəm monitorinqini aparan qurumdur. MPM-lərin mandatı ən azı aşağıdakıları əhatə edir:

- azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələlərə müntəzəm olaraq baxılması;

---

[1]"İşgəncəvədigərqəddar, qeyri-insanivəyaləyaqətialçaldanrəftarvəyacəzaəleyhinəKonvensiya"nınFakültativProtokoluBMT Baş Məclisinin 18 dekabr 2002-ci il tarixli 57/199 saylı qətnaməsi ilə qəbul edilmiş, 22 iyun 2006-cı il tarixdə, 20 dövlət tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minmişdir;

[2]FP-nin 4-cü maddəsinin 2-ci bəndinin tələblərinə görə, FP-nin məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət, yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

- BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi və işgəncələrin qarşısının alınması;

- qüvvədə olan qanunvericilik aktlarına və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.[3]

Göstərilən mandatın uğurla həyata keçirilməsi üçün MPM-lərin yaradılması zamanı onların funksional müstəqilliyinin, habelə işçi heyətinin müstəqilliyinin təmin olunması əsas şərtdir.[4]

FP həmçinin MPM-lərin aşağıdakı əsas hüquqlarını təsbit edir:

- azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onlarla rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında, həmçinin azadlıqdan məhrum etmə yerlərinin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;

- bütün azadlıqdan məhrum etmə yerlərinə buraxılmaq;

- azadlıqdan məhrum edilmiş şəxslərlə və ya müvafiq məlumat verə biləcək istənilən şəxslə fərdi söhbətlər aparmaq;

- baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək;

- İQA ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək.[5]

## 1.2. Milli qanunvericilik

FP Azərbaycan Respublikası tərəfindən 2 dekabr 2008-ci il tarixli qanunla ratifikasiya edilmişdir.[6]13 yanvar 2009-cu il tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı[7] ilə FP-də nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir.

Yeni və kifayət qədər məsuliyyətli vəzifələr fonunda fəaliyyətin daha səmərəli və keyfiyyətli təşkili zərurəti Müvəkkilin mandatının, eləcə də işçi heyətinin səlahiyyət dairəsinin genişləndirilməsini şərtləndirmişdir.

---

[3]FP, maddə 19;

[4]FP, maddə 18(1);

[5]FP, maddə 20;

[6]"İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (02.12.2008, № 724-IIIQD);

[7]"İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13.01.2009, № 112);

Konstitusiya Qanununa edilən əlavə və dəyişikliklərlə[8] Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqilliyi FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, həmçinin Müvəkkilin MPM qismində fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Aparatda şəffaf prosedurlar əsasında Milli Preventiv Qrupun (MPQ-nin) yaradılması, onun üzvlərinə dair tələblər, habelə onların hüquqları və toxunulmazlığının təminatları kimi məsələlər təsbit edilmişdir.

Konstitusiya Qanununa əsasən, milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkil və onun MPQ-nin üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır.[9] Müvəkkilin, səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ da adı çəkilən qanunda müəyyən edilmişdir.[10]

Ötən müddət ərzində Müvəkkilin MPM fəaliyyətinin effektiv təşkili məqsədilə qanunvericilik aktları təkmilləşdirilmiş, Müvəkkilin və MPQ üzvlərinin yuxarıda göstərilən səlahiyyətləri barədə müddəalar müvafiq qaydada normativ hüquqi aktlarda təsbit edilmişdir.[11]

---

[8]"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu (24.06.2011, № 163-IVKQD).

[9]Konstitusiya Qanunu, maddə 12.2.1; 18-1.2.1;

[10]Konstitusiya Qanunu, maddə 12.2.1;

[11]Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 324-IVQD); "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 325-IVQD); Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"nin "Hauptvaxt haqqında" 4 saylı əlavəsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04. 2012, № 326-IVQD); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (04.07.2012, № 148);

MPQ-nin tərkibi Konstitusiya Qanununun 18-1.1-ci maddəsi əsasında 3 ildən bir şəffaf prosedurlar əsasında formalaşdırılır.

Müvəkkilin FP-yə uyğun olaraq MPM qismində funksiyalarının səmərəli həyata keçirilməsinin təmin edilməsi məqsədilə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal (UPR) üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş, habelə İQK (CAT), İQA (SPT) İQAK(CPT), CEDAW, UHK (CRC) və ƏoŞHK-nin (CRPD) təklif və tövsiyələri də nəzərə alınmışdır.[12]

## 1.3. MPM-in fəaliyyət istiqamətləri

Azərbaycan MPM-nin fəaliyyəti aşağıdakı dörd əsas istiqamət üzrə həyata keçirilən tədbirlərdən ibarətdir:

- Preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;
- Hüquqi təhlil – həyata keçirilən fəaliyyətin, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;
- Hüquqi maarifləndirmə – işgəncələrin qarşısının alınması işinin təşviqi məqsədi ilə Aparatın əməkdaşları, MPQ üzvləri, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin işçiləri, eləcə də belə yerlərdə saxlanılan şəxslər, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün hüquqi maarifləndirmə tədbirlərinin təşkil olunması, müvafiq əyani vəsaitlərin hazırlanıb paylanılması;
- İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq – yerli, regional və beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılmasının, həyata keçirilən tədbirlərdə qarşılıqlı iştirakın, həmçinin birgə tədbirlərin təşkilinin təmin olunması, habelə MPM-in

---

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının 2011-ci il 29 dekabr tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı (13.07.2012, № 3-N); "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (22.05.2012, № 352-IVQ);

"Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının Qərarı (14.01.2013, № Q1-001-13);

[12]BMT-nin İnsan Hüquqları Şurası tərəfindən 5 iyul 2013-cü il tarixdə qəbul edilmiş Universal Dövri İcmal üzrə İşçi qrupun məruzəsi, (bənd 103.31).

fəaliyyətinin KİV-də işıqlandırılmasının təşkili.

Göstərilənlərlə yanaşı, qeyd olunmalıdır ki, Azərbaycan MPM-nin fəaliyyəti Müvəkkilin şikayətlərə baxmaq mandatı ilə əlaqələndirilmişdir. Belə ki, Aparata daxil olmuş müraciətlərin araşdırılması zamanı toplanmış məlumatlar, o cümlədən şikayətlərin qurumlar və müəssisələr üzrə xüsusi çəkisi preventiv başçəkmələrin planlaşdırılması və həyata keçirilməsi zamanı yönəldici vasitə qismində istifadə olunmuşdur.

Sadalanan istiqamətlər üzrə Müvəkkilin fəaliyyətinin nəticələri, təşəbbüsləri, təklif və tövsiyələri MPM qismində fəaliyyətinə dair hesabatlarında əks etdirilir. Ötən illərin hesabatları Azərbaycan və İngilis dillərində nəşr etdirilmiş, Ombudsmanının rəsmi internet səhifəsində yerləşdirilmiş və yayılmışdır. İndiyədək hazırlanmış hesabatlarda qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də təşkilati problemlərin həllinə yönəlmiş 200-dən artıq təklif və tövsiyə öz əksini tapmışdır ki, onun da yarıdan çoxu praktik həllini tapmış və ya icraya yönəldilmişdir.

Müvəkkilin MPM qismində fəaliyyəti işgəncə və pis rəftara şərait yaradan halları pisləməklə məhdudlaşmır, qarşısı alınan tədbirlərin gücləndirilməsi məqsədilə görülməli işlərlə bağlı müvafiq təsisatlara tövsiyələr verilir, dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, onları birləşdirən İctimai Komitə və digər təsisatlarla əməkdaşlıqda bu məsələlər və preventiv yanaşmalar diqqətdə saxlanılır.

# BÖLMƏ 2.

# MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR

## 2.1. Preventiv başçəkmələrin təşkili

Məlum olduğu kimi, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi başçəkmələrin həyata keçirilməsi milli preventiv mexanizmlərin fəaliyyətinin əsas istiqamətidir. Azərbaycan MPM-i də onun üzərinə qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində prioritetləri müəyyən edərkən əsasən Fakültativ Protokolun məqsədlərini nəzərə alır[13].

Belə ki, Fakültativ Protokolun 20-ci maddəsinin "a" bəndinə əsasən, MPM-lərin öz mandatını yerinə yetirə bilməsi məqsədilə, iştirakçı dövlətlər Fakültativ Protokolun 4-cü maddəsinin tətbiqi üçün şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrin və orada saxlanılanların sayı, yerləşdiyi yer haqqında istənilən məlumatı təqdim etməyi öhdələrinə götürürlər.

Bu məlumatlar Müvəkkilin sorğusu əsasında müvafiq dövlət orqanlarından alınır və həmin sorğular üzrə daxil olmuş məlumatlar əsasında hazırlanmış illik plana uyğun olaraq başçəkmələr həyata keçirilir. Zərurət yarandıqda, ilin sonunda müvafiq orqanlarla dəqiqləşdirmələr aparılaraq növbəti il üçün məlumatlar yenilənir.

MPM fəaliyyəti çərçivəsində bütün preventiv başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən *plan üzrə* və *plandankənar* olmaqla həyata keçirilir.

### 2.1.1. Plan üzrə başçəkmələr

Plan üzrə başçəkmələr Müvəkkil tərəfindən təsdiq olunan illik plan əsasında həyata keçirilir. İllik planın layihəsi hər ilin sonunda növbəti il üçün MPQ üzvlərinin iştirakı ilə keçirilən iclasda müzakirə olunur, nəticələr protokollaşdırılır, qəbul edilmiş plan təsdiq olunmaq üçün Müvəkkilə təqdim edilir. Planın açıqlanmaması başçəkmələrin effektivliyi baxımından çox əhəmiyyətlidir. Konfidensiallıq MPQ üzvləri tərəfindən təmin olunur.

Bu və ya digər müəssisənin plana hansı ardıcıllıqla daxil edilməsi, həmçinin müəssisəyə təkrar başçəkmələrin təyin edilməsi həmin müəssisənin rejiminin xüsusiyyəti, ötən illərdə şərait və rəftarla əlaqədar qeydə alınmış hallar, ərazi uyğunluğu, eləcə də Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin təhlili nəticəsində MPQ-yə verilmiş məlumatlar kimi amillər nəzərə alınmaqla aparılır.

---

[13]"İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya"nın Fakültativ Protokolu, maddə 1;

Başçəkmənin həyata keçirilməsi üçün sərf olunan vaxt isə müəssisədən, orada saxlanılan şəxslərin sayından, rejim və digər xüsusiyyətlərindən, eləcə də başçəkməyə cəlb olunmuş MPQ üzvlərinin sayından asılı olaraq dəyişir.

### 2.1.2. Plandankənar başçəkmələr

Plandankənar başçəkmələr əsas etibarilə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM-ə bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbət zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatların və Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin, qaynar xəttinə daxil olmuş müraciətlərin təhlili, MPQ-yə verilmiş məlumatların araşdırılması, kütləvi informasiya vasitələrində rast gəlinən və MPM-i maraqlandıran informasiyaların yerində yoxlanılması, habelə Müvəkkilin təşəbbüsü ilə həyata keçirilir.

## 2.2. Başçəkmələrin həyata keçirilməsi

Başçəkmələrin effektivliyinin təmin olunması üç əsas mərhələnin əhatə olunmasını tələb edir. Bunlar nəzərə alınaraq Azərbaycan MPM-i tərəfindən başçəkmələr aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

- başçəkməyə hazırlıq;
- başçəkmənin həyata keçirilməsi;
- başçəkmədən sonrakı tədbirlər.

*Başçəkməyə hazırlıq* adətən iki iş gününədək davam etməklə zəruri məlumatların toplanılması; başçəkmənin məqsədlərinin müəyyən edilməsi; başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsindən ibarət olur.

Hazırlıq zamanı, zəruri məlumatların toplanılması prosesində əvvəlki başçəkmələrdə əldə edilmiş və ya digər mənbələrdən alınmış məlumatlar, Müvəkkilin ünvanına daxil olmuş müraciətlər, KİV-lərdən alınmış məlumatlar, habelə bəşçəkmənin həyata keçiriləcəyi müəssisənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar və beynəlxalq standartlar təhlil edilir.

Başçəkmənin məqsədləri saxlanma şəraitinin və rəftarın ümumən qiymətləndirilməsindən; saxlanma şəraiti və rəftarla bağlı konkret halların öyrənilməsindən (məsələn, intizam tənbehi tədbirlərinin həyata keçirilməsi, tibbi xid-mətin keyfiyyəti və s.); əvvəlki başçəkmələr zamanı aşkar olunmuş halların aradan qaldırılıb-qaldırılmamasının, habelə verilmiş təklif və tövsiyələrin icrası vəziyyətinin yoxlanılmasından; xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirilməsindən və digər tədbirlərdən

ibarət olmaqla müəyyən edilir.

Başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsi zamanı qrup üzvlərinin sayı, ixtisası, cinsi və s. amillər nəzərə alınmaqla başçəkmə qrupunun tərkibi formalaşdırılır, başçəkmənin məqsədindən asılı olaraq başçəkmə və müsahibə suallarının siyahısı, məhkumlarla söhbətin, həyata keçiriləcək tədbirlərin gedişi və nəticələrinin protokollaşdırılması üçün akt formaları, sorğu anketləri və s. hazırlanır.

*Başçəkmənin həyata keçirilməsi* özündə bir neçə mərhələni ehtiva edir:

Əvvəlcə müəssisənin rəhbərliyi ilə ilkin söhbət aparılır, söhbət zamanı qrup üzvləri özlərini təqdim edir, başçəkmənin məqsədi barədə onu məlumatlandırırlar. Daha sonra müəssisə barədə ümumi məlumat alınır.

Müəssisənin rəhbərliyi ilə ilkin söhbətdən sonra müəssisənin obyektlərinə baş çəkilir. Bu zaman müəssisədə saxlanma şəraiti – müəssisənin binasının, kamera və ya otaqların vəziyyəti, ölçüsü, tutumu, faktiki yerləşmə, işıqlandırma, havalandırma, mebel təchizatı, şəxsi gigiyena və sanitariya şəraiti, qidalanma məsələləri qiymətləndirilir; tibbi xidmətlərin təmin olunması vəziyyəti, mövcud sənədləşmə və s. araşdırılır.

Daha sonra sənədlərə baxış keçirilir, saxlanılan şəxslərlə kollektiv və ya təkbətək, konfidensial şəkildə söhbət aparılır. Saxlanılan şəxslərlə kollektiv söhbətlərin aparılması əsas etibarilə başçəkmənin məqsədindən asılıdır. Vəziyyətdən asılı olaraq söhbətlərin hansı şəkildə aparılmasını MPQ üzvləri başçəkmə yerində müəyyən edə, yaxud ilkin razılaşmaya düzəliş edə bilər.

Müəssisə əməkdaşları ilə söhbət də başçəkmənin vacib məsələlərindəndir. MPQ üzvləri başçəkmə həyata keçirərkən saxlanılan şəxslərə görə cavabdehlik daşıyan müəssisə əməkdaşlarının rəftar baxımından yanaşmalarını qiymətləndirmək məqsədi ilə onlarla müsahibələr təşkil edirlər. Bəzi hallarda müəssisələrin personalı ilə söhbətlə yanaşı onlar üçün nəzərdə tutulmuş xüsusi sorğu anketlərindən də istifadə olunur.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun söhbət aparılaraq MPQ tərəfindən aşkar edilmiş hallarla bağlı məlumat verilir. Yerində aradan qaldırıla biləcək məsələlər onun diqqətinə çatdırılır və müvafiq tövsiyələr verilir. Eyni zamanda nəticələrlə bağlı müvafiq orqanın rəhbərliyinə müraciət ediləcəyi bildirilir.

*Başçəkmədən sonrakı tədbirlər.* MPM-in fəaliyyətinin məqsədi yalnız müvafiq yerlərə başçəkmədən ibarət deyil və müxtəlif müəssisələrdə saxlanılan şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmiş fəaliyyətin təşkili də bu prosesə daxildir.

Məhz ona görə də başçəkmə yekunlaşdırıldıqdan sonra onun nəticələrinə dair hesabat tərtib edilir, nəticələr təhlil olunur, rəftar və şəraitin yaxşılaşdırılması üçün tövsiyələr hazırlanaraq müvafiq qurumlara göndərilir.

Adətən MPQ-nin zəruri hesab etdiyi hallarda başçəkmədən sonrakı yaxın dövr ərzində müəssisə ilə əlaqədar verilmiş tövsiyələrin icrası vəziyyətinin yerində yoxlanılması məqsədi ilə təkrar başçəkmə günü təyin edilir və müvafiq olaraq həyata keçirilir.

2019-cu ildə MPQ üzvləri tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə plan üzrə 170, plandankənar isə 98 olmaqla, cəmi 268 başçəkmə həyata keçirilmişdir.

Müvafiq olaraq DİN-in tabe müəssisələrində 139, ƏN-in müəssisələrində 44, DTX-nin müəssisələrində 4, DMX-nin müəssisələrində 3, SN-in müəssisələrində 20, MN müəssisələrinə 1, ƏƏSMN-in müəssisələrində 11, TN-nin müəssisələrində 34, yerli icra hakimiyyəti orqanlarının müəssisələrində 12 başçəkmə keçirilmişdir.

Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə fərdi qaydada sayca 1445 şəxslə, habelə bu müəssisələrdə çalışan 400-ə qədər əməkdaşla hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar olmaqla və bütün hallarda əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmişdir.

Ötən illərdə olduğu kimi, cari il ərzində də aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması, saxlanma şəraitinin təkmilləşdirilməsi üçün müəssisə rəhbərlərinə, habelə aidiyyəti nazirliklərə müvafiq təklif və tövsiyələr verilmiş, həmin orqanlar tərəfindən hər bir tövsiyə üzrə uyğun tədbirlər həyata keçirilərək görülmüş işlərin nəticələri barədə MPM-in funksiyalarını həyata keçirən Müvəkkilə məlumat verilmişdir.

Hər il planlı və plandankənar şəkildə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə həyata keçirilən başçəkmələr zamanı müraciət edən çoxsaylı şəxslə təklikdə və konfidensial görüşlər keçirilməklə yanaşı, onların müraciətləri qəbul edilmiş və yerində araşdırılmışdır. MPQ-yə çatdı-rılan müraciətlər nəzərə alınmaqla müvafiq tədbirlər görülmüş, hüquqi məsləhətlər verilmiş, icraata qəbul edilməsi təmin edilmişdir.

Başçəkmələr zamanı, habelə saxlanılan şəxslərdən, onların ailə üzvlərindən və vəkillərindən, hüquq müdafiəçilərindən Aparatavəqaynar xətlərə, eyni zamanda vətəndaş cəmiyyəti institutları, qeyri-hökumət təşkilatlarından və Beynəlxalq Qızıl Xaç Komitəsindən Müvəkkilə ünvanlanmış müraciətlər üzrə aparılmış araşdırmalar da daxil olmaqla, çoxsaylı şəxslər qəbul olunmuşdur.

Bu sahədə olan müraciətlərlə bağlı müvafiq araşdırmalar aparılmış, zərurət yarandıqda isə yoxlanılması üçün Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə, Ədliyyə Nazirliyinə və digər əlaqəli dövlət qurumlarına müraciət edilmişdir. Araşdırmaların nəticəsi olaraq müraciətlər təmin edilmiş, hər bir şəxsə vaxtında və yazılı surətdə cavab verilmişdir.

### 2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində müvəqqəti saxlama yerlərinə, polis bölmələrinə planlı və plandankənar olmaqla *139* başçəkmə həyata keçirilmişdir. Bu müəssisələrdə *570* saxlanılan şəxslə fərdi söhbətlər aparılmış, onların saxlanma şəraiti qiymətləndirilmiş, saxlanıldıqları müddət ərzində, habelə tutularkən pis rəftara məruz qalıb-qalmamaları araşdırılmışdır.

Müvəkkil və onun MPQ üzvləri tərəfindən rayon (şəhər) polis orqanlarının rəhbərliyi və şəxsi heyəti ilə görüşlər keçirilmiş, onlarla hüquqi maarifləndirmə işi aparılmış, insan hüquq və azadlıqlarının təmin olunmasına xüsusi diqqət yetirilməsinin vacibliyi diqqətə çatdırılmış, bu sahədə əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Keçirilən görüşlərdə təsisatın hüquqi nəşrləri, tədris vəsaitləri təqdim edilmiş, həmin vəsaitlərin öyrənilməsi, treninq və təlimlərdə istifadə olunması, təcrübədə tətbiqi tövsiyə olunmuşdur.

*Ombudsmanın "Qaynar xətt" nömrələrinin əks olunduğu müvafiq elanların mövcud olub-olmadığı monitorinq edilmiş və olmayan yerlərdə qaynar xəttə dair plakatlar təqdim olunmaqla əlçatanlığı təmin edilmişdir.*

Müvəqqəti saxlama yerlərinə keçirilmiş başçəkmələr zamanı isə, polis orqanlarına gətirilən şəxslərin bu və ya digər şəkildə pis rəftara məruz qalma ehtimalının olub-olmaması da araşdırma predmeti olmuş və həmin şəxslərə münasibətdə məlumatların konfidensiallığı təmin edilmişdir.

İnsan hüquqlarının daha etibarlı təmin edilməsi istiqamətində tədbirlərin davam etdirildiyi, müvəqqəti saxlama yerlərində mövcud saxlanma şəraitinin müasir standartlara uyğunlaşdırılması, maddi-texniki bazanın yenidən qurulması və təkmilləşdirilməsi istiqamətində işlərin həyata keçirildiyi müşahidə edilmişdir.

Bununla yanaşı, saxlanılan şəxslərə qarşı münasibətin yaxşılaşdırılması, müəyyən edilmiş nöqsanların və onlara şərait yaradan halların aradan qaldırılması üçün müvafiq işlərin görüldüyü, MSY-lərin işinə nəzarətin gücləndirildiyi müşahidə edilmişdir.

Aşkar olunmuş pozuntuların araşdırılması ilə bağlı, MPM qismində Müvəkkilin DİN-ə müraciətləri diqqətdə saxlanılmış, pozuntular aradan qaldırılmış, təqsirkar şəxslər qanunvericilik çərçivəsində cəzalandırılmış və bu barədə digər polis orqanları məlumatlandırılmışdır ki, bu da pozulmuş hüquqların bərpasına mühüm töhfədir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Milli Preventiv Qrup (MPQ) tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən ***Daxili İşlər Nazirliyinin İnzibati***

***həbs olunanların saxlanma məntəqəsinə (İHOSM*)** başçəkmələr həyata keçirilib.

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil edilmiş başçəkmədə məqsəd bu müəssisədə saxlanma şəraiti və rəftarın, saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin, habelə Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılmasından ibarət olub.

MPQ üzvlərinin iştirak etdiyi başçəkmələr zamanı saxlanma şəraiti ilə bağlı müəssisənin kameralarına, gəzinti, görüş yerlərinə və digər obyektlərə baxışlar keçirilib, habelə tibbi yardımın təşkili, qidalanma, içməli isti və soyuq su təminatı, sovqat, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılıb.

*Növbəti başçəkmədə müəssisədə saxlanılan şəxslərin hüquqlarının təmin olunma vəziyyəti, qaldırılan məsələlər, sənədləşmə araşdırılıb, onların bir sıra müraciətləri, o cümlədən T.Yaqublunun ailə üzvü ilə görüşü və saxlanma şəraiti ilə bağlı müraciəti təmin edilib.*

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılıb, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilib[14].

*Başçəkmənin nəticələri və sıxlıqla bağlı görülməli tədbirlərlə əlaqədar DİN-ə müraciət edilmiş və məsələ həllini tapmışdır.*

***Daxili İşlər Nazirliyinin Nərimanov Rayon Polis İdarəsinin (RPİ) Müvəqqəti saxlama yerinə*** və ***həmin polis idarəsinin 16-cı bölməsinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, qanunvericiliyə müvafiq şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Müvəqqəti saxlama yerinə (MSY) başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, kameralara baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

*Başçəkmə zamanı MSY-də saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə MPQ üzvləri tərəfindən saxlanılan şəxslər fərdi*

[14]https://mikroskopmedia.com/2019/10/23/ombudsman-aparatinin-numay%C9%99nd%C9%99l%C9%99ri-tofiq-yaqublu-il%C9%99-gorusub/

*qaydada qəbul edilmiş, müraciətləri dinlənilmiş, hər birinə Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmiş, bir sıra müraciətlər isə yerində araşdırılaraq təmin edilmişdir.*

Başçəkmənin yekununda Nərimanov RPİ-nin və MSY-nin əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, müraciətlərin göndərilməsi, sənədləşmə, qeydiyyatla bağlı müəyyən edilmiş bəzi nöqsanların aradan qaldırılması məqsədilə müvafiq tövsiyələr verilmişdir[15].

***DİN-in Bakı ŞBPİ-nin Yetkinlik yaşına çatmayanların müvəqqəti təcridetmə məntəqəsinə*** MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq edilmədən başçəkmə həyata keçirimişdir.

*Başçəkmə zamanı qeyd olunan müəssisədə təyinatına uyğun olmayaraq müxtəlif yaş qruplarından olan, dilənçilik və avaralıqla məşğul olduqları bildirilən çoxlu sayda şəxsin saxlanıldığı müəyyən edilmişdir.*

*Saxlanılan şəxslərlə söhbət zamanı onlardan bir neçəsi 3 gündən artıq həmin müəssisədə saxlanıldıqlarını bildirmiş, o cümlədən saxlama şəraitindən və qidalanmadan narazılıqlarını qeyd etmişlər.*

*Həmçinin saxlama yerinə baxış keçirilən zaman çarpayı sayının saxlanılan şəxslərin sayından az olduğu, o cümlədən çarpayılarda müvafiq yataq dəstlərinin olmadığı müəyyən edilmişdir.*

Məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması və təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

*Başçəkmələrin nəticələrinə dair Ombudsman tərəfindən DİN-ə müraciət edilmiş və məsələ həllini tapmışdır.*

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən ***Quba Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə MPQ üzvləri tərəfindən saxlanılan şəxslər fərdi qaydada qəbul edilmiş, müraciətləri dinlənilmiş, hər birinə Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmiş, bir sıra müraciətlər isə yerində araşdırılaraq təmin edilmişdir.

Başçəkmənin yekununda MSY rəisi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, müraciətlərin göndərilməsi, sənədləşmə, qeydiyyatla bağlı müəyyən edilmiş nöqsanların aradan qaldırılması məqsədilə müvafiq tövsiyələr verilmişdir.

***Qusar Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

---

[15]https://www.mia.az/w782004/ombudsman-qrupu-nerimanov-polisinde-neler-ashkarladidin-e-muraciet-edilecek

Başçəkmə zamanı MSY-də saxlanılan şəxslər fərdi qaydada qəbul edilmiş, müraciətləri dinlənilmiş, hər birinə Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmiş, bir sıra müraciətlər isə yerində araşdırılaraq təmin edilmişdir.

***Siyəzən Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkməhəyata keçirilmişdir.

Başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, kameralara baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

*Məlum olmuşdur ki, əvvəllər məhkumluğu olmayan Ə.İ. və məhkum olunmuş B.İ. bir kameraya yerləşdirilmişdir.Məsələ araşdırılaraqyerindətəmin olunmuşdur.*

Başçəkmənin yekununda MSY rəisi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, müəyyən edilmiş nöqsanların aradan qaldırılması məqsədilə müvafiq tövsiyələr verilmişdir.

***Xaçmaz Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə***keçirilmiş başçəkmə zamanı MSY-də saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə MPQ üzvləri tərəfindən saxlanılan şəxslər fərdi qaydada qəbul edilmişdir.

*Məlum olmuşdur ki, şübhəli şəxsin tutulması haqqında qərarın Ə.R.-ə elan olunması və təqdim edilməsi barədə qərarda tarix göstərilməmiş, yeməklə təmin olunması haqqında cədvəllər, nahar və şam yeməyi vaxtı çatmadığı halda əvvəlcədən imzalanmışdır. Məsələ araşdırılaraq yerində həll olunmuşdur.*

Başçəkmənin yekununda MSY rəisi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, sənədləşmə və qeydiyyatla bağlı işlərin təkmilləşdirilməsinə yönəlik müvafiq tövsiyələr verilmişdir.

***Şabran Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, qanunvericiliyə müvafiq şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MSY-də saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə MPQ üzvləri tərəfindən saxlanılan şəxslər fərdi qaydada qəbul edilmiş, müraciətləri dinlənilmiş, hər birinə Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmişdir.

***Xızı Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

MSY-yə başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, kameralara baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

MSY-də saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə MPQ üzvləri tərəfindən saxlanılan şəxslərlə fərdi söhbətlər aparılmış, hər birinə Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmişdir.

Başçəkmənin yekununda MSY rəisi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, müraciətlərin göndərilməsi, sənədləşmə və qeydiyyatla bağlı müəyyən edilmiş nöqsanların aradan qaldırılması məqsədilə müvafiq tövsiyələr verilmişdir.

***Şəki Şəhər-Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, qanunvericiliyə müvafiq şəkildə saxlanılan şəxslərin hüquqlarının təmini, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MSY-də yalnız inzibati qaydada həbs edilmiş şəxslər olmuş, müraciətlərin, saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə MPQ üzvləri tərəfindən onlar fərdi qaydada qəbul edilmiş, müraciətləri dinlənilmiş, hər birinə Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmişdir.

***Lənkəran Şəhər-Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

Müvəqqəti saxlama yerinə başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmışdır.

MSY-də saxlanılan hər bir şəxs MPQ üzvləri tərəfindən fərdi qaydada qəbul edilmiş və müraciətləri dinlənilmişdir. Onlarla aparılan söhbət zamanı hər birinə Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmişdir.

Başçəkmənin yekununda MSY rəisi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, müvafiq tövsiyələr verilmişdir.

***Salyan Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə MPQ üzvləri tərəfindən saxlanılan şəxslər fərdi qaydada qəbul edilmiş, müraciətləri dinlənilmiş, hər birinə Ombudsmanın

səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmiş, bir sıra müraciətlər isə yerində araşdırılaraq təmin edilmişdir.

*Salyan rayon məhkəməsinin qərarı ilə inzibati məsuliyyətə cəlb olunaraq həbs cəzası alan S.Ə. və Q.V. tutulduqları zaman təzyiqə məruz qaldıqlarını bildirmişdir. Lakin onların bədəninə baxış keçirilərkən heç bir xəsarət izi aşkar edilməmişdir. Həmin şəxslərin Müvəkkilə ünvanladıqları müraciət qəbul olunmuşdur.*

Başçəkmənin yekununda MSY rəisi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, saxlanma şəraiti və rəftarla bağlı müvafiq tövsiyələr verilmişdir.

***Masallı Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

MSY-yə başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, kameralara baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Başçəkmə zamanı saxlanılan şəxslər fərdi qaydada qəbul edilmiş, hər birinin müraciəti dinlənilərək Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmişdir.

***Cəlilabad Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmə həyatakeçirilmişdir.

MSY-yə başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, kameralara baxış-lar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmışdır. *Qeyd etmək lazımdır ki, əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra olunduğu və nöqsanların aradan qaldırıldığı müşahidə olunmuşdur.*

Başçəkmə zamanı MSY-də saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması məqsədilə MPQ üzvləri tərəfindən saxlanılan şəxslər fərdi qaydada qəbul edilmiş, müraciətləri dinlənilmiş və yerində araşdırılaraq təmin edilmişdir.

Başçəkmənin yekununda MSY rəisi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, müraciətlərin göndərilməsi, sənədləşmə ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

***Naftalan Şəhər Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** planlı başçəkməhəyata keçirilmişdir.

Başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində MPQ üzvləri tərəfindən MSY-nin kameralarına, tanınma, istintaq, tibb, iki otaqdan ibarət şüşə arakəsməli görüş, ibadət və televiziya otaqlarına, dezinfeksiya otağına, mətbəxə, MSY rəisinin otağına və şəxsi əşyaların saxlanc otağına, gəzinti sahəsinə baxış keçirilmişdir. Kameraların ölçülərinin müasir standartlara uyğun qaydada və şəraitin sanitar normalara uyğun, saxlanılanların hüquqlarının təmin edilməsinə imkan verən şəraitdə olması, MSY-nin qış aylarında mərkəzləşdirilmiş istilik sistemi ilə qızdırılması, daimi isti və soyuq su ilə təmin edilməsi, saxlama kameralarındakı çarpayıların yataq ləvazimatları ilə təmin edilməsi, MSY-nin bütün otaqlarının və kameraların təyinatına uyğun olaraq zəruri inventarlarla təchiz edilməsi müəyyən edilmişdir.

Habelə tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət yoxlanılmış və sənədləşmə aparılmışdır.

*Başçəkmə zamanı Goranboy RPŞ-nin MSY-də əsaslı təmir işləri aparılması səbəbindən, həmin RPŞ-nin hesabında olan təqsirləndirilən və inzibati qaydada həbs olunan şəxslərin, müvəqqəti olaraq Naftalan ŞPŞ-nin MSY-də saxlanıldığı müşahidə edilmişdir.*

Başçəkmənin yekununda MPQ üzvləri tərəfindən Naftalan ŞPŞ-nin rəhbərliyinə və MSY-nin əməkdaşlarına "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununu barədə geniş məlumatlar verilmiş, "Tutulmuş və həbs edilmiş" şəxslərin hüquq və vəzifələri, saxlanılma məntəqələrində daxili intizam qaydaları barədə maarifləndirmə işi aparılmış, sənədləşmələrin, qeydiyyat işlərinin vaxtında aparılması və saxlanma şəraitinədair müvafiq tövsiyələr verilmişdir.

***Astara Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** həyata keçirilmişbaşçəkmə zamanı MSY-nin kameralarına, tanınma və istintaq otağına, tibb otağına, mətbəxə, görüş, gəzinti və şəxsi əşyaların saxlanc yerlərinə baxış keçirilmişdir.

MSY-də saxlanılan şəxslər təklikdə qəbul edilmiş, qidalanmaları, həkim nəzarəti, xidmət əməkdaşlarının onlarla rəftarı və müraciətlər yerində araşdırılmışdır.

Başçəkmənin yekununda MSY-nin əməkdaşlarına müvafiq qanunvericilik barədə maarifləndirmə işi aparılmış, saxlanma şəraitinin daha da təkmilləşdirilməsi üçün müvafiq tövsiyələr verilmişdir.

***Daşkəsən Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** planlı və plandankənar başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr zamanı Daşkəsən RPŞ-nin MSY-nə ümumi baxış keçirilmiş, saxlama kameralarının, hamamın, mətbəxin, istintaq otağının, gəzinti sahəsinin vəziyyətinin və MSY-də şəraitin qənaətbəxş olduğu müəyyən edilmişdir.

*MSY-nin qeydiyyat jurnallarına baxış keçirilmiş, 2019-cu il üçün nəzərdə tutulan qeydiyyat kitablarının əksəriyyətinin(MSY-də yoxlamanı icra edən şəxslərin qeydləri və Kameradan çıxarılmanın qeydiyyatı kitabı istisna olmaqla) mövcud olmaması müəyyən edilmiş, həmçinin inzibati qaydada saxlanılan şəxs A.R.-nin üz nahiyəsindəki xəsarətlə bağlı həkim müayinəsi zamanı tibbi kitabçada qeydlər aparılsa da, MSY-nin əməkdaşları tərəfindən xəsarətlər barədə akt tərtib edilmədiyi aşkar edilmişdir.*

*Qeyd edilən nöqsanlar Daşkəsən RPŞ-nin rəhbərliyi ilə müzakirə olunmuş, MSY-nin yeni qeydiyyat kitabları ilə təchiz edilməsi təmin edilmişdir. İnzibati qaydada saxlanılan şəxsin xəsarətinin aktlaşdırılmaması isə həmin xəsarəti saxlanılan şəxsin tutulmazdan əvvəl yıxılaraq alması və bu barədə həkim qeydinin olması ilə izah edilmişdir.MPQ üzvləri tərəfindən səbəbindən asılı olmayaraq daxil olan saxlanılan şəxslərin xəsarətləri barədə gələcəkdə hər bir halda müvafiq aktın tərtib edilməsi tövsiyə olunmuşdur.*

Başçəkmənin yekununda MPQ üzvləri tərəfindən Daşkəsən RPŞ-nin MSY-nin əməkdaşlarına  "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununu, Milli Preventiv Mexanizmin funksiyaları barədə geniş məlumatlar verilmiş, "Tutulmuş və həbs edilmiş" şəxslərin hüquq və vəzifələri, saxlanılma məntəqələrində daxili intizam qaydaları və qeydiyyatın təkmilləşdirilməsi barədə maarifləndirmə işi aparılmış, saxlanma  şəraitinin təkmilləşdirilməsi üçün müvafiq tövsiyələr verilmişdir.

***Mingəçevir Şəhər Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı MSY-nin  kameralarına, tanınma və istintaq otağına, tibb otağına, mətbəxə, görüş, gəzinti və şəxsi əşyaların saxlanc yerlərinə baxış keçirilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanılan şəxslər təklikdə qəbul edilmiş, qidalanmaları, həkim nəzarəti, xidmət əməkdaşlarının onlarla rəftarı və müraciətlər yerində araşdırılmışdır.

Başçəkmənin yekununda MSY-nin əməkdaşlarına  "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu barədə geniş məlumatlar verilmiş, "Tutulmuş və həbs edilmiş" şəxslərin hüquq və vəzifələri, saxlanılma məntəqələrində daxili intizam qaydaları barədə maarifləndirmə işi aparılmış, saxlanma  şəraitinin daha da təkmilləşdirilməsi üçün müvafiq tövsiyələr verilmişdir.

***Gəncə Şəhər Baş Polis İdarəsinin Müvəqqəti saxlama yerinə***əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd, müəssisədə saxlanma şəraitinin və rəftarın, saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin tibb-sanitar hissəsinə, MSY-nin bütün kameralarına, gəzinti sahəsinə, mətbəxə, tanınma otağına, istintaq otağına, görüş otağına, tibb otağına, ibadət otağına, inventar anbarına baxış keçirilmiş, şəraitin sanitar normalara uyğun olduğu, saxlanılanların hüquq və azadlıqlarının təmin edilməsinə imkan verdiyimüəyyən edilmişdir.

Habelə tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət yoxlanılmış və sənədləşmə aparılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan, inzibati və cinayət törətməkdə təqsirləndirilən şəxslər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, qaldırdıqları məsələlər, sənədləşmə yerində araşdırılmışdır.

Qeydiyyat kitabları ilə tanışlıq zamanı həmin kitablarda müvafiq qeydlərin aparılıdğı müşahidə edilmişdir.

MSY-nin əməkdaşlarına müvafiq qanunvericiliyə, o cümlədən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Haqqında" Konstitusiya Qanununa, İşgəncələrə qarşı milli preventiv mexanizm mandatına uyğun olaraq hüquqi məlumatlar verilmiş, Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarına müvafiq şəkildə sənədləşmənin təkmilləşdirilməsi, saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələr edilmişdir.

***Yevlax Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** başçəkmələr həyata keçirilmişdir. Başçəkmələr çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, kameralara baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanma şəraitinin araşdırılması ilə bağlıkameralara baxış keçirilmiş, rəftar məsələlərinin araşdırılması məqsədilə isə MPQ üzvləri tərəfindən saxlanılan şəxslər fərdi qaydada qəbul

edilmiş, müraciətləri dinlənilmiş, hər birinə Ombudsmanın səlahiyyətləri izah olunmuş və hüquqi məsləhətlər verilmiş, bir sıra müraciətlər isə yerində araşdırılaraq təmin edilmişdir.

*Yevlax rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə həyata keçirilən başçəkmə zamanıAR CM-nin 234.1-ci maddəsilə təqsirləndirilən K.O. üzərindəki xəsarətin müəssisə rəhbərliyi tərəfindən qeydə alınmadığı müşahidə olunmuşdur. Bu hal dərhal qeydə alınmalı və müəssisə rəhbərliyi tərəfindən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməlidir.*

*Ərizəçinin şəxsi işi ilə tanışlıq zamanı aldığı xəsarətə dair hər hansı bir qeydin olmadığı, tibbi kitabçada da xəsarət barəsində qeyd aparılmadığı müəyyən edilmişdir. MPQ üzvləri tərəfindən saxlanılan şəxsin iştirakı ilə xəsarətə dair akt tərtib edilmiş və müraciət müvafiq qaydada qaldırılmışdır.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş Müvəqqəti saxlama yerlərinin Daxili İntizam Qaydalarının 2.6-ci bəndinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslər MSY-yə qəbul edildikdən dərhal sonra onların hər hansı müşahidə olunan bədən xəsarətləri və MSY-yə daxil olana qədər məruz qaldığı hər hansı işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar barədə şikayətləri qeydiyyata alınmalı və onlar 24 saat müddətində tibb işçiləri tərəfindən tibbi müayinədən keçirilməlidirlər. Müayinənin nəticələrinə dair müvafiq qeydiyyat aparılır. Həmçinin həmin qaydaların2.7-ci bəndinə əsasən işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar ilə əlaqədar şikayətlər, habelə tibbi müayinə zamanı müəyyən edilən işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar nəticəsində törədildiyi güman edilən bədən xəsarətləri barədə yazılı məlumatlar müvafiq araşdırma aparılması üçün dərhal ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməlidir.*

Başçəkmənin yekununda MSY rəisi və əməkdaşları ilə bu mövzuda hüquqi maarifləndirici söhbətlər aparılmış, müraciətlərin göndərilməsi, sənədləşmə, qeydiyyatla bağlı müəyyən edilmiş nöqsanların aradan qaldırılması məqsədilə müvafiq tövsiyələr verilmişdir.

*Növbəti başçəkmə zamanışübhəli şəxs qismində tutulmuş R.Ə. barəsində tərtib edilmiş tutma protokolunun gerbli möhürlə möhürlənmədiyi, bundan əlavə müdafiəçi tərəfindən imzalanmadığı aşkar edilmiş və bu barədə akt tərtib edilmişdir.*

*Belə ki, Azərbaycan Respublikası Cinayət Prosesual Məcəlləsinin 92.3-cü maddəsində müdafiəçinin iştirakının məcburi olduğu hallar sadalanmışdır. Həmin hallardan biri AR CPM-nin 92.3.9-cu maddəsində şübhəli və ya təqsirləndirilən şəxs tutulduqda və ya təqsirləndirilən şəxs*

*haqqında qətimkan tədbiri qismində həbs tətbiq edilməsi halıdır ki, qeyd olunan vəziyyətdə R.Ə. barəsində tərtib edilmiş tutma protokolunda müdafiəçinin imzasının olmaması, həmin protokolun müdafiəçinin iştirakı olmadan tərtib olunması prosessual pozuntu kimi qiymətləndirilməlidir.*

***Qazax Rayon Polis Şöbəsinin Müvəqqəti saxlanılma yerinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı Qazax RPŞ-nin MSY-də saxlanılan 7 nəfər polis əməkdaşlarının rəftarından və saxlanma şəraitindən narazı olmadıqlarını bildirmişlər.*Saxlanılan şəxslərdən Gürcüstan Respublikası vətəndaşları Z.V. və Q.D. onlara verilən suallara cavab olaraq saxlanılmaları barədə Gürcüstan Respublikasının ölkəmizdəki səfirliyinin məlumatlı olduğunu və səfirlik əməkdaşlarının onlarla görüşdüklərini bildirərək saxlanma şəraitlərini daim diqqətdə saxladığına görə Azərbaycan dövlətinə və Müvəkkilə təşəkkür etmişlər.*

MSY-dəki saxlanma şəraitinin təkmilləşdirilməsi və saxlanılan şəxslərin hüquqlarının effektiv təmin edilməsilə bağlıMPQ üzvləri tərəfindən Qazax RPŞ-nin MSY-nin əməkdaşlarına tövsiyələr verilmişdir.

***Ağstafa Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** əvvəlcədən xəbərdarlıq etmədənplanlı başçəkmə həyata keçirilmişdir.

*Başçəkmə zamanı Ağstafa RPŞ-nin MSY-nə ümumi baxış keçirilmiş, saxlama kameralarının, hamamın, mətbəxin, tibb otağının, ibadət otağının, istintaq otağının, gəzinti sahəsinin vəziyyətinin qənaətbəxş olması və saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə MSY-nin kameralarında və koridorlarda təmir işlərinin aparılması, döşəmələrə istilik sisteminin çəkildiyi müşahidə edilmişdir.*

MSY-dəki saxlanma şəraitinin daha da təkmilləşdirilməsi, MSY əməkdaşlarının qanunvericiliklə bağlı nəzəri hazırlığı üçün MPQ üzvləri tərəfindən MSY əməkdaşlarına müvafiq tövsiyyələr verilmişdir.

***Tovuz Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerində***əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmiş başçəkmələrdə məqsəd saxlanma şəraitinin və rəftarın araşdırılması, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa və Müvəqqəti saxlama yerlərinin Daxili İntizam Qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MSY-də saxlanılan şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada dinlənilmiş, müraciətləri qəbul edilmiş və cavablandırılmış, onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir. Bunlarla yanaşı, həmin şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə onlara qarşı rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, MSY-nin kameralarına baxışlar

keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

*Bununla yanaşı başçəkmə zamanı, MSY-nin kameralarındakı şəraitlə və saxlanılanların vəziyyəti ilə tanış olunan zaman MSY-nin 5-ci kamerasında əvvəllər məhkum edilmiş və hazırda təqsirləndirilən Q.V., ilk dəfə cinayət törətməkdə təqsirləndirilən V.V.ilə birlikdə saxlanılması müəyyən edilmiş, müəyyən edilmiş nöqsanla bağlı MSY növbətçisinin iştirakı ilə akt tərtib edilmişdir. Məsələ yerində həll olunmuşdur.*

Saxlanılan şəxslər MSY əməkdaşlarının onlarla rəftarından və müəssisədə saxlanma şəraitindən şikayət etməmişlər.

Saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair MPQ üzvləri tərəfindən MSY rəisinə müvafiq tövsiyələr verilmişdir.

***Tovuz RPŞ-nin Qovlar Polis Bölməsinə*** plandankənar başçəkmə həyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd, müəssisədə saxlanma şəraitinin və rəftarın, saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı Tovuz RPŞ-nin Qovlar Polis Bölməsinin kameralarında saxlanılan şəxs aşkar edilməmişdir.

MPQ üzvləri tərəfindən Tovuz RPŞ-nin Qovlar Polis Bölməsinin qeydiyyat jurnallarına baxış keçirilmiş, müvafiq qeydlərin aparıldığı müəyyən edilmişdir.

Başçəkmənin yekununda Qovlar PB-nin əməkdaşlarına "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu, habelə tutulmuş və həbs edilmiş şəxslərin hüquq və vəzifələri, saxlanılma məntəqələrində daxili intizam qaydaları barədə maarifləndirmə işi aparılmış, saxlanma şəraitinin daha da təkmilləşdirilməsi üçün müvafiq tövsiyələr verilmişdir

***Oğuz Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** həyata keçirilmiş başçəkmə zamanı MSY-nin kameralarına, tanınma və istintaq otağına, tibb otağına, mətbəxə, görüş, gəzinti və şəxsi əşyaların saxlanc yerlərinə baxış keçirilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanılan şəxslər təklikdə qəbul edilmiş, qidalanmaları, həkim nəzarəti, xidmət əməkdaşlarının onlarla rəftarı və müraciətlər yerində araşdırılmışdır.

Başçəkmənin yekununda MSY-nin əməkdaşlarına "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu barədə geniş məlumatlar verilmiş, tutulmuş və həbs edilmiş şəxslərin hüquq və vəzifələri, daxili intizam qaydaları barədə maarifləndirmə işi aparılmış, saxlanma şəraitinin daha da təkmilləşdirilməsi üçün müvafiq tövsiyələr verilmişdir.

***Şəmkir Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** həyata keçirilmiş başçəkmədə məqsəd, müəssisədə saxlanma şəraitinin və rəftarın, saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində saxlanılma şəraiti ilə bağlı MSY-nin kameralarına, istintaq otağına, tibb otağına, görüş yerinə, gəzinti sahəsinə, mətbəxə, inventar anbarınabaxış keçirilmişdir.

Tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət yerində yoxlanılmışdır.

MSY-də şəraitin sanitar normalara uyğun olduğu, saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsinə imkan verdiyi müəyyən edilmişdir.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan, inzibati xəta və cinayət törətməkdə təqsirləndirilən şəxslər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, qaldırdıqları məsələlər, sənədləşmə yerində araşdırılmışdır.

*Başçəkmə zamanı, təqsirləndirilən şəxslərdən AR CM-nin 150.2.1-ci maddəsilə təqsirləndirilən Ə.Ə., A.R. və Ə.İ. eyni cinayət hadisəsi ilə bağlı təqsirləndirilmələrinə baxmayaraq, hər üçünün eyni kamerada saxlanılmaları müəyyən edilmişdir. Həmçinin saxlanılan şəxs A.R.-nın alın nahiyyəsində sıyrıq izi olsa da (deməsinə görə 2 saylı istintaq təcridxanasında yıxılarkən olub) bu barədə şəxsi işində, tibbi kitabçasında və ya MSY-nin tibbi yardımın göstərilməsinin qeydiyyatı kitabında hər hansı qeyd aparılmadığı, MSY əməkdaşları tərəfindən akt tərtib olunmadığı müəyyən edilmişdir.*

*İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsi (CPT)də hesab edir ki, hər bir tutulmuş şəxsin qeydə alındığı, həbsdə saxlanılmanın bütün aspektlərini və həbsə alınanlar barəsində görülən bütün tədbirləri (o cümlədən xəsarətin əlamətləri) əks etdirən əhatəli vahid qeydiyyat aparılsaydı, polis tərəfindən həbsə alınmış şəxslər üçün əsas təminatlar gücləndirilmiş olardı (CPT, GR 2, 40).*

*Növbəti başçəkmə zamanı, Şəmkir RPŞ-nin qeydiyyat jurnallarından- "MSY yoxlama-müraciət edən şəxslərin qeydləri və təklifləri" kitabı, həmçinin "İnzibati qaydada həbs olunan şəxslərin mühafizəsinin*

*yoxlanılmasının nəticəsinə dair qeyd və təkliflər" kitabında MSY yoxlayan şəxlər arasında Şəmkir RPŞ Cinayət Axtarış Bölməsi rəisinin və əməliyyat müvəkillərinin də imzalarının olduğu müəyyən edilmiş və Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən MSY-də aşkar edilmiş nöqsanla bağlı akt tərtib edilmişdir.*

*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 2014-cü il 11 iyun tarixli Q14-001-14 nömrəli qərarı ilə təsdiq edilmiş İnzibati həbs olunanların saxlanılma məntəqələri haqqında müvəqqəti Əsasnamənin 4.11-ci bəndində Əsasnamədə göstərilməyən şəxslərin məntəqəyə daxil olmasının qəti qadağan olması qeyd edilmişdir. Əsasnamədə göstərilən şəxslər arasında CAB-nin rəisinin və əməliyyat müvəkillərinin olmamasına baxmayaraq, qeyd olunan şəxslər məntəqəyə daxil olaraq yoxlama aparmışlar və qeyd olunan hal həbs edilmiş şəxslərin işgəncəyə məruz qalması üçün real zəmin yaratmaqla, Azərbaycan Respublikasının Konstitusiyası, həmçinin beynəlxalq normativ hüquqi aktlarla təminat verilən insan hüquqlarının pozulması üçün şərait yaradır.*

***Göygöl Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerində***əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmiş başçəkmələrdə məqsəd saxlama şəraitinin və rəftarın araşdırılması, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa və Müvəqqəti saxlama yerlərinin Daxili İntizam Qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr zamanı MSY-də saxlanılan şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada dinlənilmiş, müraciətləri qəbul edilmiş və cavablandırılmış, onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir. Bunlarla yanaşı, həmin şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə onlarla rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, MSY-nin kameralarına baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanılan AR İXM-nin 528.1-ci maddəsilə təqsirli bilinərək Göygöl Rayon Məhkəməsinin qərarı inzibati qaydada həbs edilmiş C.A. qəbul edilmiş, onun saxlanma şəraiti və MSY-nin əməkdaşlarının onunla rəftarı araşdırılmışdır. Saxlanılan şəxs MSY-dəşəraitdən və polis əməkdaşlarının rəftarından narazı olmadıqlarını bildirmiş, hakimin barəsində ədalətsiz qərar verdiyini iddia edərək hakim barəsində Məhkəmə Hüquq Şurasına müraciət etmək qaydalarının ona izah edilməsini xahiş etmişdir. *MPQ-nin üzvləri tərəfindən saxlanılan şəxsə qeyd etdiyi məsələ ilə bağlı hüquqi məsləhət verilmişdir.*

*Növbəti başçəkmə zamanı Ombudsmanın Gəncə Regional Mərkəzinin əməkdaşları tərəfindən Göygöl RPŞ-nin MSY-nin qeydiyyat jurnallarına baxış keçirilmiş, həmin kitablarda müvafiq qeydlərin aparıldığı müəyyən edilmiş, lakin saxlanılan şəxsin şəxsi işinə baxış zamanı Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 11.06.2014-ci il tarixli qərarı ilə təsdiq edilmiş "İnzibati həbs olunanların Saxlanılma Məntəqələri Haqqında Müvəqqəti Əsasnamə"nin 2.1.2-ci bəndinin tələblərinin pozulması müəyyən edilmişdir. Belə ki, saxlanılan şəxs barəsində şəxsi axtarış haqqında protokolun tərtib edilməməsi müəyyən edimişdir. Başçəkmə zamanı həmçinin MSY-nin rəisi ilə söhbət zamanı müəyyən edilmişdir ki, MSY-yə gətirilən şəxslərin tibbi müayinəsi zamanı tibb işçisinin yanında polislər də iştirak edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 aprel 2013-cü il tarixli Qərarı ilə təsdiq edilmiş "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi və psixoloji yardım göstərilməsi, habelə onların tibbi müəssisələrdə saxlanılması Qaydaları"nın 2.8-ci bəndinə əsasən tibb işçisi tibbi müayinələri digər şəxslərin iştirakı olmadan (təhlükəsizlik tədbirləri istisna olmaqla) aparır.*

Başçəkmənin yekununda saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair MPQ üzvləri tərəfindən MSY rəisinə müvafiq tövsiyələr verilmişdir.

***Gədəbəy Rayon Polis ŞöbəsininMüvəqqəti saxlama yerinə***əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı Gədəbəy RPŞ-nin MSY-nin kameralarına, tibb otağına, görüş yerinə, gəzinti sahəsinə, mətbəxə, istintaq otağına, görüş otağına, ibadət otağına, inventar anbarına və digər obyektlərə baxış keçirilmiş, qeyd edilən MSY-də şəraitin sanitar normalara uyğun, saxlanılanların hüquq və azadlıqlarının təmin edilməsinə imkan verən şəraitdə olması müəyyən olunmuşdur. *Eyni zamanda saxlanma şəraitinin təkmilləşdirilməsi məqsədilə əvvəlki başçəkmələr zamanı verdiyimiz tövsiyələr əsasında MSY-də təmir işlərinin aparıldığı müəyyən edilmişdir.*

Başçəkmə çərçivəsində "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya" və onun Fakültativ Protokolunun müddəaları əsasında polis şöbəsinin əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Başçəkmənin sonunda saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli üzrə müzakirələr aparılmışdır.

***Samux Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** əvvəlcədənxəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd saxlanılan şəxslərlə rəftarın və onların saxlanma şəraitinin araşdırılması olmuşdur.

Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı MSY-nin kameralarına, tibb otağına, görüş yerinə, gəzinti sahəsinə, mətbəxə və digər obyektlərə baxış keçirilmiş, qeyd edilən MSY-də şəraitin sanitar normalara uyğun, saxlanılanların hüquq və azadlıqlarının təmin edilməsinə imkan verən şəraitdə olması müəyyən edilmişdir.

Habelə tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət yoxlanılmışdır.

*Başçəkmə zamanı MSY əməkdaşlarının peşə hazırlığı, eləcə də qanunvericiliklə bağlı məlumatlılığının artırılması səviyyəsi ilə maraqlanan zaman müəyyən edilmişdir ki, MSY-nin əməkdaşları DYP-nin bölmə rəisinin rəhbərlik etdiyi məşğələ qrupuna daxil edilmişlər. Təqdim edilmiş dərs cədvəli ilə tanışlıq zamanı, keçirilən dərslərdə əsasən Samux RPŞ-nin MSY-nin əməkdaşları üçün əhəmiyyətli olan mövzuların olmadığı müəyyən edilmiş və müəssisə rəhbərliyi qarşısında qaldırılmışdır.*

*İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsi (CPT) personalın təliminə böyük diqqət yetirir.Azadlıqdan məhrum edilmiş şəxslərlə qəddar rəftara qarşı ən yaxşı zəmanəti yaxşı təlim görmüş polis və ya həbsxana məmurunun verə bilməsini sübut etmək çətin deyil. Səriştəli məmurlar çıxış yolu kimi qəddar rəftara əl atmadan öz borclarını uğurla yerinə yetirə biləcəklər və müvəqqəti həbsdə saxlanılanların zəmanətlərinin mövcudluğunu təmin edə biləcəklər.*

Başçəkmənin sonunda saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli üzrə müzakirələr aparılmışdır.

***Qax Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerində***əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmiş başçəkmələrdə məqsəd saxlama şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr zamanı MSY-də saxlanılan şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada dinlənilmiş, müraciətləri qəbul edilmiş, onlara hüquqları,Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir. Həmin şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə onlara qarşı rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, MSY-nin kameralarına baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Saxlanılan şəxslər MSY əməkdaşlarının onlarla rəftarından və müəssisədə saxlanma şəraitindən şikayət etməmişlər.

Saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair MPQ üzvləri tərəfindən MSY rəisinə müvafiq tövsiyələr verilmişdir.

***Zaqatala Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerində***həyata keçirilmiş başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, MSY-nin bütün kameralarına baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıq-ları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

*Başçəkmə keçirilən zaman qış mövsümü olmasına baxmayaraq, MSY-də istilik sisteminin işləmədiyi müşahidə edilmişdir. Məsələ DİN qarşısında qaldırılmaqla təmin edilmişdir.*

Yekunda MSY-nin rəhbərliyinə rəftar məsələləri və saxlanma şəraitinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Balakən Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinə*** əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən MSY-də saxlanılan şəxslər fərdi qaydada qəbul edilmiş, aparılan söhbət zamanı onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir.

Başçəkmənin yekununda MSY-nin rəhbərliyi ilə milli və beynəlxalq standartlar əsasında saxlanma şəraiti və rəftar məsələləri ilə bağlı müzakirələr aparılmış, İQAK tövsiyələri, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarına uyğun tövsiyələr verilmişdir.

***Qəbələ Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerində***əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmiş başçəkmələrdə məqsəd saxlanma şəraitinin və rəftarın araşdırılması, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa və Müvəqqəti saxlama yerlərinin Daxili İntizam Qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MSY-də saxlanılan şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada dinlənilmiş, müraciətləri qəbul edilmiş və cavablandırılmış, onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi

məsləhətlər verilmişdir. Bunlarla yanaşı, həmin şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə onlara qarşı rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, MSY-nin kameralarına baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair MPQ üzvləri tərəfindən MSY rəisinə tövsiyələr verilmişdir.

*

Qeyd olunmalıdır ki, MPQ tərəfindən həyata keçirilmiş başçəkmələrin nəticələri, görülmüş işlər və aşkar edilmiş nöqsanlar təhlil olunmuş, təhlilin nəticələri əsas götürülərək Müvəkkil tərəfindən Daxili İşlər Nazirinə müraciət edilmişdir.

*Daxili İşlər Nazirliyinin rayon-şəhər polis idarə və şöbələrinin Müvəqqəti saxlama yerlərində saxlanma şəraitinin yaxşılaşdırılması istiqamətində işlərin davam etdirildiyi müşahidə edilmişdir. Müvəkkilin tövsiyələri nəzərə alınmaqla çoxsaylı müvəqqəti saxlama yerləri müasir standartlara uyğun yenidən qurulmuş, saxlanma şəraiti müasir tələblərə uyğun olaraq təkmilləşdirilmişdir.*

*MSY-lərdə saxlanılan şəxslərə onların qanunvericilikdə təsbit olunmuş hüquq və vəzifələri, habelə Müvəkkilin 24 saat fəaliyyət göstərən iki "qaynar xətt"i barədə məlumatlarla tanış olmaq imkanı yaradılmışdır.*

*MSY-lərdə mövcud çatışmazlıqlardan biri kimi əvvəllər məhkum olunmuş şəxslərlə məhkumluğu olmamış şəxslərin bir yerdə saxlanılmasını göstərmək olar. Bu cür hallar RPŞ-lərə həyata keçirilən başçəkmələr zamanı müşahidə edilir.*

*İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsi (CPT) personalın təliminə böyük diqqət yetirir və saxlanılan şəxslərə pis rəftara qarşı ən yaxşı zəmanətin təlim görmüş polis olduğunu qeyd edir.*

*Bu baxımdan Müvəkkil DİN orqanlarının fəaliyyətində hüquqi maarifləndirmə işinin daha da genişləndirilməsini təklif edir.*

*MSY-lərə həyata keçirilən başçəmələr zamanı saxlanılan şəxslərlə bağlı müvafiq qeydiyyatların aparılmasında da nöqsanlar qalmaqdadır.Bu isə vahid qeydiyyat sisteminin təkmilləşdirilməsi və müfəssəl aparılmasınanəzarətin gücləndirilməsini zəruri edir.*

### 2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin MPM-in yurisdiksiyasında olan 38 müəssisəsi mövcuddur. Bu müəssisələrə Həbsxana, İxtisaslaşmış Müalicə Müəssisəsi, Müalicə Müəssisəsi, Tərbiyə Müəssisəsi, istintaq

təcridxanaları, cəzaçəkmə müəssisələri və məntəqə tipli cəzaçəkmə müəssisələri daxildir.

İl ərzində Penitensiar xidmətin tabeliyində olan 15 müəssisəyə 44 başçəkmə həyata keçirilmişdir. Başçəkmələrin əksəriyyəti istintaq təcridxanalarına olmuşdur.

İstintaq hərəkətlərinin keçirildiyi, şəxslərin ətraf aləmlə təmaslarının məhdudlaşdırıldığı müəssisələrə başçəkmələr daha tez-tez keçirilməlidir. Bu müəssisələrə səfərlərin mütəmadi keçirilməsi pis rəftar hallarının qarşısının alınması və vəziyyətin yaxşılaşması baxımından səmərəlidir.

Həyata keçirilmiş başçəkmələrdə məqsəd saxlanılan şəxslərlə rəftar, onların saxlanma şəraiti, görüş, telefon danışığı, tibbi yardımın təşkili, qidalanma, geyim, havalandırma, istilik, müraciət etmək, hüquqi yardım almaq və digər hüquqlarının təmin olunma vəziyyətinin öyrənilməsi olmuşdur.

Penitensiar müəssisələrə başçəkmələr çərçivəsində 308 nəfər şəxslə konfidensial görüş keçirilmiş, onlarla rəftar məsələri, saxlanma şəraiti, hüquqlarının təmini vəziyyəti araşdırılmışdır. Saxlanılan şəxslər tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər müvafiq qurumlar qarşısında qaldırılmışdır.

İl ərzində həyata keçirlən başçəkmələrin nəticəsi olaraq Ombudsman tərəfindən Azərbaycan Respublikasının Ədliyyə nazirinə müraciətlər ünvanlanmış, müvafiq tədbirlərin görülməsi məqsədilə müvafiq təklif və tövsiyələr verilmiş, icrası nəzarətdə saxlanılmışdır.

Başçəkmələrin yekunları ilə bağlı mətbuat açıqlamaları yayılmış, Ombudsmanının rəsmi internet səhifəsində dərc edilmiş, beynəlxalq təşkilatlara bülletenlər göndərilmişdir.

Ombudsmanın İşgəncələr əleyhinə MPM fəaliyyətinə dair 2018-ci il üzrə hesabatında verilmiş tövsiyələrin icrası vəziyyəti ilə bağlı qeyd etmək lazımdır ki, Penitensiar xidmətin tabeliyindəki bəzi müəssisələrdə adekvat yaşayış şəraitinin yaradılması üçün maddi-texniki bazanın daha da yenilənməsi zərurəti aktual olaraq qalır.

Bakı şəhəri Zabrat qəsəbəsində inşa edilən məhkum qadınlar üçün cəzaçəkmə, habelə yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsinin, Umbakı qəsəbəsində inşa edilən Həbsxananın, Gəncə, Lənkaran şəhərlərində inşa edilən penitensiar komplekslərdə tikinti işlərinin sürətləndirilməsi ilə bağlı ötən illərdə verilmiş tövsiyələrə baxmayaraq, həmin müəssisələrin tikintisi hələ də yekunlaşmayıb.

Məntəqə tipli cəzaçəkmə müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı islahatlar zəifdir.

Cəzaçəkmə müəssisələrində məhkumların əməklə islah olunmaları işinə diqqətin artırılması, yeni iş yerlərinin açılması ilə bağlı tövsiyəyə uyğun

olaraq yeni istehsal sahələrinə ehtiyac qalmaqdadır. Açılan istehsalat sahələrində işlə təmin olunan məhkumların sayının artırılması belə şəxslərin daha sonra cəmiyyətə inteqrasiyası baxımından zəruridir.

***Rəftar məsələləri ilə bağlı.***Ədliyyə Nazirliyi Penitensiar xidmətinin tabeliyində olan müəssisələrdə müəssisə əməkdaşlarının məhkumlarla rəftarında müəyyən problemlər qalmaqdadır. Başçəkmələr zamanı qəbul edilmiş məhkumlar əməkdaşların yanaşmalarından, daha çox müəssisəyə daxil olan yeni məhkumlara xüsusi vasitələrin (rezin dəyənək və əl qandalı) tətbiqindən, axtarış-baxış zamanı yanaşmalardan şikayətlənmişlər.

Son illərdə xüsusi vasitələrin tətbiq halları azalmış olsa da, belə vasitələrin tətbiq ilə bağlı qeydlərin və tarixinin dəyişdirilməsi halları da müşahidə olunur.

*Ötən il xüsusi vasitənin tətbiqi ilə bağlı məlumatların vaxtında verilməməsinə görə 7 saylı cəzaçəkmə müəssisəsinin əməkdaşı Penitensiar xidmət üzrə verilmiş əmrlə intizam məsuliyyətinə cəlb olunmuşdur.*

Ümumiyyətlə, işgəncə, pis rəftar ehtimalı ilə bağlı qaldırılan iddiaların effektiv, müstəqil və qərəzsiz şəkildə araşdırılmasını təmin etmək zəruridir[16].

Son dövrlərdə istər təhlükəsizliyin təmin edilməsi məqsədilə, istərsə də daxili intizam pozuntularına görə cərimə təcridxanasına keçirilmə hallarının sayı azalmışdır. Müvafiq olaraq rejim pozuntularının sayında da azalma müşahidə edilmişdir. Lakin rejim pozuntularına görə tətbiq edilən intizam tənbehləri içərisində cərimə təcridxanasına keçirilmə üstünlük təşkil edir.

***Saxlanma şəraiti*** ilə bağlı ümumi olaraq istintaq təcridxanalarında (2 və 3 saylı istintaq təcridxanaları) və cəzaçəkmə müəssisələrinin cərimə təcridxanalarında əvvəlki illərdə olduğu kimi sıxlıq qalmaqdadır. *Kameralarda saxlanılan şəxslərin nəzərdə tutulandan artıq olması və sıxlıqla bağlı CPT də qeyd edir ki, bu hal müəssisənin daxilindəki bütün xidmətlərə və fəaliyyətlərə mənfi təsir göstərir. Üstəlik həddən artıq insanın fiziki mövcudluğu qeyri-insani və ya ləyaqəti alçaldan rəftara da şərait yarada bilər.*

Bakı İstintaq Təcridxanasının və Şəki Penitensiar Müəssisəsi istisna olmaqla əksər müəssisələrin, xüsusilə 2 və 3 saylı İstintaq təcridxanalarının, Penitensiar xidmətin Həbsxanasının, Müalicə Müəssisəsinin, 4 saylı cəzaçəkmə müəssisəsinin şəraitinin qənaətbəxş olmadığı müşahidə edilmişdir.

Başçəkmələr zamanı penitensiar müəssisələrdə verilən qida təminatının az olması, təsdiq edilmiş yemək menyusunun verilən yeməklərlə uyğun olmadığı, hər gün arpa və ya buğda yarmasından hazırlanan yeməklərə üstünlük verildiyi, bu yeməkləri isə məhkumların çoxunun geri qaytardığı,

---

[16]Belə bir tövsiyə Universal Dövri İcmal üzrə ölkəyə verilən tövsiyələr içərisində də yer almışdır (140.85-ci tövsiyə).

ağ çörəyə ehtiyacın olduğu müşahidə edilmişdir. Əksər ticarət köşklərindəki gündəlik tələbat mallarının qiymətlərininmövcud bazar qiymətləri ilə müqayisədə baha olduğu müşahidə edilmişdir.

***Tibbi xidmət.***Penitensiar xidmətin müəssisələrində tibbi xidmətin təşkili ilə bağlı bir sıra çətinliklər hələ də qalmaqdadır.

Başçəkmələr zamanı müəssisələrdə əlilliyi və psixi problemləri olan təqsirləndirilən şəxslərə və məhkumlara münasibətdə tibbi xidmətin və yanaşmaların adekvat olmadığı müşahidə olunmuşdur.

İstintaq təcridxanaları da daxil olmaqla, başçəkmə keçirilmiş müəssisələr üzrə ümumilikdə tibb işçiləri tərəfindən kamera şəraitində, cərimə təcridxanasında və ambulator qaydada qəbul olunmalı məhkumların səhhətinə gündəlik nəzarətin keçirilməsinin, habelə sanitar-epidemioloji vəziyyətə nəzarətin də formal xarakter daşıdığı müşahidə olunmuşdur.

Məhkumlar, onların ailə üzvləri və ya müdafiəçiləri Ombudsmana müraciətlərində hərtərəfli müayinə və müalicə işinin təşkil olunmasında, Müalicə Müəssisəsinə göndərilmədə çətinlik yaradıldığını bildirmişlər. Müraciətlərdə əks etdirilmiş məsələlər Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi qarşısında qaldırılmış və bu müraciətlərin böyük əksəriyyəti müsbət həll edilmişdir.

*CPT tövsiyələrində qeyd edir ki, məhkumlar (xüsusən tək saxlanılanlar) saxlama rejimindən asılı olmayaraq istənilən vaxt həkimə müraciət etmək imkanına malik olmalıdırlar. Tibbi xidmət elə təşkil edilməlidir ki, həkimlə məsləhətləşmək, konfidensial qəbul barədə xahişlər lüzumsuz yubanmalar olmadan yerinə yetirilsin*[17].

Penitensiar Xidmətin də təqdim etdiyiməlumatlara əsasən, son illərdə stasionar qeydiyyatda olan ruhi pozuntulu şəxslərin sayında artım müşahidə edilir, lakin stasionar müalicə olanların sayı ilbəil azalır. Bu nəticənin əsasən yerlərdə psixiatrik yardımın təşkilində səmərəliliyin artması və müəssisələrə dəstəkləyici müalicənin aparılması üçün preparatların ayrılması hesabına əldə olunduğu qeyd edilmişdir.

***Bakı İstintaq Təcridxanasına*** Ombudsmanın Milli Preventiv Qrupu tərəfindən il ərzində başçəkmələr həyata keçirilmişdir. Başçəkmələrdə məqsəd saxlanma şəraitinin və rəftarın, habelə daxil olmuş müraciətlərin araşdırılması, təqsirləndirilən şəxslərin hüquqlarının təmin olunması, habelə qida qəbulundan imtina etməsi ilə bağlı barəsində internet səhifələrində yayılmış, habelə Qaynar Xəttə daxil olmuş məlumatların araşdırılması olmuşdur.

Başçəkmələr zamanı saxlanılan şəxslər konfidensial dinlənilmiş, MPQ-nin üzvlərinə saxlanma şəraitindən və müəssisə əməkdaşlarının rəftarından

[17]CPT-nin 2-ci Ümumi Hesabatı, CPT/Inf(92)3

şikayət etməmişlər. Görüşülən şəxslərin əksəriyyəti barələrində aparılmış istintaqdan və məhkəmə icraatından şikayətlənmişlər. Həmin şəxslərə hüquqları izah edilmiş, Ombudsmana ünvanlanmış ərizələri qəbul olunaraq müvafiq qurumlar qarşısında qaldırılmışdır.

Bakı İstintaq Təcridxanası 2500 nəfər üçün nəzərdə tutulmuşdur. Başçəkmələr zamanı müəssisədə sıxlıqla bağlı vəziyyətin əsasən qənaətbəxş olduğu müəyyən edilmişdir.

Bakı İstintaq Təcridxanasının maddi-texniki təchizatı və saxlanma şəraiti ümumən qənaətbəxş olsa da, müəssisədə saxlanılan şəxslərlə söhbət zamanı onlar yeməyin keyfiyyətinin aşağı olmasından şikayət etmişlər.

*Məhkumlarla Minimal Davranış Qaydalarına görə, müəssisə müdiriyyəti hər bir məhbusu, onun sağlamlığını və qüvvəsini mühafizə etmək üçün kifayət qədər qidalı olan, kifayət qədər yaxşı keyfiyyətli olan, yaxşı hazırlanan və lazımi qaydada verilən qida ilə təmin etməlidir.(SMR, 20-ci qayda)*

*Z.T.-nin aclıq etməsi barədə Ombudsmanın ünvanına daxil olmuş müraciətin araşdırılması məqsədilə həmin şəxslə konfidensial görüş zamanı o, işinə obyektiv baxılmasında köməklik göstərilməsi tələbi ilə 1 günlük aclıq aksiyası keçirdiyini, lakin BİT-in rəhbərliyi tərəfindən aparılan profilaktik söhbətdən sonra aclığı dayandırdığını bildirmişdir.*

*Başçəkmə çərçivəsində qida qəbulundan imtina etməsi ilə bağlı barəsində internet səhifələrində məlumat yayılmış İkram Rəhimov da MPQ üzvləri tərəfindən qəbul edilərək müraciəti dinlənilmişdir. O, barəsində məhkəmə icraatında olan cinayət işinin baxılması ilə əlaqədar aclıq aksiyasına başladığını bildirmiş, müvafiq köməklik göstərilməsi üçün Ombudsmana ərizə ilə müraciət etmişdir. O, müəssisənin tibb sanitar hissəsinə yerləşdirilmiş, səhhəti həkim nəzarətinə götürülmüşdür. İ.Rəhimovun barəsində olan cinayət işi Bakı Apellyasiya Məhkəməsinin icraatında olduğundan ərizəsinin həmin məhkəməyə göndərilməsi təmin edilmişdir.*

*Həyata keçirilmiş başçəkmə çərçivəsində Ukrayna Respublikasından Azərbaycan Respublikasına deportasiya olunmuş Elvin İltixam oğlu İsayev də MPQ üzvləri tərəfindən konfidensial dinlənilmişdir. Elvin İsayev saxlanma şəraitindən, tibbi xidmət və saxlanıldığı müddət ərzində onunla rəftardan narazılıq etməmişdir. Həmçinin qəbul günü E.İsayevin sovqat qəbul etmək hüququ, ailə üzvləri ilə telefon danışığı hüququ təmin olunmuşdur.*

Başçəkmələrin yekununda MPQ üzvləri tərəfindən saxlanılan şəxslərin hüquqlarının effektiv təmini ilə bağlı müəssisə rəhbərliyi ilə söhbət aparılmış və müvafiq tövsiyələr verilmişdir.

***2 saylı İstintaq Təcridxanasına*** MPQüzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir. Başçəkmələrdə məqsəd saxlanma şəraitinin və rəftarın, saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr zamanı təcridxananın bütün korpuslarına və həmin korpusların gəzinti sahələrinə, telefon danışıq məntəqələrinə, sovqatların qəbulu məntəqəsinə, karantin, görüş otaqlarına, vəkil və istintaq otaqlarına, online qaydada məhkəmə proseslərinin keçirilməsi üçün xüsusi avadanlıqla təchiz edilmiş otağa, mətbəxə, ticarət köşkünə, hamama, tibbi-sanitar hissəyə, cərimə təcridxanasına baş çəkilmiş, buradakı şərait monitorinq edilmişdir.

Saxlanma şəraiti müəssisədə aşağı səviyyədədir. Bina köhnə olduğundan orada aparılan təmir işlərinin faydasının olmadığı müşahidə edilmişdir. Müəssisə rəhbərliyi ilə söhbətlər zamanı yeni qarışıq tipli cəzaçəkmə müəssisəsinin inşa edildiyi, lakin tikintinin nə zaman yekunlaşacağı ilə bağlı hər hansı məlumatın olmaması bildirilmişdir.

Başçəkmələr zamanı istər kameraların, istərsə də cərimə təcridxanalarının bəzilərində yaşayış sahəsinin normadan az olduğu müəyyən edilmişdir. İstintaq Təcridxanalarının Daxili İntizam Qaydalarının 4.1-ci bəndinə əsasən cərimə təcridxanalarında saxlanılan hər bir şəxs üçün 4 kv.m-dən az olmayan yaşayış sahəsi ilə təmin olunmalıdır.

Cərimə təcridxanalarının bəzisində ikiyaruslu yataqların olmasına baxmayaraq həmin kameraların ümumi həcminin 8 kv.m-dən aşağı olduğu müşahidə edilmişdir. Başçəkmə zamanı 1 nəfərlik kamerada iki nəfərin saxlanıldığı müəyyən edilmiş, MPQ üzvlərinin iradından sonra saxlanılan şəxslərdən birinin yeri dəyişdirilmişdir.

8 çarpayılıq digər bir kamerada 9 nəfərin saxlanıldığı, saxlanılanlardan ikisinin yetkinlik yaşına çatmayan şəxs olduğu müəyyən edilmişdir. Həmin kamerada istilik üçün şərait yaradılmadığı, yetkinlik yaşına çatmamış şəxslər üçün qalın adyal verilməməsi müəyyən edilmişdir. MPQ üzvlərinin iradından sonra yetkinlik yaşına çatmayan şəxslər daha şəraitli, elektrik qızdırıcısı olan kameraya keçirilmişdir.

İstintaq təcridxanalarının Daxili İntizam Qaydalarının 5.11.3-cü bəndinə əsasən ilk dəfə cinayət törətmiş şəxslər əvvəllər azadlıqdan məhrumetmə yerlərində cəza çəkmiş şəxslərdən ayrı saxlanılmalı olsa da, təcridxananın əksər kameralarında qeyd edilən qaydaya riayət edilmədiyi müəyyən edilmişdir.

2 saylı İstintaq Təcridxanasında xüsusi vasitələrin tətbiqi ilə bağlı qərarın və aktların Daxili intizam qaydalarına müvafiq şəkildə olmadığı müəyyən edilmişdir. Cərimə təcridxanasına keçirilən, xüsusi vasitə tətbiq

edilən şəxslərin şəxsi işi öyrənilərkən bu şəxslərlə üvnanlanan islah tədbirlərinin aşağı səviyyədə olduğu müəyyən edilmişdir.

Müəssisədəki cərimə təcridxanasında şəxslərlə keçirilən söhbət zamanı ciddi rejim pozuntularına yol vermədikləri hallarda belə ağır tənbeh tədbirinin tətbiq edildiyi müşahidə edilmişdir. Bu şəxslər ucadan danışmaları, bəziləri üzərində telefon tutulması və ya pəncərəyə çıxıb danışması səbəbindən cərimə təcridxanasına salındıqlarını bildirmişlər.

Tibbi-sanitar hissə ilə tanışlıq zamanı yeni stomatoloji və süni nəfəs aparatı ilə, həmçinin laboratoriya kabineti ilə, əlilliyi olan şəxslər üçün xüsusi oturacaqlarla təchiz edildiyi müşahidə edilmişdir.

İstintaq Təcridxanalarının Daxili intizam qaydalarının 2.3-cü bəndinin tələbinə baxmayaraq təcridxanada psixoloji yardım kabinetinin olmadığı müəyyən edilmişdir. Bu da özlüyündə müəssisədə psixoloji xidmətlərin effektiv təşkilinə maneçilik törədir.

Görüş otaqlarının İstintaq Təcridxanalarının Daxili intizam qaydalarına (19.13-cü bənd) uyğun olaraq zəruri inventarla (su qrafini, stəkan, divar saatı, paltarasan) təchiz olunmadığı müəyyən edilmişdir.

Online qaydada məhkəmə proseslərinin keçirilməsi üçün xüsusi avadanlıqla təchiz edilmiş otaqla tanışlıq zamanı ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatlarının müsbət təzahürü kimi uzaq məsafələrdə yerləşən məhkəmələrin icraatında olan işlərə baxılarkən təcridxanada saxlanılan şəxslərin həmin məhkəmələrə aparılmadan təcridxanadakı otaqda təchiz edilmiş canlı ünsiyyət vasitələri ilə proseslərin keçirilməsinin mümkün olması müşahidə edilmişdir.

Həyata keçirilən başçəkmələrdə qəbul edilmiş hər bir şəxslə konfidensial qaydada görüşülmüşdür. Görüşülən şəxslərin əksəriyyəti təcridxana əməkdaşlarının onlarla rəftarından, verilən qidalardan şikayət etməmişlər. Bu şəxslərin əksəriyyəti istintaqdan narazılığını bildirmiş, işlərinin effektiv araşdırılmasına köməklik göstərilməsini xahiş etmişdir. Bu şəxslərə hüquqları, Ombudsmanın səlahiyyətləri izah edilmiş, qaldırdıqları məsələlər araşdırılmış və zəruri addımlar atılmışdır.

Saxlanılan şəxs S.T. qardaşı K.T. ilə təcridxananın əməliyyat işləri üzrə rəis müavini İsmayıl Əliyevin xidməti otağında pis rəftara məruz qaldıqlarını bildirmişdir. Şəxsin tibbi kitabçasına baxış zamanı, xəsarətlər barədə heç bir qeydin olmaması müəyyən edilmişdir. Saxlanılan şəxsin Müvəkkilə ünvanlanmış müraciəti qəbul edilməklə Ədliyyə Nazirliyi qarşısında qaldırılmışdır.

***Şəki Penitensiar Müəssisəsinə*** MPQ üzvləri tərəfindən il ərzində 3 dəfə başçəkmə həyata keçirilmişdir. Başçəkmələrdə məqsəd daxil olmuş müraciələrin, saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, məhkumların və təqsirləndirilən şəxslərin daxili intizam qaydalarına və

beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr çərçivəsində müəssisənin yataqxana korpuslarına, cərimə təcridxanasına və digər obyektlərə baxışlar keçirilmiş, tibbi yardımın təşkili, yemək, qidalanma, gəzinti ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Müraciətlərin, saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması ilə bağlı həmin müəssisədə məhkumlar və təqsirləndirilən şəxslər fərdi qəbul olunmuş, hüquqlarının təmin olunması vəziyyəti, müraciətləri və qaldırdıqları məsələlər yerində araşdırılmışdır.

Qəbul olunanlardan bəziləri saxlanma şəraitindən və barələrində aparılan istintaqdan narazılıqlarını bildirmişlər. Onların qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmişdir.

Başçəkmə zamanı müəssisədə mövsümə uyğun üst geyimlərinin və yataq dəstlərinin çatışmazlığı, mövcud olanların isə yararsız olması müşahidə edilmişdir.

Müəssisədə "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"na müvafiq şəkildə xüsusi vasitələrin tətbiqi ilə bağlı qərarın və aktların olmadığı müəyyən edilmişdir.

Qeyd olunanlarla yanaşı müəssisədə məhkumlarla tərbiyə işinin gücləndirilməsinə, xidmət əməkdaşlarının rəftar və ünsiyyət məsələləri sahəsində peşə bacarıqlarının artırılmasına ehtiyac olduğu müəyyən edilmişdir.

Məhkumun təhlükəsiz yerə keçirilməsi ilə bağlı qərarların cəzaların icrası qanunvericiliyinə uyğun tərtib olunmadığı, hətta müəssisədə 10 ay müddətinə barəsində təhlükəsiz yerə keçirilməsi ilə bağlı qərar qəbul edilmiş məhkum olduğu müəyyən edilmişdir.

***Penitensiar Xidmətin Həbsxanasına*** Ombudsmanın Milli Prevetiv Qrupunun üzvləri tərəfindən həyata keçirilən başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftarın, habelə daxil olmuş müraciətlərin araşdırılması, məhkumların hüquqlarının təmin olunması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin araşdırılması olmuşdur.

Başçəkmə çərçivəsində müəssisənin məhkumların saxlandığı rejim korpuslarına, cərimə təcridxanasına, tibbi-sanitar hissəsinə və digər obyektlərə baxışlar keçirilmiş, saxlanma şəraiti, habelə tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, sovqat, gəzinti, gəzinti və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Həbsxananın bəzi rejim korpuslarında şəraitin təkmilləşdirilməsinə ehtiyacın olduğu, müəssisədə dərman ehtiyatının az olması, USM aparatının isə işləmədiyi müşahidə edilmişdir.

Başçəkmə zamanı rəftar məsələlərinin araşdırılması ilə bağlı həmin müəssisədə təsadüfi seçim əsasında məhkumlar təkbətək qəbul edilmiş, saxlanma şəraiti, görüş, telefon danışığı, tibbi yardımla bağlı məsələlər araşdırılmış, habelə bir sıra müraciətlər yerində təmin olunmuşdur. Qəbul edilmiş şəxslərə Ombudsmanın səlahiyyətləri izah edilmiş, hüquqi məsləhət verilmişdir.

Nevropatoloq həkimin olmaması, dərman çatışmazlığı, şəxsi vəsaitləri hesabına müalicə olunmaları rejim korpuslarında məhkumlar tərəfindən əsas problem kimi qaldırılan məsələlərdən olmuşdur.

Müəssisədə davranışları adekvat olmayan məhkumlarla işin, ümumilikdə tərbiyə işinin və psixoloji dəstəyin gücləndirilməsinə, xidmət əməkdaşlarının peşə bacarıqlarının artırılmasına ehtiyac vardır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən cəzaçəkmə müəssisələrinin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupu tərəfindən***2 saylı cəzaçəkmə müəssisəsinə*** həyata keçirilən başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin cərimə təcridxanasına, tibbi-sanitar hissəyə, yataqxana korpuslarına və digər obyektlərə baxışlar keçirilmişdir.

Müəssisədə tibbi yardımın təşkili, qidalanma, sovqat qəbulu, görüş və telefon danışığı ilə bağlı vəziyyət araşdırılmış, saxlanma şəraiti ilə bağlı bəzi çatışmazlıqlar müəyyən edilmişdir. Belə ki, mövsümə uyğun üst geyimlərinin və yataq dəstlərinin çatışmazlığı müşahidə edilmiş, cərimə təcridxanalarına keçirilmiş şəxslər üst geyimlərinin yararsız halda olmasından və yuyulmamasından şikayət etmişlər.

Müəssisədə psixoloji xidmətlərin təşkilinə, məhkumların ictimai faydalı əməyə cəlb edilməklə islah olunması işinin genişləndirilməsinə və təşviqinə ehtiyac olduğu müəyyən edilmişdir.

***4 saylı cəzaçəkmə müəssisəsinə***Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Ombudsman və onun MPQ üzvləri tərəfindən başçəkmələr keçirilmişdir.

Başçəkmə çərçivəsində İnsan Hüquqları üzrə Müvəkkil tərəfindən müəssisə rəhbərliyinin və məhkumların geniş tərkibdə iştirakı ilə hüquqi maarifləndirici görüş keçirilmiş, ölkədə həyata keçirilən hüquqi islahatlar barədə ətraflı məlumat verilmiş, məhkumlara ünvanlanan geniş izahat və hüquqi maarifləndirmə işi aparılmışdır.

Ombudsman tərəfindən həmin müəssisədə məhkum qadınlar fərdi qaydada dinlənilmiş, ərizə və müraciətləri araşdırılmış,tibbi göndəriş, görüş və digər müraciətlər isə yerində təmin olunmuşdur.

Bunlarla yanaşı məhkumların müraciətlərində yer almış istintaq, cinayətlərin dekriminallaşdırılması, digər cinayət və mülki hüquq münasibətləri üzə məsələlər qanunvericiliyə uyğun şəkildə cavablandırılmış, onlara hüquqları, əfvlə bağlı müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmişdir.

Başçəkmə çərçivəsində qəbul olunmuş ərizə və müraciətlər baxılması üçün müvafiq qurumlarqarşısında qaldırılmış və təmin edilmişdir.

Başçəkmələr çərçivəsində Müvəkkil müəssisənin bir sıra obyektlərinə, o cümlədən istehsal sahələrinə, gəzinti yerlərinə, kitabxanaya, kluba və digər yerlərə baxış keçirib, bəzi məhkumların müraciətlərini dinləyib, saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələrini vermişdir. Eyni zamanda, körpəsi olan məhkumlar üçün nəzərdə tutulmuş korpusa da baxış keçirilmiş, onların vəziyyəti diqqətdəsaxlanılmışdır.

***5 saylı cəzaçəkmə müəssisəsinə*** planlı başçəkmə həyata keçirilmişdir. MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftarın, habelə daxil olmuş müraciətlərin araşdırılması, saxlanılan şəxslərinin hüquqlarının təminatı vəziyyətinin araşdırılması olmuşdur.

Başçəkmə çərçivəsində saxlanma şəraiti, qidalanma, su təminatı, sovqat, gəzinti, görüş, telefon danışıqları, habelə tibbi yardımın təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Müəssisəyə edilən sonuncu başçəkmədən sonra tibb-sanitar hissənin tikilib istifadəyə verildiyi, yeməkxanada təmir işlərinin getdiyi də müşahidə edilmişdir.

Cərimə təcridxanasının kameralarının təmirinə ehtiyac olduğu, burada saxlanılan şəxslərə gigiyenik vasitələrin verilmədiyi, oturacaqların sayının saxlanılan şəxslərin sayına uyğun olmadığı, gəzintinin lazımi qaydada təşkil edilmədiyi aşkar olunmuşdur. Cərimə təcridxanasına salınma ilə bağlı qərarların şəxslərə elan edilmədiyi, ümumiyyətlə, belə qərarlarının sayının və müddətinin çox olduğu müşahidə edilmişdir.

Başçəkmə zamanı rəftar məsələlərinin araşdırılması ilə bağlı həmin müəssisədə təqribi seçim əsasında məhkumlar təkbətək qəbul edilmiş, saxlanılma şəraiti, görüş, telefon danışığı, tibbi yardımla bağlıməsələlər araşdırılmışdır, məhkəməyə müraciət, həkim tərəfindən müayinə və s. müraciətlər yerində təmin olunmuşdur.

***6 saylı cəzaçəkmə müəssisəsinə***planlı və plandankənar olmaqla başçəkmələrkeçirilmişdir.

Başçəkmələr çərçivəsində saxlanma şəraiti, qidalanma, su təminatı, sovqat, gəzinti, görüş, telefon danışıqları, habelə tibbi yardımın təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Müəssisədə cəza çəkən məhkumların tibbi-sanitariya təminatı və sağlamlığının qorunması hüququnun reallaşdırılması ilə bağlı bəzi çatışmazlıqların qaldığı müşahidə edilmişdir. Belə ki, kamera şəraitində, cərimə təcridxanasında və ambulator qaydada qəbul olunmalı məhkumların səhhətinə gündəlik nəzarətin keçirilməsinin, habelə sanitar-epidemioloji vəziyyətə nəzarətin də formal xarakter daşıdığı, jurnallarda aparılan qeydlərdə düzəlişlər, habelə zədələrə dair qeydlərin aparılmadığı və ya müəssisənin jurnalında aparılmış müvafiq qeydlərə uyğun olmadığı məlum olmuşdur.

Başçəkmə zamanı məhkumlara xüsusi vasitələrin tətbiq edildiyi məlum olmuş, sənədlərlə tanışlıq zamanı isə il ərzində hər hansı bir qeydin olmadığı müəyyən edilmişdir.

6 saylı CÇM-in cərimə otaqlarında sıxlıq müşahidə olunmuşdur.

Başçəkmələr zamanı təqribi seçim əsasında məhkumlarla görüş keçirilmişdir. Fərdi qəbul zamanı qaldırılan məsələlərlə bağlı hər bir məhkuma onların hüquqları, Ombudsmanın səlahiyyətləri ilə bağlı hüquqi məsləhətlər verilmiş və müraciətləri qəbul olunmuşdur. Görüşülən şəxslər verilən yeməyin keyfiyyətindən və gigiyenik vasitələrin verilməməsindən şikayət etmişlər. Məhkumlardan bəziləri Müalicə Müəssisəsinə göndərilmədə, orada olanlar isə müalicə olunmalarında çətinlik yaradıldığını bildirmişlər.

*Başçəkmə çərçivəsində həmin müəssisədə cəza çəkən Babək Həsənov da qəbul edilərək konfidensial qaydada dinlənilmişdir. Görüş əsnasında B. Həsənov müəssisəyə gətirildiyi ilk gündən ailə üzvləri ilə telefon danışığına və yaxınları ilə görüşünə normal şərait yaradıldığını, habelə müəssisə əməkdaşlarının onunla rəftarına dair narazılığı olmadığını bildirmişdir.*

Başçəkmələrin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Milli Preventiv Qrupun üzvləri tərəfindən *7* ***saylı cəzaçəkmə müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin cərimə təcridxanasına, tibbi-sanitar hissəsinə, yataqxana korpuslarına və digər obyektlərə baxışlar keçirilib, habelə tibbi yardımın təşkili, qidalanma, su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılıb, saxlanma şəraiti ilə bağlı bəzi çatışmazlıqlar müəyyənləşdirilib.

Belə ki, mövsümə uyğun üst geyimləri, yataq dəstlərinin mövcudluğu ilə bağlı çatışmazlıqlar, eyni zamanda cərimə təcridxanasında saxlanma şəraiti ilə bağlı nöqsanlar qeyd edilməlidir.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı təsadüfi seçim əsasında məhkumlar konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyətiyerində araşdırılmış, qaldırdıqları məsələlər və tibbi yardımla bağlı müraciətləri yerində təmin edilmişdir.

***9 saylı cəzaçəkmə müəssisəsinə*** MPQ üzvləri tərəfindən plandankənar başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində müəssisənin cərimə təcridxanasına və digər obyektlərinə baxış keçirilib, saxlanma şəraiti, qidalanma, su təminatı, sovqat, gəzinti, görüş, telefon danışıqları, habelə tibbi yardımın təşkili ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılıb.

Müəssisədə davranışları adekvat olmayan məhkumlarla işin, ümumilikdə tərbiyə işinin və psixoloji dəstəyin gücləndirilməsinə ehtiyacın olduğu müşahidə edilmişdir.

Başçəkmə zamanı 4 nəfər məhkumla təklikdə görüşülmüş, rəftar və saxlanma şəraiti ilə bağlı söhbətlər aparılmış, hüquqlarının təmini vəziyyəti öyrənilmişdir.

***13 saylı cəzaçəkmə müəssisəsinə*** həyata keçirilən başçəkmə çərçivəsində müəssisənin bütün obyektlərinə, o cümlədən cərimə təcridxanasına, tibb-sanitar hissəsinə, karantin otağına, görüş yerlərinə, yeməkxanaya, ibadət yerlərinə baxış keçirilmiş, lazımi sənədlər və qeydiyyat kitabları öyrənilmişdir.

Xüsusi vasitələrin tətbiqi ilə bağlı müvafiq qeydiyyat jurnalı öyrənilərkən "Cəzaçəkmə Müəssisələrinin Daxili intizam qaydaları"na müvafiq şəkildə bu vasitələrin tətbiqi ilə bağlı qərarın və aktların olmadığı müşahidə edilmişdir.

Cərimə təcridxanasında sıxlığın olduğu, eyni zamanda mövsümə uyğun üst geyimlərinin və yataq dəstlərinin çatışmazlığı müşahidə edilmişdir.

Müəssisədə tərbiyə işinin gücləndirilməsinə və xidmət əməkdaşlarının ünsiyyət məsələləri ilə bağlı peşə bacarıqlarının artırılmasına ehtiyac olduğu müəyyən edilmişdir.

***17 saylı cəzaçəkmə müəssisəsinə*** təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, habelə daxil olmuş müraciətlərin araşdırılması, məhkumların hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində yataqxana korpuslarına, cərimə təcridxanasına, tibb-sanitar hissəsinə, yeməkxanaya, görüş yerlərinə və digər obyektlərə baxışlar keçirilmiş, saxlanma şəraiti, tibbi xidmətin təşkili və s. araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı müəssisədə cəza çəkən 13 nəfər məhkumla konfidensial söhbət aparılmış, müraciətləri dinlənilmişdir. Bəzi məhkumların müraciətləri yerində təmin edilmişdir. Məhkumlar barələrində aparılmış istintaq və məhkəmə icraatından şikayətlənmiş, qaldırdıqları məsələlərlə bağlı hər birinə hüquqi məsləhətlər verilmişdir.

***Penitensiar xidmətin Müalicə Müəssisəsinə*** plandankənar başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində müəssisənin müalicə korpuslarına və şöbələrinə, palatalara, görüş yerlərinə baxış keçirilmiş, saxlanma şəraiti, tibbi yardımın təşkili, qidalanma ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Müəssisənin yaşayış korpuslarının köhnə olduğu, saxlanma şəraiti ilə bağlı çətinliklərin yarandığı müşahidə edilmişdir.

Başçəkmə zamanı rəftar məsələlərinin araşdırılması ilə bağlı həmin müəssisədə saxlanılan və müalicə olunan 3 nəfər şəxs, o cümlədən mətbuatda[18] barəsində məlumatlar yayılmış Əbülfəz Bünyatov konfidensial qaydada qəbul edilmiş, saxlanma şəraiti, tibbi yardım, görüş, telefon danışığı və digər məsələlər araşdırılıb, bəzi müraciətlər yerində təmin olunmuşdur. Şəxslərin qaldırdıqları məsələlərlə bağlı onların hər birinə Ombudsmanın səlahiyyətləri, hüquqları ilə bağlı hüquqi məsləhətlər verilmişdir. Görüşülən bəzi şəxslər müalicə olunmalarında çətinlik yaradıldığını bildirmişlər.

***10 saylı məntəqə tipli cəzaçəkmə müəssisəsinə*** plandankənar başçəkmə həyata keçirilmişdir.

Goranboy rayonunun ərazisində yerləşən və ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər üçün nəzərdə tutulmuş müəssisənin saxlama limiti 150 nəfərlikdir. Başçəkmə zamanı 354 nəfər cəzaçəkən şəxsin qeydiyyatda olduğu, bunlardan 2 nəfərin qadın, 26 nəfərin isə əlilliyi olan şəxs olduğu müəyyən edilmişdir. Müəssisədə cəza çəkən şəxslərin işlə təmin edilməsi üçün hazırda Gədəbəy rayonunda penitensiar xidmətin icarəyə götürdüyü torpaq sahəsində təsərrüfat və heyvandarlıqla məşğul olduqları bildirilmişdir.

Qeydiyyat jurnalları ilə tanışlıq zamanı il ərzində 5 nəfərin cərimə təcridxanasına salındığı müəyyən edilmişdir.

Baxış zamanı müəssisədə istilik sistemi olsa da, təbii qazın olmaması səbəbindən inzibati binanın elektrik qızdırıcıları, yataqxananın dizel qızdırıcıları vasitəsilə isidildiyi müşahidə edilmişdir. Bundan başqa Daxili intizam qaydalarının tələblərinə baxmayaraq müəssisədə ticarət köşkünün, telefon danışığı üçün kabinənin və tibbi-sanitar hissənin olmadığı aşkar olunmuşdur.

Başçəkmənin yekununda MPQ üzvləri tərəfindən saxlanma şəraitinin və qeydiyyatların təkmilləşdirilməsi üçün müəssisə rəhbərliyinə zəruri

[18]https://www.turan.az/ext/news/2019/6/free/Social/az/81523.htm

tövsiyələr verilmiş, müəssisə əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işi aparılmışdır.

### 2.2.3. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri

***DTX-nin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasına*** MPQ-nin üzvləritərəfindən başçəkmələr həyata keçirilmişdir.

Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması, müəssisədə saxlanılan şəxslərlə rəftar, qidalanma, sənədləşmənin aparılması, tibbi xidmətin əlçatanlığı və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması araşdırılmışdır.

Saxlanma şəraiti, qidalanma, ərzaq təminatı araşdırılmış, bu məqsədlə həmin müəssisənin kameralarına, mətbəx və ərzaq anbarına baxış keçirilmiş, habelə tibbi yardım, gəzinti, telefon danışığı, hüquqi yardım və digər hüquqların təminatı vəziyyəti yoxlanılmışdır.

*İnternet səhifələrində qida qəbulundan imtina etməsi ilə bağlı barəsində məlumat yayılan Polad Aslanov da fərdi qaydada qəbul edilmişdir*[19]*. Görüş zamanı o, qida qəbul etdiyini bildirmişdir*[20].

Baxış keçirilmiş kameralarda saxlanılan şəxslərlə təkbətək qaydada görüşlər keçirilmiş, müraciətləri dinlənilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, Ombudsmanın səlahiyyətləri və qanunvericiliyin tələbləri izah olunmuşdur. Qəbul edilmiş şəxslər Müvəqqəti saxlama yeri və istintaq təcridxanasının əməkdaşlarının onlarla rəftarından və müəssisədə saxlanma şəraitindən şikayət etməmiş, keyfiyyətli qida, gəzinti və tibbi xidmətdən razılıqlarını bildirmişlər.

Həyata keçirilmiş başçəkmələrin yekununda müəssisə rəhbərliyi ilə milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı müzakirələr aparılmış və müvafiq tövsiyələr verilmişdir.[21]

---

[19]https://www.amerikaninsesi.org/a/v%C9%99kil-polad-aslanov-acl%C4%B1q-edir-/5118202.html

[20]https://www.azadliq.org/a/polad-aslanov/30209972.html

[21]https://ona.az/az/sosial/dtx-nin-muveqqeti-saxlama-yeri-ve-istintaq-tecridxanasina-bascekme-heyata-kecirilib-5417

### 2.2.4. Dövlət Miqrasiya Xidmətinin müəssisələri

Dövlət Miqrasiya Xidmətinin müəssisələrinə başçəkmələr həyata keçirilmişdir.

***Bakı Şəhəri Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Ombudsman haqqında Konstitusiya Qanunu əsasında təşkil edilmiş başçəkmədə məqsəddaxil olmuşmüraciətlərin, saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, məcburi və könüllü qaydada saxlanılan şəxslərin daxili intizam Qaydalarına və beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Mərkəzə qəbul və təhvil verilmə, tibbi müayinədən keçirilmə, habelə xidmət əməkdaşlarının miqrasiya qanunvericiliyinə uyğun olaraq məcburi və könüllü saxlanılan şəxslərlə rəftar məsələləri araşdırılmış, bu məqsədlə müəssisə daxilində könüllü saxlanılan şəxslər fərdi qaydada dinlənilmiş və qaldırdıqları məsələlər üzrə müraciətləri qəbul olunmuşdur.

*Eyni zamanda Ombudsmanın Qaynar Xəttinə daxil olmuş müraciət əsasında orada saxlanılan İran İslam Respublikasının vətəndaşları M.A. və onun övladı M.R.-nin müəssisəyə yerləşdirilməsinin əsasları araşdırılmışdır. Həmin şəxslər fərdi şəkildə qəbul olunmuş, müraciətləri dinlənilmiş, hüquqi məsləhətlər verilmişdir.*

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, SPT və CPT standartlarına müvafiq şəkildə saxlanma şəraiti, tibbi xidmət və sənədləşmə və telefon danışıqları ilə bağlı çatışmazlıqların aradan qaldırılması üzrə müvafiq tövsiyələr verilmişdir.

*Başçəkmənin nəticələri ilə əlaqədar DMX-yə müraciət olunmuşdur.*

***Yevlax Rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinə*** MPQ-nin üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmə zamanı Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinin inzibati binasına, iki mərtəbədən ibarət olan könüllü saxlanılanların müvəqqəti saxlanılma binasına, məcburi saxlanılanlar üçün binaya, camaşırxana və hamama, mətbəxə, ərzaq anbarına, görüş otağına və digər xidməti otaqlara, idman meydançasına baxış keçirilmişdir.

Müəssisənin inzibati binası, nəzarət buraxılış məntəqəsindən, xidməti otaqlardan, müşavirə otağından, istirahət otağından, əməkdaşlar üçün yeməkxanadan və sanitar qovşaqdan ibarətdir. Məcburi və ya könüllü saxlanılan miqrantların müayinəsi üçün şəxsi axtarış otağı, şəxsi axtarış

otağı, tibb otağına da baxış keçirilmiş, buradakı şəraitin normal olduğu müəyyən edilmişdir.

*Müəssisənin görüş otağı ilə tanışlıq zamanı həmin otağın Qanunsuz miqrantların saxlanılma mərkəzlərinin daxili intizam Qaydalarının 14.28-ci bəndinin tələbinə baxmayaraq lazımi avadanlıqlarla təchiz olunmadığı, həmin otaqda ərizə və şikayətlər üçün qutunun, otağın görünən yerlərində sovqatların qəbulu, sovqatların təqdimetmə qaydaları, Mərkəzdə saxlanılan əcnəbilərə verilməsi və ya ötürülməsi, sovqatlarda gətirilməsi, bağlama və banderollarda göndərilməsi qadağan olunmuş əşyaların siyahısı barədə məlumat, habelə bu siyahıda göstərilən əşyaların yoxlamadan gizlətməklə və ya hər hansı digər üsulla verilməsi (göndərilməsi və ya ötürülməsi) ilə bağlı məsuliyyəti müəyyən edən normativ hüquqi aktların mətni, habelə həmin otaqların iş rejimi və müraciət edən şəxslərin qəbul günləri barədə məlumat lövhələrinin mövcud olmadığı müşahidə edilmişdir.*

Daha sonra xidmətin könüllü saxlanılma binasına baxış keçirilmişdir. 2 mərtəbədən ibarət olan binanın birinci mərtəbəsində ümumilikdə 8 otaq 6 nəfərlik, 1 otaq 2 nəfərlik, 6 otaq 1 nəfərlik olmaqla 15 saxlanılma otağından, sinif otağı və kiçik yaşlı uşaqlar üçün əyləncə otağından, ibadət otağından, sanitar qovşaq və hamamdan ibarət olması, xidmətin ikinci mərtəbəsində isə 9 otaq 6nəfərlik, 8 otaq 1 nəfərlik olmaqla 17 saxlanılma otağından, mərkəzinin növbətçisinin xidməti və istirahət otaqlarından, sinif otağından və sanitar qovşaqdan ibarət olması, hər iki mərtəbədə yerləşən saxlanılma otaqlarının bütün zəruri inventarlarla-uşaq çarpayıları ilə, stol və stullarla, dolablar və paltar dolabları ilə təmin edilməsi müəyyən edilmişdir.

Milli Preventiv Qrupunüzvləri tərəfindən Qanunsuz Miqrantların Saxlanılma Mərkəzində məcburi saxlanılanlar üçün binaya baxış keçirilmiş, kameraların birnəfərlik olması, kameraların sahəsinin 4kv olması, hər kameranın 1çarpayı ilə təchiz edilməsi, kameralarda sanitar qovşağın təmiz, səliqəli olması, işıqlanma, ventilyasiya və istilik sistemlərinin yüksək səviyyədə qurulması, binada 1otağın psixioloji gərgin olan şəxslərin saxlanılması üçün divarlarının və döşəmənin rezin örtüklə təchiz edildiyi müəyyən edilmişdir. *Bununla yanaşı məcburi yerləşdirilən əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin saxlanılması üçün nəzərədə tutulmuş otaqların pəncərələrinin dəmir barmaqlıqlarla əhatə olunmadığı müşahidə edilmişdir ki, bu da təhlükəsiz saxlanılma üçün gələcəkdə problemlərə yol aça bilər.*

Başçəkmə zamanı Xidmətin qeydiyyat jurnallarına baxış keçirilmiş, müvafiq qeydlərin aparıldığı müşahidə edilmişdir.

*Bununla yanaşı Yevlax rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzində yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 87.1.20-ci maddəsi ilə*

*nəzərdə tutulmuş telefon əlaqəsindən istifadə etmək hüquqlarının həyata keçirilməsi üçün müvafiq telefon danışığı məntəqəsinin olmaması müşahidə edilmişdir.* Mərkəz əməkdaşları telefon danışığına ehtiyac yarandığı təqdirdə mərkəzə yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin nəzarət altında şəxsi mobil telefonlarından, şəxsi mobil telefon olmadıqda isə mərkəz əməkdaşlarının şəxsi mobil telefonlarından istifadə etdiklərini bildirmişlər. Müəssisədəki Telefonla danışıqların qeydiyyatı jurnalında 2019-cu il ərzində heç bir saxlanılan miqrant olmadığından qeyd aparılmadığı müşahidə edilmişdir.

*Həmçinin Qanunsuz miqrantların saxlanılma mərkəzlərinin daxili intizam Qaydalarının2.1-ci bəndində mərkəzin quruluşuna dair ümumi tələblərdə qeyd olunmuş obyektlərdən kitabxana, bərbərxananın mövcud olmaması müşahidə edilmiş, həmin qaydaların 19.30-cu bəndinin tələblərinə baxmayaraq müəssisədə əcnəbilərlə psixoloji iş aparılması üçün psixoloq ştatında beynəlxalq hüquq ixtisası üzrə təhsil almış əməkdaşın çalışması və şəxslərə göstərilmiş psixoloji yardım işi, tətbiq edilmiş metodlar və nəticələri, şəxslərin psixoloji xarakteristikası barədə qeydiyyat aparılması üçün psixoloji yardım dəftərinin mövcud olmaması, həmçinin qaydaların 19.2-ci bəndinin tələbinə baxmayaraq mərkəzdə ixtisasca həkim olan tibb işçisinin olmadığı müəyyən edilmişdir.*

*Müəssisədə miqrasiya xidmətinin cəmi bir nəfər ixtisasca feldşer qadın əməkdaşının olması, həmin əməkdaşın həm tibbi müayinələrə, həm də qadın miqrantaların şəxsi axtarış tədbirlərinə cəlb edilməsi müəyyən edilmişdir ki, bu da saxlanılma mərkəzinin qadın miqrantlarla bağlı işinin təşkilində müəyyən çətinlikləri yaranmasına səbəb olur.*

### 2.2.5. Müdafiə Nazirliyinin müəssisələri

***Bakı Hərbi Qarnizonu üzrə Hərbi Polisinin Hauptvaxtına*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd cəbhənin Füzuli rayonu istiqamətində fərarilik etmiş erməni hərbi qulluqçusu A.Kazaryanın[22] saxlanma şəraitinin və ona qarşı rəftarın araşdırılması, hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

A.Kazaryanla tərcüməçinin iştirakı ilə söhbət zamanı o, həkim müayinəsindən keçdiyini, səhhətinin normal olduğunu, saxlanma şəraitindən, onunla rəftardan və qida təminatından razı qaldığını, ona

[22]https://az.sputniknews.ru/incidents/20190812/421450640/Armyanskiy-voennosluzhaschiy-sdalsya-azerbaydzhanskoy-armii.html

münasibətdə insan hüquqlarının pozulmasına yol verilmədiyini və hər hansı bir şikayətinin olmadığını bildirmişdir[23].

### 2.2.6. Səhiyyə Nazirliyinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən başçəkmələr həyata keçirilmişdir.

Milli qanunvericilik, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu, BMT və Avropa Şurası çərçivəsində qəbul edilmiş beynəlxalq standartlar və CPT-nin ümumi məruzələrində yer almış tövsiyələrə əsaslanmaqlakeçirilimişbaşçəkmələrdə məqsəd saxlanılan şəxslərlə rəftar, saxlanma şəraiti, tibbi yardımın vəziyyəti, saxlanmanın qanuniliyini təsdiq edən sənədlərin və əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyətinin araşdırılması olmuşdur.

***Gəncə şəhər Səhiyyə İdarəsinin Gəncə Körpələr Evinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı müəssisədə iki qrup olmaqla (südəmər və 3 yaşadək olan qruplar) 21 uşağın (10 oğlan, 11 qız) olduğu, müəssisəyə uşaqların yerli icra hakimiyyətlərinin müvafiq sərəncamı əsasında yerləşdirildiyi məlum olub. Müəssisədə 2 həkim (pediatr və terapevt), 6 tibb bacısı, 9 kiçik tibb işçisi, 13 tərbiyəçi, 2 aşbaz, 1 bağban və digər texniki işçilər olmaqla 37 nəfər əməkdaşın çalışdığı, müəssisəyə körpələrin verilmə səbəbinin əsasən valideyinlərin xəstəliyi, ölümü, cəzaçəkmə müəssisəsində olması və qeyri-rəsmi nikahdanolduğu müəyyən edilib. Müəssisədə 3 yaşı tamam olmuş uşaqların Gəncə Uşaq evinə, xəstəlikdən əziyyət çəkən uşaqların isə Bakı Psixonevroloji Körpələr Evinəgöndərildiyi, mütəmadi olaraq Gəncə ŞİH-nin nümayəndələri, Səhiyyə İdarəsinin əməkdaşları və xeyriyyəçi insanlar tərəfindən müəssisəyəbaş çəkildiyi müəyyən edilmişdir.

Başçəkmə zamanı Körpələr Evinin ərazisinə, 3 korpusdan ibarət inzibati bina və yataqxanalar yerləşən binalarına, tibb otağına, camaşırxanaya (hazırda müəssisəyə avtomat paltaryuyan maşınlar verildiyindən camaşırxana fəaliyyətini dayandırıb), müxtəlif ləvazimatlar saxlanılan köhnə tikiliyə, mətbəxə, yeməkxanaya baxış keçirilmişdir.

Müəssisənin iki mərtəbədən ibarət olan yataqxanasının birinci mərtəbəsinin istifadəyə yararsız olması, ikinci mərtəbəsində isə südəmər yaş qrupuna və 3 yaşa qədər olan qrupa daxil olan körpələrin yerləşdirilməsi müşahidə edilmişdir.

---

[23]https://www.amerikaninsesi.org/a/ombudsman%C4%B1n-n%C3%BCmay%C9%99nd%C9%99l%C9%99ri-erm%C9%99ni-h%C9%99rb%C3%A7isin%C9%99-ba%C5%9F-%C3%A7%C9%99kib-/5044642.html

3 yaşadək və südəmər qrupa aid körpələrin saxlandığı hissənin oyun zalından (ümumi zal), yataq otağından, yeməkxanadan, hamam-tualetdən, görüş otağından, əşyaların saxlanılma otağından ibarət olması, binanın istilik sistemi və kondisionerlə təchiz edilməsi, yataq otağının beşik və uşaq çarpayıları ilə təmin edilməsi müəyyən edilmişdir. Baxış zamanı yataq dəstlərinin təmiz olduğu müşahidə edilmişdir.

Körpələrin qida rasionu ilə tanışlıq zamanı, südəmər qrupa “humanna” süd verilməsi, digər qrupa isə gündə 3 dəfə müxtəlif qidaların (südlü mannı sıyığı, şirin çay, ətli düyü şorbası, süd hörrəsi) verilməsi müəyyən edilmişdir.

*Müəssisənin əsaslı təmirə ehtiyacı vardır.*

***Quba Rayonlararası Psixonevroloji Mərkəzinə*** başçəkmə həyata keçirilmişdir.

BMT-nin “İşgəncə və digər qəddar, qeyri–insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, habelə saxlanılan şəxslərin hüquqularının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin, yataqxanalarına, mətbəxə və digər inzibati otaqlara baxışlar keçirilmiş, habelə asudə vaxtın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan şəxslər konfidensial qaydada dinlənilmiş, hüquqularının təmin olunma vəziyyəti, sənədləşmə yerində araşdırılmışdır.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyin tələbləri diqqətə çatdırılmış, müvafiq tövsiyələr verilmişdir.

***Qazax Rayonlararası Psixiatriya Xəstəxanasına*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı ilk öncə xəstəxananın baş həkimi ilə söhbət aparılmışdır.

Baş həkim tərəfindən məlumat verilərək, xəstəxananın Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Samux, Göygöl, Daşkəsən, Gəncə, Goranboy, Yevlax və s. rayonlara xidmət etməklə 100 nəfər saxlama limitinə malik olduğu, birinci mərtəbədə qadınlar, ikinci mərtəbədə isə kişi xəstələrin saxlanıldığı, hazırda saxlanılan xəstələrin sayının 96 olduğu (47 kişi, 49 qadın), cari ildə ölüm və yoluxucu xəstəlik halının qeydə alınmadığı bildirilmişdir.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən müəssisəyə - xəstəxananın inzibati binasına, hər iki mərtəbədə yerləşən qadın və kişilər üçün palatalara, həkim və tibb bacılarının otaqlarına, müəssisənin həyətinə, yeməkxanasına, mətbəxinə, ərzaq anbarına baxış keçirilmiş, hazırda xəstəxananın 1-ci mərtəbəsində yerləşən ümumi koridorun, palataların, yeməkxananın, mətbəxin, ərzaq anbarının təmir edilərək istifadəyə verilməsi, eyni zamanda müəssisənin həyətində abadlıq işlərinin aparılması, ayrıca həkim və mühasibatlıq otaqlarının təmir edilib istifadəyə verilməsi, xəstəxananın dam örtüyünün tamamilə dəyişdirilməsi, kişilər üçün ikinci mərtəbədə yerləşən ümumi koridorun və palataların təmir olunduğu müşahidə edilmişdir.

Dərman preparatlarının təhcizatı qismən, ərzaq təhcizatının vəziyyəti isə yaxşıdır. Xəstəxananın su ilə təminatı daimidir və su ehtiyatının toplanması üçün çəndən istifadə edilir. Xəstəxana təbii qazla təmin edilmişdir. Xəstəxana mərkəzləşdirilmiş qazanxana ilə isidilir.

Xəstəxanada gecə və gündüz iş növbətçiliyi var, təcili yardıma ehtiyac yarandıqda müəssisə daxili və müəssisədən kənar tibbi yardım göstərilir. Stomatoloji, cərrahi və digər profilli yardımlar müəssisədən kənarda həyata keçirilir. İlk dəfə yerləşdirilən xəstələr vərəm və digər yoluxucu xəstəliklərə görə yoxlanılır və əgər şübhə olarsa, müvafiq xəstəxanalara göndəriş verilir. Xəstənin evə yazılma prinsipləri səhhətinin yaxşılaşması ilə həyata keçirilir. Xəstəxanada vərəm xəstəliyindən və İİV/QİÇS xəstələyindən əziyyət çəkənlərin olmadığı bildirildi.Xəstələrin qəbulu zamanı müəssisədə laborator-instrumental müayinə növünün mövcud olmaması səbəbindən yoluxucu xəstəliklər, o cümlədən İİV/QİÇS infeksiyasının yoxlanılması,flüoqrafik müayinə məqsədilə şəxslər Qazax rayon Mərkəzi Xəstəxanasına və Poliklinikaya göndərilirlər. Yoluxucu xəstəliklər (əsasən vərəm) aşkar edildikdə həmin şəxslər Bakı şəhəri Maştağa qəsəbəsində yerləşən 1 saylı Psixatriya Xəstəxanasının İnfeksiya şöbəsinə göndərilirlər.

Xəstəxanada xəstələr şəxsi gigiyenik vasitələrlə - diş fırçası, pastası, sabun, gigiyenik paketlər, üz qırxmaq üçün istifadə edilən birdəfəlik vasitələr və s. ilə təmin edilir. Xəstələrin geyimi təmiz və iqlimə uyğundur.

*Xəstəxana rəhbərliyinə xəstəxananın əsaslı təmirindən sonra divarlarda xəstələrin müalicəsinə, reabilitasiyasına müsbət təsir göstərən şəkillərin, xəstələrin hüquq və vəzifələri ilə bağlı məlumat lövhələrinin quraşdırılması tövsiyə edilmişdir.*

***Salyan Rayonlararası Psixatriya Xəstəxanasına*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd müəssisədə saxlanma şəraiti və rəftarın qiymətləndirilməsi, qidalanma və dərman təchizatı, tibbi xidmət, istilik təchizatı və diqqət yetirilməli olan digər məsələlərin dairəsinin müəyyənləşdirilməsindən ibarət olmuşdur.

Başçəkmə keçirdiyimiz zaman müəssisədə 105 nəfər saxlanılan şəxs var idi. Onlardan 57 nəfəri kişi, 48 nəfəri isə qadınlar olmuşdur.

Müəssisəyə baxış keçirilən zaman qadın və kişi sektorunda saxlanılan şəxslərlə söhbət aparılmışdır.

Başçəkmə zamanı palatalara, xidməti təsərrüfat otaqlarına, şəxsi əşyaların saxlanılması üçün otağa, qəbul otağına, görüş otağına, tibb işçisi otağına, hamama, dezinfeksiya otağına, izolyasiya otağına, mətbəxə və ərzaq anbarına baxış keçirilmişdir.

*Müəssisənin soyuq aylarda istilik sistemi ilə təchizatında problemlərin hələ də qaldığı müşahidə olunmuş, müəssisə rəhbərliyi bunu ayrılan vəsaitin azlığı ilə əlaqələndirmişdir.*

Yekunda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanma şəraiti və rəftar məsələlərinə, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

***Gəncə şəhər Psixatriya Xəstəxanasına*** planlı başçəkmə həyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd, müəssisədə saxlanma şəraitinin və rəftarın, müəssisədə yaşayan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Məlumat verilmişdir ki, 200 nəfərlik saxlama limiti olan (200 çarpayılıq) xəstəxana 2 korpusdan ibarətdir, xəstəxanada 1-ci şöbə və reabilitasiya şöbəsi (birlikdə fəaliyyət göstərir), müalicə profilli 2-ci şöbə və 3-cü şöbə fəaliyyət göstərir.

Xəstələrin hamısının könüllü olaraq yerləşdirilmiş şəxslər olduğu müşahidə edilib. Xəstəxananın 4çarpayılıq bir palatası qadınlar üçün nəzərdə tutulmuşdur və burada saxlanılan qadınlar qısa müddətdə Qazax Psixatriya müəssisəsinə və ya Bakı şəhərinə və yaxud müalicə edilib evlərinə göndərilirlər.

Xəstəxanada yalnız ümumi analiz (qan, sidik, nəcis) laborator-instrumental müayinəsi növü mövcuddur. 2019-cu il ərzində xəstələrdən intihar, özünəxəsarət halları qeydə alınmamışdır. Xəstəxanada şikayət və ya müraciət etmək üçün poçt qutuları vardır. Xəstəxananın su ilə təminatı daimidir və su ehtiyatının toplanması üçün çən və yeraltı hovuz mövcuddur.

Müəssisə rəhbərliyi ilə söhbətdən sonra xəstəxanaya ümumi baxış keçirilmişdir.

*Xəstəxananın hər üç şöbəsinə, palatalara, izolyasiya otağına, mətbəxə, yeməkxanaya, ərzaq anbarına, paltar anbarına, camaşırxanaya, sanitar qovşaqlara, qadınlar üçün nəzərdə tutulan palataya baxış zamanı, şöbələrdə əsaslı təmirə ehtiyac olması müəyyən edilmişdir.*

*Şöbə müdiri məlumat verərək hazırda xəstəxananın yeni binasının Gəncə şəhərində tikilərək başa çatdırıldığını, mövcud şəraitsiz binadan yeni binaya inventarların mərhələlərlə daşındığını, xəstəxananın yeni binada fəaliyyətə başlamasının 2019-cu ilin sonlarına planlaşdırıldığını bildirmişdir.*

*Başçəkmə zamanı palataların şəraitləri ilə tanış olunmuş, əksər palataların təmirsiz olduğu və divarlarının nəm çəkdiyi müşahidə edilmişdir. Sanitar qovşaqlarda son dövrlər təmir aparılaraq əvvəlki başçəkmələr zamanı müşahidə edilmiş anti-sanitar vəziyyətə nisbətən şəraitin düzəldilməsi müəyyən edilmişdir.*

Başçəkmə zamanı MPQ-nin üzvləri palatalardakı xəstələrlə söhbətlər apararaq saxlanma şəraiti və rəftar, yeməklərin keyfiyyəti barədə suallar vermişlər. Xəstələr tərəfindən narazılıq edilməsə də, bəzi xəstələr evə buraxılmalarında köməklik göstərilməsini xahiş etmişlər.

*Xəstəxana rəhbərliyi tərəfindən bildirilmişdir ki, gücdən və digər məhdudlaşdırıcı vasitələr kimi sakitləşdirici iynədən və xəstə ilə söhbət edilməsindən istifadə edilir. Lakin özünü həddən artıq aqressiv aparan xəstələrə özünə və başqalarına xəsarət yetirməsi təhlükəsinə qarşı görülən sakitləşdirici tədbirlər nəticə vermədikdə, izolyasiya otağı ilə əvəzləşdirilən qayğı otağı adlı palataya narahat xəstənin müvəqqəti keçirilməsi tətbiq olunur.*

Başçəkmənin yekununda MPQ-nin üzvləri tərəfindən xəstəxana rəhbərliyinə yeni binaya köçmə prosesinin sürətləndirilməsi, yeni binada xəstələrin hüquqlarının tam təmin edilməsi üçün "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn vəzifələrin icra edilməsi tövsiyə edilmişdir.

*Qeyd etmək lazımdır ki, hazırda Gəncə şəhər PsixatriyaXəstəxanası Ombudsmanın təklifləri də nəzərə alınmaqla artıq yeni inşa olunmuş binaya köçürülüb.*

***Şəki Rayonlararası Psixiatriya Xəstəxanası*** Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala və Balakən rayonlarını əhatə edir.

Müəssisəyə həyata keçirilən başçəkmədə məqsəd, saxlanma şəraitinin və rəftarın, müəssisədə yaşayan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

*Başçəkmə zamanı müəyyən edilmişdir ki, xəstəxananın palataları, mətbəxi, yeməkxanaları, ərzaq anbarı, aptek, hamam və sanitar qovşaqları*

*istifadəyə yararlı olsa da, ümumi vəziyyətləri (tikililər və avadanlıqlar) qənaətbəxş deyil.*

*Xəstəxananın palatalarında istilik sistemi quraşdırılmayıb, istilik radiatorları yalnız dəhlizlərdədir. Palatalarda sıxlıq olduğu, uçot-qeydiyyat kitablarının qaytanlandığı və möhürləndiyi müşahidə edilmişdir.*

*Xəstəxananın baş həkimi 2018-ci ildən 200 yerlik yeni binanın tikintisinin başlandığını və işlərin 2020-ci ilin əvvəllərində yekunlaşdırılmasının nəzərdə tutulduğunu qeyd etmişdir.*

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və tibb personalına ünvanlanan hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanma şəraiti və rəftar məsələlərinə, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

Başçəkmələr milli qanunvericilik, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən beynəlxalq standartlar, "Əqli qüsurlu şəxslərin hüquqları haqqında Bəyannamə", BMT-nin "Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılması prinsipləri"[24] və İQA (SPT) qaydaları, İQAK-nın 3-cü Ümumi məruzəsində (İQAK/INF (93) 12, maddə 30-77) təsbit olunmuş tövsiyələr əsasında həyata keçirilmişdir.

*Müəssisə hal-hazırda Ombudsmanın da təklifləri nəzərə alınmaqla tikintisi başa çatmış və müasir standartlara cavab verən yeni binada fəaliyyət göstərir.*

***MPQ-nin üzvləriSəhiyyə Nazirliyinin Lənkəran Rayonlararası Narkoloji Xəstəxanasına*** başçəkmə həyata keçirmişdir.

Başçəkmədə məqsəd Lənkəran Rayonlararası Narkoloji Xəstəxanasında saxlanma şəraiti, qida və tibbi təminatın necə yerinə yetirilməsi vəziyyətini yoxlamaqdan ibarət olmuşdur.

Müəssisəyə baxış keçirilən zaman müəssisədə 1 nəfər pasiyent var idi. Saxlanılan şəxslə söhbət zamanı heç bir şikayət və narazılığının olmadığı bildirilmişdir.

Başçəkmə zamanı palatalara, şəxsi əşyaların saxlanılması üçün otağa, qəbul otağına, görüş otağına, hamam, dezinfeksiya otağı, mətbəxə baxış keçirilərək otaqların vəziyyəti, işıqlandırma, havalandırma, sanitariya şəraiti yoxlanılmışdır.

***Gəncə Rayonlararası Narkoloji Dispanserinə*** həyata keçirilmiş planlı başçəkmədə məqsəd burada saxlanılma şəraitinin və rəftarın, müəssisədə qalan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

---

[24]BMT Baş Assambleyasının 17 dekabr 1991-ci il tarixli 46/119 saylı qətnaməsi ilə qəbul olunmuşdur.

Başçəkmə zamanı dispanserin baş həkimi ilə görüş keçirilmiş, Müvəkkilin səlahiyyətləri, MPM mandatı, xəstəxananın vəziyyəti və görülən işlərlə bağlı söhbətlər aparılmışdır.

Baş həkim tərəfindən bildirilmişdir ki, müəssisə 1985-ci ildən fəaliyyət göstərir, xəstəxananın binası köhnədir, əsaslı təmirə ehtiyac var, dispanser regionaldır, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Göygöl, Samux, Goranboy rayonlarını əhatə edir, xəstəxanada əsasən narkomanlar və xroniki alkoqoliklər stasionar və ambulator qaydada müalicə olunurlar, müəssisəyə xəstələrin qəbulu digər xəstəxanaların göndərişi əsasında və xəstələrin özlərinin könüllü müraciəti əsasında həyata keçirilir, müəssisədə xəstələrin müraciəti və müalicəsi ilə bağlı sənədləşmələr stasionar və ambulator xəstənin tibbi kartası açılmaqla aparılır, xəstəxanaya 2019-cu il ərzində 10 nəfər alkoqoldan, 59 nəfər isə narkomaniyadan ambulator müalicəyə qeydiyyata alınıb, müalicə üçün tibbi ləvazimat və dərman preparatları dövlət hesabına təmin edilir və həmçinin xəstələr gündə 3 dəfə yeməklə təmin edilirlər, xəstələrin yemək təminatı üçün gündəlik təxminən 1 (bir) manat vəsait nəzərdə tutulur, müəssisənin ərzaq təminatı Aqrar Tədarük və Təchizat ASC tərəfindən təmin edilir.

*Dispanserin baş həkimi ilə söhbət zamanı o 30 ildir baş həkim kimi çalışmasına baxmayaraq, müəssisənin fəaliyyətini tənzimləyən hər hansı bir təlimat və ya nizamnamə ilə tanış olmadığını bildirmişdir.*

Xəstəxana 2 şöbədən - Ambulator və Stasionar şöbələrdən, inzibati otaqlar-6həkim otağından ibarətdir, müəssisədə 24 nəfərdən ibarət heyət fəaliyyət göstərir, bunlardan 3-ü həkim-narkoloq, 11-i orta tibb işçisi, 10 nəfər isə kiçik tibb işçiləri və texniki işçilərdir (aşbaz, mətbəx işçisi, anbardar və s.). Xəstəxanada stasionar müalicə üçün 20 nəfərlik çarpayısı olan 5 palata fəaliyyət göstərir.

*Başçəkmə zamanı xəstəxanada saxlanılan 7 nəfərlə görüş keçirilmiş, onlar saxlanılma və rəftarla bağlı şikayətlərinin olmadığını bildirmişlər.*

*Baxış zamanı müəssisənin inzibati binasının, yardımçı binaların, mətbəxin, camaşırxananın, palataların tamamilə sanitar gigiyena qaydalarına zidd, istifadəyə tam yararsız vəziyyətdə olması müəyyən edilmişdir.*

*Müəssisənin həkimlər otağına, Tibb qeydiyyatçısı otağına, Baş tibb bacısı otağına, xəstələrin saxlanıldığı palatalara, əməliyyat (inyeksiya) otağına, aptekə, ərzaq anbarına, sanitar qovşağa, yumşaq inventarların saxlanc otağına və müəssisənin ümumi ərazisinə baxış zamanı xəstəxana binasının ümumilikdə köhnə və natəmiz olması, stasionar şöbənin palatalarının, eləcə də palatalardakı çarpayı və digər əşyaların köhnə, səliqəsiz, şəraitsiz olması, palatalarda xəstələrin saxlanılması üçün minimal şəraitin belə olmaması, pis qoxu və nəmişliklə müşayiət olunması, istilik*

*sisteminin olmaması, istifadə olunan palataların elektrik qızdırıcıları ilə qızdırılması, xəstələrin asudə vaxtlarının təşkili üçün heç bir şəraitin (televizor, idman qurğusu vəs.) olmaması aşkar edilmişdir.*

*Həmçinin stasionar şöbənin sanitar qovşağının istifadəyə tamamilə yararsız, bərbad vəziyyətdə olması, qazanxananın işləməməsi (hamam qazanxanası) hamamın ümumiyyətlə istifadəyə yararsız olması müəyyən edilmişdir.*

*Müəssisənin camaşırxanası olmadığından paltarların müəssisə əməkdaşının evindən gətirdiyi bir ədəd paltaryuyan maşın vasitəsi ilə yuyulduğu bildirilmişdir.*

Başçəkmənin sonunda müəssisə əməkdaşlarının zəruri normativ-hüquqi aktlarla tanış edilməsi, qeydiyyat işinin təkmilləşdirilməsi, burada çalışan həkimlərin davranışlarının təlimata uyğun qaydada tənzimlənməsi, xəstələrin qida rasionunda müxtəlifliyin təmin edilməsi barədə tövsiyələr verilmişdir.

*İl ərzində Səhiyyə Nazirliyinin müəssisələrinə həyata keçirilən başçəkmələr nəticəsində əksər müəssisələrin köhnə və yararsız olması, qeydiyyat işinin natamam olması müşahidə edilmişdir. Müvəkkil belə müəssisələrin təmir edilərək müasir standartlara uyğunlaşdırılmasını, bəzilərinin isə yeni binalara keçirilməsi üçün tikinti-tamamlama işlərinin sürətləndirilməsini tövsiyə edir.*

### 2.2.7. Təhsil Nazirliyinin müəssisələri

Ombudsmanın MPM fəaliyyəti çərçivəsində Təhsil Nazirliyinin müəssisələrində başçəkmələr keçirilmişdir.

MPQ-nin üzvləri tərəfindən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası, "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"sının müddəaları, BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu, İQA (SPT) tövsiyələri, İQK (CPT) standartları, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri əsasında Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən 34 başçəkmə həyata keçirilmişdir. Başçəkmələr zamanı beynəlxalq təcrübə nəzərə alınmaqla təhsil müəssisələrində saxlanma şəraiti və rəftar məsələləri, habelə bu sahədə milli və beynəlxalq standartların praktik tətbiqi məsələləri araşdırılmış, əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyəti yoxlanılmışdır.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Təhsil Nazirliyinin Şəki şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyasına*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmədə məqsəd bu müəssisədə təhsil alan və yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaqların hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur.

MPQ üzvlərinin və sosial iş sahəsində ekspertin də iştirak etdiyi başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, dərs və reabilitasiya otaqlarına, yeməkxanaya və mətbəxə, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlara, ümumi əraziyə baxış keçirilmişdir.

Rəftar məsələlərinin araşdırılması məqsədilə təsadüfi seçim əsasında bu müəssisədə təhsil alan uşaqlarla, habelə müəssisə rəhbərliyi, müəllimlər və tibb işçiləri ilə fərdi müsahibələr aparılmış və mövcud vəziyyət öyrənilmişdir.

*Ümumi ərazidə, sanitar qovşaqlarda təmir işlərinin aparılmasına, saxlanma şəraitinin yaxşılaşdırılmasına və işçilərin məlumatlılığının artırılması işinin təşkilinə ehtiyacın olduğu müəyyən edilmişdir.*

*Başçəkmə zamanı yaşayış korpuslarında, otaqlarda sıxlıq, saxlama şəraitində çətinliklər müşahidə olunmuşdur. Tibb-sanitar hissədə həkim iş vaxtında yerində olmamış, dərman preparatlarının azlığı, xəstəliklərə uyğun lazımi preparatların olmadığı müəyyən edilmişdir.*

*Jurnallarda qeydiyyatın lazımi qaydada aparılmaması, doldurulmaması, ümumiyyətlə qeydiyyatla bağlı çatışmazlığın olduğu müşahidə edilmişdir.*

Başçəkmə çərçivəsində MPQ üzvləri tərəfindən saxlanma şəraiti və rəftar məsələlərinə dair milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisə rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər də aparılmışdır[25].

***Quba şəhər valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəbinə*** başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı yataqxanalara, sinif və tərbiyə otaqlarına, mətbəxə, hamama, inzibati otaqlara, idman zalına və ümumi əraziyə baxış keçirilmiş, saxlanma şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələsi araşdırılmışdır.

Müəssisədə qalan 114 nəfər uşaqdan təsadüfi seçim əsasında seçilməklə təkbətək söhbətlər aparılmış, onlara olan rəftar, təminatları və şəraitləri barədə suallar verilmiş, hüquqları izah edilmişdir. Uşaqlar internatın

---

[25] http://www.ombudsman.gov.az/az/view/news/1528/milli-preventiv-qrup-terefinden-dovlet-ushaq-muessiselerinde-bashchekmeler-davam-etdirilir

şəraitindən, müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

*Bununla yanaşı, müəssisənin yeməkxanasına və mətbəxinə baxış keçirərkən, yeməkxana xidmətləri göstərən MMC tərəfindən, sanitar-gigiyena qaydalarının pozulduğu, yemək cədvəllərinin 2018-ci ilin noyabr ayına aid olduğu, yeməyin menyu ilə uyğun gəlmədiyi, yemək zalında natəmizlik olduğu və personalın şəxsi əşyalarının olduğu tərəfimizdən müşahidə olunmuşdur.*

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında məktəb rəhbərliyinə uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı tövsiyələr verilmişdir.

***Quba Xüsusi Peşə Məktəbinə*** başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri–insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, habelə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin, yataqxanalarına, sinif otaqlarına, mətbəxə və digər inzibati otaqlara baxışlar keçirilmiş, habelə asudə vaxtın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan şəxslər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, qaldırdıqları məsələlər, sənədləşmə yerində araşdırılmışdır.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqları sahəsində, milli və beynəlxalq qanunvericiliyə uyğun müvafiq tövsiyələr verilmişdir.

***Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə şəhər İdman Liseyinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Müvəkkil tərəfindən elan edilmiş Uşaq Hüquqları Aylığı çərçivəsində keçirilən başçəkmə zamanı Liseyin binasında əsaslı təmir işlərinin aparıldığı məlum olmuşdur. Liseyin direktoru ilə söhbət zamanı o, təmir işlərinin növbəti tədris ilinin başlanğıcına qədər yekunlaşacağını və müəssisədə təhsil alan uşaqların müvəqqəti olaraq təhsillərini Gəncə şəhərində yerləşən 3 saylı Peşə Liseyində davam etdirdiklərini bildirmişdir.

Ombusmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən lisey direktoru iləsöhbət zamanıuşaq hüquqlarının effektiv təmini və saxlanma

şəraitinin standartlara uyğunlaşdırılması ilə bağlı beynəlxalq təcrübə əsasında tövsiyələr verilmişdir.

***Gəncə şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** başçəkmə həyata keçirilmişdir.

BMT-nın “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası”nın Fakültətiv Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd bu müəssisədə təhsil alan və yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaqların hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur.

Başçəkmə zamanı məktəbin direktoru təhsil müəssisəsinin 1961-ci il tarixindən istifadəyə verildiyini, hazırda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli qərarı ilə təsdiq edilmiş “Ümumtəhsil İnternat məktəblərinin Nümunəvi nizamnaməsi” əsasında hazırlanmış və İnternat-Gimnaziyanın 2016-cı il 21 fevral tarixli 4 saylı pedaqoji şurasında qəbul edilmiş Nizamnamə əsasında fəaliyyət göstərsələr də, yeni nizamnamənin hələlik təsdiq edilmədiyini, gimnaziyada təhsil alan şagirdlərin məktəbli formaları, çantalar, məktəb ləvazimatları ilə təmin edildiklərini bildirmişdir.

Gimnaziyada 9 illik tədrisin həyata keçirilməsi və məktəbin əsasən aztəminatlı ailələrin uşaqları üçün nəzərdə tutulması, hazırda məktəbdə 240 şagirdin təhsil alması, təhsil alan şagirdlərdən 25 nəfərinsağlamlıq imkanları məhduduşaqlar olduğunu və onlar üçün 3 xüsusi sinif otaqları ayrıldığını, dərslərin saat 16:30-dək keçirilməsi, şagirdlərin məktəbə qəbulunun məktəbdə təşkil edilən xüsusi komissiya tərəfindən həyata keçirilməsi, məktəbdə 21 müəllimin, 9 tərbiyəçinin, 1 həkimin, 1 psixoloqun, 1 tibb bacısının, 1 anbardarın, 1 dalandarın, 1 kitabxanaçının, texniki işçilərin və mühafizəçilərin fəaliyyət göstərməsi bildirilmişdir.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən məktəbin ərazisinə və 35 otaqdan ibarət yataqxanasına, bütün zəruri avadanlıqla təchiz edilmiş yeməkxanasına və mətbəxinə, inzibati otaqların və sinif otaqlarının yerləşdiyi binaya, tibb otağına, psixoloq otağına, texnologiya otağına, kompüter otağına, kitabxanaya baxış keçirilmiş, otaqların yeni mebellərlə və zəruri ləvazimatlarla təchiz edilməsi müşahidə edilmişdir. MPQ üzvləri dərslərin gedişatı ilə maraqlanmış, şagirdlərin bir qismi ilə görüş keçirilmişdir.

Ərzaq təminatının tender əsasında“Ren Servis” MMC tərəfindən təmin edildiyi gimnaziyanın yeməkxana və mətbəxi, eləcə də ərzaqların saxlanılma anbarı ilə tanışlıq zamanı burada sanitar-gigiyenik qaydalara ciddi riayət

edildiyi, yeməklərin hazırlanması və saxlanılması şəraitinin təmiz və səliqəli olduğu, bütün mətbəx işçilərinin ağ xalatda olduğu müşahidə edilmişdir.

Gimnaziyanın tibb otağına başçəkmə zamanı məktəbin tibb işçisi ilə söhbət aparılmış, söhbət zamanı yuxarı sinif şagirdlərinin məcburi dispanserizasiyaya cəlb edildiyi, ibtidai siniflərin isə yaxın müddətdə dispanserizasiyadan keçiriləcəyi məlum olmuşdur. Başçəkmə zamanı tibb otağının ilkin tibbi yardım üçün lazımipreparatlarlatəmin edildiyi, məktəblilərin fərdi tibbi qeydiyyat kitabçalarının mövcud olduğu müəyyən edilmişdir.

Gimnaziya rəhbərliyi tərəfindən yataqxanada gecələyən şagirdin olmaması bildirilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün siniflərlə tanışlıq zamanı müxtəlif diaqnozlu əqli qüsurlu məktəblilərin siniflərdə dərslərə cəlb edildiyi müşahidə olunmuşdur.

Rəftar məsələlərinin araşdırılması məqsədilə təsadüfi seçim əsasında bu müəssisədə təhsil alan uşaqlarla, habelə müəssisə rəhbərliyi, müəllimlər və tibb işçiləri ilə fərdi müsahibələr aparılmış və mövcud vəziyyət öyrənilmişdir. Gimnaziya rəhbərliyi və təhsil alan uşaqlar tərəfindən rəftar məsələləri ilə bağlı hər hansı insidentin yaşanmadığı, məktəbdə təlim-tərbiyə işinə hər zaman həssas münasibət göstərildiyi bildirilmişdir.

Başçəkmə çərçivəsində MPQ üzvləri tərəfindən saxlanma şəraiti və rəftar məsələlərinə dair milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisə rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər də aparılmışdır.

***Tovuz rayonu Qovlar şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** plandankənar başçəkməhəyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, müəssisədə qalan şəxslərin hüquqlarının təmin edilməsi məsələlərinin araşdırılması olmuşdur.

01 oktyabr 2018-ci il tarixində tikilərək istifadəyə verilən gimnaziya əsas inzibati korpusdan, 102 yerlik 3 mərtəbəli yataqxana korpusundan, 360 yerlik ibtidai korpusdan, ümumi təhsil bölməsi korpusundan və yeməkxana (mətbəx, hamam və anbar) korpusundan ibarətdir. Gimnaziyanın bütün korpusları bütün müvafiq inventarlarla təmin edilmişdir. Burada tibb məntəqəsi, laboratoriya, dərzi, bərbər çəkməçi kabinəsi fəaliyyət göstərir.

Gimnaziyanın hazırda fəaliyyətini tənzimləyən nizamnamənin hazırlanaraq təsdiq edilməsi üçün Təhsil Nazirliyinə təqdim edildiyi bildirilmişdir.Müəssisədə sağlamlıq imkanları məhdud uşaqlar digər uşaqlardan ayrı təhsil alırlar. Müəssisədə hazırda Qazax, Ağstafa, Tovuz, Şəmkir rayonlarından gələn şagirdlər təhsil alır. Bu şagirdlərdən 43 nəfəri sağlamlıq imkanları məhdud uşaqlardır (əsasən müxtəlif xəstəliklərdən əziyyət çəkən- hipertenzion sindromu, əqli və zehni zəiflik, oliqofreniya və s.). Şagirdlərdən 102 nəfər uşaq gimnaziyanın yataqxanasında gecələyir. Tədris ili başlayandan bütün şagirdlər məktəbli forması ilə təmin edilmişdir. Məktəb rəhbərinin verdiyi məlumata əsasən məktəbdə rəftarla bağlı hər hansı insident olmayıb, yalnız dərsdən yayınma halları olmuşdur və bununla bağlı valideyin iclası çağırılaraq şagird müəllim münasibətlərində anlaşılmazlıqlar aradan qaldırılmış və eyni zamanda rayon polis şöbəsinin yetkinlik yaşına çatmayanlarla iş üzrə müfəttişi dəvət edilərək şagirdlərlə proflaftiki söhbətlər aparılması ilə aradan qaldırılması bildirilmişdir.

Müəssisədə 147 nəfər müəllim, 50 nəfər texniki işçi çalışır (tərbiyəçilər, baş mühasib, xəzinədar, hesabdar, kitabxanaçı, laborant, kompüterçi-operator, gecə dayəsi, aşbaz, mətbəx fəhləsi, bərbər, paltar dəyişdirici, anbardar, dərzi, sürücü və s.). Müəssisədə, həmçinin tibb məntəqəsində 1 həkim, psixoloq və 2 tibb bacısı fəaliyyət göstərir.

Başçəkmə zamanı, məktəbin yeni tikilərək istifadəyə verilmiş bütün korpuslarına - inzibati binaya, sinif otaqlarına, müəllimlər otağına, yataqxana otaqlarına, tibb otağına, hamamxanasına, mətbəxə, yeməkxanasına, ərzaq anbarına, müasir təhsil inventarları ilə təchiz edilmiş kitabxanaya, yeni kompüterlərlə təchiz edilmiş informatika, eləcə də riyaziyyat, fizika, kimya, biologiya kabinetlərinə, akt zalına, gimnaziyanın həyatinə baxış keçirilmiş, gimnaziyanın bütün korpuslarının müasir şəraitli olması müəyyən edilmişdir.

***Mingəçevir şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** Fakültativ Protokolun tələbləri əsasında keçirilən başçəkmədə məqsəd müəssisədə saxlanma şəraiti və rəftarın qiymətləndirilməsi, uşaqların qidalanması və dərman təchizatı, tibbi xidmət, istilik təchizatı və xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirməsindən ibarət olmuşdur.

*Başçəkmə zamanı gimnaziyanın əsaslı təmirə zəruriliyi müəyyən edilmişdir. Gimnaziya mərkəzləşmiş istilik sistemi ilə təmin edilməmişdir. Sinif otaqları və yataqxananın isidilməsi üçün elektrik qızdırıcılarından istifadə olunduğu söylənsə də, başçəkmə zamanı elektrik qızdırıcılarının elektrik şəbəkəsinə qoşulmadığı müşahidə edilmişdir. Uçot-qeydiyyat kitablarının qarışıq vəziyyətdə, rəsmiləşdirilməmiş, qaytanlanmamış və möhürlənməmiş olduğu müəyyənedilmişdir.*

*Tibb otağında dərman preparatlarının saxlanılması üçün soyuducunun olmadığı, gimnaziyada hamamın olmadığı, yeməkxananın isidilmədiyi, döşəmənin beton örtüklü olduğu müşahidə edilmişdir.*

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında məktəb rəhbərliyinə uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı tövsiyələr verilmişdir.

Tövsiyələrimiz də nəzərə alınmaqla uşaqlar köçürülməklə müəssisənin əsaslı təmirinə başlanılmışdır.

***Balakən rayon İnteqrasiya Təlimli İnternat tipli Gimnaziyaya*** keçirilən başçəkmə zamanı müəssisənin yataq və sinif otaqlarına, mətbəxə, eləcə də ümumi əraziyə baxış keçirilmiş, saxlanma şəraiti, müəssisədəki uşaqlarla rəftar və müvafiq sənədləşmənin aparılması vəziyyəti öyrənilmişdir.

*Müəssisədə gecələyən uşaqların isti adyalla təmin olunmadığı müşahidə olunmuşdur.*

Başçəkmələrin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisələrin rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

***Lənkəran şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** başçəkmə həyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, müəssisədə qalan şəxslərin hüquqlarının təmin edilməsi məsələlərinin araşdırılması olmuşdur.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında məktəb rəhbərliyinə uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı tövsiyələr verilmişdir.

***Neftçala rayon M.Səfərov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** keçirilən başçəkmə zamanı rəftar məsələlərinin araşdırılması ilə bağlı müəssisədə yaşayan uşaqlarla müvafiq söhbətlər aparılmış, hüquqları izah edilmişdir.

Başçəkmə zamanı müəssisənin yeməkxanasına, yataqxana və tədris korpusuna baxış keçirilmişdir. Şagirdlər söhbət zamanı onlarla davranış və

rəftardan narazı olmadıqlarını bildirmiş və qida təminatındanşikayət etməmişlər.

***Salyan şəhər A.Səfərov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** keçirilən başçəkmələr zamanı müəssisənin yataq və sinif otaqlarına, mətbəxə, eləcə də ümumi əraziyə baxış keçirilmiş, saxlanma şəraiti, müəssisədəki uşaqlarla rəftar və müvafiq sənədləşmənin aparılması vəziyyəti öyrənilmişdir.

Başçəkmələr çərçivəsində müəssisədə saxlanılan uşaqların bir qismi ilə təkbətək söhbətlər aparılmış, müəssisə əməkdaşlarının onlarla rəftarı, təminatları və şəraitləri araşdırılmışdır.

MPQ üzvləri tərəfindən həmçinin mətbəxə, ərzaq anbarına, yataq otaqlarına, siniflərə baxış keçirilmiş, şagirdlərlə hüquq və azadlıqları, həmçinin vəzifələri mövzusunda maarifləndirici söhbətlər aparılmışdır.

Başçəkmələrin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisələrin rəhbərliyi ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

***Goranboy rayonunda yerləşən R.Ağakişiyev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** planlı başçəkmə həyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd gimnaziyada saxlanma şəraitinin və rəftarın, müəssisədə qalan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Baxış zamanı Gimnaziyanın direktoru bildirmişdir ki, məktəb 1960-cı ildən fəaliyyətdədir və 3 korpusdan ibarətdir. Şagird limiti 260 nəfər, faktiki təhsil alan şagird sayı 120 nəfər, məktəbin yataqxanasında gecələyən şagirdlərin sayı 30 nəfərdir. Məktəbə qəbul qaydaları valideynlərin və ya digər qanuni nümayəndələrin ərizə ilə müraciət etmələri əsasında və aztəminatlı ailələrin müraciətləri əsasında aparılır. Məktəbin işçi heyəti 33 müəllim və 28 texniki işçidən ibarətdir. Məktəb sonuncu dəfə 2004-cü ildə əsaslı şəkildə təmir edilib. Məktəbdə paltar ehtiyacı olan şagirdlər üçün ildə bir dəfə paltarlar verilir. Məktəbin qızdırılması qazanxana hesabına və qızdırıcı elektrik piltələri vasitəsilə həyata keçirilir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri Gimnaziyanın sinif otaqlarına baş çəkmiş, təhsil alan şagirdlərlə görüş keçirilmişdir.

Şagirdlərlə görüş zamanı Gimnaziyanın yataqxanasında saxlanma şəraiti və rəftarla bağlı verilən suallara cavab olaraq şagirdlər tərəfindən narazılıq bildirilməmişdir.

Məktəbin 2-ci korpusunda yerləşən yeməkxana, mətbəx və ərzaq anbarı ilə tanışlıq zamanı buradakı vəziyyətin qənaətbəxş, təmiz olduğu, yemək ləvazimatlarının yuyucu məhlulla təmizlənərək yuyulduğu, tez xarab ola bilən ərzaq məhsullarının saxlanılması üçün soyuducunun olduğu müəyyən edildi.

Başçəkmə zamanı gimnaziyada şəraitin təkmilləşdirilməsi, dərslərdə uşaq hüquqları ilə bağlı məşğələlərin də keçirilməsi MPQ üzvləri tərəfindən məktəb rəhbərinə tövsiyə edilmiş və Müvəkkil tərəfindən 10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə "Mən və hüquqlarım"mövzusunda təşkil edilən uşaq rəsmlərinin ənənəvi müsabiqəsi barədə elan və uşaq hüquqları ilə bağlı nəşrlər təqdim edilmişdir.

*Məktəbin ümumi sinif otaqları, inzibati binası, qazanxanası, mətbəxi ilə tanışlıq zamanı binada məktəb rəhbərliyi tərəfindən cari təmir işləri aparılsa da, binanın köhnə olması, gimnaziyada pedaqoji heyətin istifadə etməsi üçün məktəb dəftərxana ləvazimatlarına ehtiyac olması, tibb otağının dərman preparatları ilə təmin edilməsinə ehtiyac olması,(tibb preparatlarını gimnaziyada işləyən həkim şəxsi vəsaiti hesabına alır) ümumilikdə gimnaziyanın əsaslı təmirə ehtiyacı olması müşahidə edilmişdir.*

***Siyəzən şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** başçəkmə keçirilmişdir. Başçəkmə zamanı yataqxanalara, sinif və tərbiyə otaqlarına, mətbəxə, hamama, inzibati otaqlara, idman zalına və ümumi əraziyə baxış keçirilmiş, saxlanma şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələsi araşdırılmışdır.

*Bununla yanaşı, müəssisənin yeməkxanasına, mətbəxinə, hamam otaqlarına və sanitar qovşağına baxış keçirərkən, yeməkxana xidmətləri göstərən MMC tərəfindən, sanitar-gigiyena qaydalarının pozulduğu, yeməyin menyu ilə uyğun gəlmədiyi, yemək zalında natəmizlik olduğu və personalın şəxsi əşyalarının olduğu, hamam otaqlarının və sanitar qovşağının çox pis vəziyyətdə olduğu müşahidə olunmuşdur.*

Müəssisədə qalan 73 nəfər uşaqdan bir çoxu ilə təsadüfi seçim əsasındatəkbətək söhbətlər aparılmış, onlarla rəftar, təminatları və şəraitləri barədə suallar verilmiş, hüquqları izah edilmişdir.

***Zaqatala şəhər İnteqrasiya Təlimli İnternat tipli Gimnaziyaya*** keçirilən başçəkmədə məqsəd saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması olmuşdur.

*Müəssisənin bir hissəsi cari təmir olunmuş, istilik sitemi yenilənmişdir. Lakin başçəkmə zamanı müəssisənin əsaslı təmirinin zəruriliyi müşahidə olunmuşdur.*

*Qeydiyyat kitabları ilə tanışlıq zamanı müəyyən olunmuşdur ki, jurnallar möhürlənməmiş, qaytanlanmamışdırvə qeydiyyat qarışıq aparılmaqdadır.Jurnalda uşaqların adı qeyd olunmamışdır.*

*Uşaqların yataq otaqlarında sıxlıq olduğu, qızlar yataqxanasında yerləşən hamamda istilik sisteminin sıradan çıxdığı müşahidə edilmişdir.*

Başçəkmələrin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisələrin rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi və çatışmazlıqların təcili aradan qaldırılmasıilə bağlı tövsiyələr verilmişdir.

2019-cu il ərzində keçirilmişbaşçəkmələr zamanı Təhsil Nazirliyinin tabeliyindəki müəssisələrdə bəzi nöqsanların hələ də mövcud olduğu, əvvəlki illərdə verilmiş təklif və tövsiyələrin tam yerinə yetirilmədiyi müşahidə olunmuşdur. Belə ki, əksər müəssisələrdə saxlanma şəraitinin təkmilləşdirilməsinə, sıxlığın aradan qaldırılması üçün yeni binaların tikilməsinə və ya əsaslı təmir edilməsinə ehtiyac vardır.

Bundan başqa, bir sıra müəssisələrdə qış aylarında istiliklə bağlı problemlərin həll edilməmiş qaldığı (mərkəzləşmiş istilik sistemlərinin olmaması, uşaqların isti adyalla təmin olunmaması və s.), bunun da saxlanma şəraitinə təsir etdiyi müşahidə edilmişdir. Qeydiyyat sahəsində və dərman preparatlarının təminində mövcud olan çatışmazlıqların aradan qaldırılması da vacib məsələlərdəndir.

### 2.2.8. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə MPM fəaliyyəti çərçivəsindəəvvəlcədən xəbərdarlıq etmədən 11 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr milli qanunvericilik, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu, beynəlxalq standartlar, o cümlədən BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası", "Əqli qüsurlu şəxslərin hüquqları haqqında Bəyannamə", "Psixi xəstə şəxslərin müdafiəsi və psixiatrik yardımın yaxşılaşdırılması Prinsipləri", BMT-nin ahıl şəxslərə dair Prinsipləri, BMT Baş Assambleyasının Əhalinin qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planı üzrə tövsiyələri, CPT və SPT qaydaları əsasında həyata keçirilmişdir.

***ƏƏSM yanında DSMF-nin Zabrat qəsəbəsindəki 18 yaşdan yuxarı şəxslər üçün Sosial Sığınacaq Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd bu müəssisədə yaşayan şəxslərin saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə

hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur. Başçəkmə zamanı müəssisənin obyektlərinə baxış keçirilmişdir[26].

Müəssisədə saxlanma şəraiti və rəftar məsələlərinin qənaətbəxş olduğu müəyyən edilmişdir.

***Yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Mərkəzinə*** başçəkmə həyata keçirilmişdir.

Rəftar məsələlərinin araşdırılması məqsədilə bu müəssisədə yaşayan sakinlərlə, o cümlədən uşaqlarla, habelə müəssisə rəhbərliyi, həkimlər, müəllimlər və tibb işçiləri ilə söhbətlər aparılaraq mövcud vəziyyət öyrənilmişdir.

Müəssisədə saxlanma şəraiti və rəftar məsələlərinin qənaətbəxş olduğu müəyyən edilmişdir.

Başçəkmənin sonunda Milli Preventiv Qrupun üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları haqqında və Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyaları əsasında müzakirələr aparılmaqla, müvafiq tövsiyələr verilmişdir.

***Yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün bərpa mərkəzinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd bu müəssisədə yaşayan şəxslərin saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur. Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə baxış keçirilmiş, saxlanma şəraiti və rəftar məsələləriaraşdırılmışdır.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisə rəhbərliyinə uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftarı məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı tövsiyələr verilmişdir.

***Pensiya yaşına çatmış şəxslər üçün Sosial Xidmət Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində yataqxana korpuslarına, yaşayış və tibb otaqlarına, müşahidə yerlərinə, yeməkxana, ərzaq anbarı və digər obyektlərə baxışlar keçirilib, habelə tibbi yardımın təşkili, yemək-qidalanma, telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə, yaşayan şəxslərin hüquqlarının təmini vəziyyəti araşdırma predmeti olmuşdur.

Eyni zamanda, müəssisədə saxlanılan bir sıra şəxslə təkbətək söhbətlər aparılmış, sonuncuların Müvəkkilə ünvanladığı ərizələrqəbul edilmiş,müraciətlər müvafiq orqanlar qarşısında qaldırılmışdır.

---

[26]http://www.ombudsman.gov.az/az/view/news/1531/ombudsman-aparatinin-emekdashlari-terefinden-sosial-obyektlere-bashchekmeler-heyata-kechirilib

*Ərizə və ya şikayəti təqdim edən şəxs xahiş etdikdə, ərizənin və ya şikayətin konfidensiallığı təmin olunur.*[27]

*Məhbuslarla minimal standart davranış qaydalarına görə, başçəkmə zamanı müfəttişlərə ərizə və ya şikayətlərin verilməsi mümkün olmalıdır.*[28]

***Gəncə şəhər Pensiyaçıların Ərazi Sosial Xidmət Mərkəzinə*** planlı başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd, müəssisədə saxlanma şəraitinin və rəftarın, müəssisədə qalan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin əsaslı təmir edilmiş inzibati və yataqxana korpuslarına, həyətinə, gəzinti sahəsinə, yeməkxanaya və digər obyektlərə baxış keçirilmişdir və müəssisə rəhbərliyi və məsul əməkdaşlarla söhbətlər aparılmışdır.

ƏƏSMN tərəfindən müəssisədəəsaslı təmir işləri aparılmış, 3 mərtəbədən ibarət yataqxana, inzibati bina, yeməkxana və qazanxanada şərait yaxşılaşdırılmışdır.

Başçəkmə zamanı Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən müəssisənin inzibati binasına, yataqxana və palatalara, xüsusilə ağır vəziyyətdə olan xəstə şəxslərin saxlanılması üçün nəzərədə tutulan 50-nəfərlik əlavə yataqxanaya, yeməkxanaya, mətbəxə, hamam və sanitar qovşaqlara baxış keçirilmiş, həmin yerlərdə təmir və yenidənqurma işlərinin aparıldığı 1, 2 və 3 nəfərlik yeni palataların yaşayış üçün bütün zəruri avadanlıqlarla təchiz edilməsi, hər otaq üçün ayrıca hamam və tualetin inşa edilməsi müşahidə edilmişdir.

*Müəssisənin direktoru xidmət mərkəzinin 2020-ci ilin birinci rübündə fəaliyyətə başlamasının nəzərdə tutulduğunu bildirdi.*

Başçəkmənin yekununda saxlanma şəraitinin standartlara uyğunlaşdırılması ilə bağlı tövsiyələr verilmişdir.

***Dövlət Sosial Müdafiə Fondunun Göygöl rayonu 3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş

[27]BPP – Hər hansı formada tutulan və ya həbsə alınan bütün şəxslərin müdafiəsi üçün prinsiplər toplusu, 33-cü prinsip

[28]SMR, 36-cı qayda

başçəkmədə məqsəd, müəssisədə saxlanma şəraitinin və rəftarın, müəssisədə yaşayan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Sosial Xidmət Müəssisəsinin direktoru müəssisənin ümumi ərazisinin 4,5 hektar, əməkdaşların ümumi ştat sayının 55 nəfər olduğunu, limit 135 nəfər olsa da, hazırda Gəncə şəhər Pensiyaçıların Ərazi Sosial xidməti Mərkəzində təmir işlərinin aparılması səbəbindən həmin müəssisənin 25 nəfər sakininin və Şamaxıda yerləşən 2 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinin 9 nəfər sakininin müəssisədə saxlanıldığından, saxlanılanların sayının hazırda 147 nəfər təşkil etdiyini bildirmişdir. Əlavə saxlanılan şəxslərin hamısı çarpayı ilə təmin edilib və müəssisənin inzibati iş otaqları müvəqqəti olaraq palata kimi istifadəyə verilib.

Saxlanılanlar arasında yetkinlik yaşına çatmayanı yoxdur.

Müəssisədə əsasən şizofreniya, oliqofreniya, daun sindromu, serebral iflic, yüngül dərəcəli ağıl zəifliyi, henqinkton xəstəliyi, əqli inkişaf geriliyi və s. xəstəliklərdən əziyyət çəkən şəxslər saxlanılır.

Müəssisə 1 korpusdan, yardımçı təsərrüfat binasından, camaşırxana binasından ibarətdir, binanın 2-ci mərtəbəsində inzibati heyət fəaliyyət göstərir.

Müəssisə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2-3 saylı, 25.02.2015-ci il tarixli qərarı ilə təsdiq edilmiş AR ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun Psixonevroloji sosial xidmət müəssisələrinin Nizamnaməsi əsasında fəaliyyət göstərir.

Başçəkmə zamanı müəssisədə 2019-cu il ərzində xəstələr tərəfindən özünə xəsarət halının olmaması, onların yaxınları ilə görüşlərinin və telefon danışıqlarının müəssisədaxili telefon vasitəsilə təmin edilməsi, xəstələrə qarşı xüsusi vasitələrdən istifadə edilməməsi və yalnız müvəqqəti olaraq izolyasiya otağından istifadə edilməsi, müəssisədə gigiyenaya nəzarət edilməsi, palatalarda ventilyasiya sisteminin mövcud olması, duş otağının istifadəyə yayarlı olması, tibbi müayinələrin müntəzəm həyata keçirilməsi və nəzarətin olması, xəstələrlə görüşə gələnlər üçün normal şərait yaradılması müşahidə edilmişdir.

Müəssisədə saxlanılan şəxslərlə görüşlər zamanı saxlanma şəraiti və rəftarla bağlı şikayət daxil olmamışdır.

Müəssisənin müvafiq qeydiyyat jurnallarına baxış zamanı, həmçinin pasiyentlərinşəxsi işləri ilə tanışlıq zamanı müvafiq qeydlərin aparıldığı müşahidə edilmişdir.

Başçəkmə zamanı müəssisədə hasar boyunca drenaj boruların quraşdırılma işlərinin getdiyi, həyətdə ayrıca sahədə qazanxana tikintisinin aparılması müşahidə edilmişdir. Müəssisə rəhbərliyi tərəfindən yaxın

zamanlarda müəssisənin ƏƏSMN-nin xətti ilə əsaslı təmirə dayandırılmasının nəzərdə tutulduğu, bu səbəbdən müəssisədə saxlanılan xəstələrin müvəqqəti olaraq başqa xəstəxanalara köçürüləcəyi bildirilmişdir.

Başçəkmənin sonunda müəssisə rəhbərliyinə müəssisədəki şəraitin daha da yaxşılaşdırılması və qeydiyyat məsələlərinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Həyata keçirilmiş başçəkmələrin yekununda saxlanma şəraitinin təkmilləşdirilməsi məqsədilə aparılan işlər çərçivəsində müəssisələrin rəhbərliyinə beynəlxalq standartlara əsaslanan, habelə BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası" və "Əhalinin qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planı" əsasında müvafiq tövsiyələr verilmişdir.

Eyni zamanda, ƏƏSMN sisteminə daxil olmayan ***Azərbaycan Uşaqlar İctimai Birliyinin nəzdindəki Uşaq sığınacağı reinteqrasiya mərkəzinə də*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd KİV-də bir yeniyetmənin öz qohumu tərəfindən zorakılığı məruz qalması səbəbindən bu müəssisəyə yerləşdirildiyi barədə yayılmış məlumatların araşdırılması olmuşdur.

Məlum olmuşdur ki, qohumu tərəfindən zorakılığa məruz qalması və evdən qovulması səbəbindən uzun müddət küçələrdə gecələməyə məcbur olmuş və bu barədə mətbuatda haqqında geniş məlumatlar yayılmış, Roman qrupundan olan 17 yaşlı V.S. bu müəssisəyə yerləşdirilib, hazırda sənədləşmə işləri aparılır.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən V.S. fərdi qaydada qəbul edilmiş, onun saxlanma şəraiti, qidalanma və sağlamlıq vəziyyəti araşdırılıb, hüquqları izah edilib, vəziyyəti nəzarətə götürülüb.

Başçəkmələrin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisələrin rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

### 2.2.9. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri

Fakültativ Protokolun tələbləri əsasında yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan və MPM-in yurisdiksiyasında olan müəssisələrə planlı və plandankənar olmaqla başçəkmələr həyata keçirilmişdir.

***Şəki Qarışıq Tipli Uşaq Evinə*** Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili

(Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında MPQ-nin üzvləri tərəfindən başçəkmə həyata keçirilmişdir.

*Başçəkməninbeynəlxalq təcrübə əsasında təşkili məqsədilə dəvət əsasında UNICEF-in nümayəndəsi və Cənubi Koreyadan olan uşaq hüquqları sahəsində ekspert də iştirak etmişdir.*[29]

Başçəkmədə məqsəd bu müəssisədə yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaq hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur.

Uşaqlarla aparılan konfidensial söhbət zamanı onların hər biri ayrı-ayrılıqda şəraitdən, rəftardan və qidalanmadan narazılıqlarının olmadığını bildirmişlər.

*Qeydiyyat kitabları ilə tanışlıq zamanı müəyyən olunmuşdur ki, müvafiq uçot-qeydiyyat kitabları qarışıq vəziyyətdədir. Rəsmiləşdirmə, qaytanlanma və möhürlənmə aparılmadığı müşahidə olunmuşdur. Eyni zamanda, müəssisədə yaşayan uşaqların şəxsi işlərində çatışmazlıqlar qeyd edilməlidir. Belə ki, uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsinin Uşaqların şəxsi işlərinin açılması və saxlanılması şərtlərini nəzərdə tutan 9-cu bəndinə riayət olunmadığı müşahidə olunmuşdur.*

*Yerləşdirməyə dair sənədlər də tam olmamışdır.*

*Məktəbəqədər yaşlı uşaqların yataq otaqlarında sıxlıq mövcud olmuşdur.*

*Yeməklərin miqdarının uşaqların sayına uyğun olmadığı, tibb hissəsinə yeni təyin olunmuş tibb bacısının təcrübəsizliyi, dərman preparatlarının müəssisəyə verilmədiyi, havalandırma sisteminin işə salınmadığı müşahidə olunmuşdur.*

*Müəssisədəhəkim, sosial işçi və ya psixoloqa, pedaqoji işçilərə, uşaqların asudə vaxtının səmərəli təşkilinə ehtiyac olduğu vurğulanmalıdır.*

Başçəkmənin yekununda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri, o cümlədən Uşaq Hüquqları Konvensiyası əsasında uşaqlarla, müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması, bu sahədə fəaliyyətlərinin və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

*Başçəkmənin nəticələri ilə bağlı məsələlər və tövsiyələrin icrası Şəki şəhər İcra Hakimiyyəti qarşısında qaldırılmışdır.*

---

[29]Ombudsmanın *MPM fəaliyyətinin səmərəliliyi üçün vətəndaş cəmiyyətindən və QHT-lərdən olan ekspertlərin də başçəkmələrdə iştirakı təmin olunur. Ombudsman Aparatı ilə UNICEF-in olkəmizdəki nümayəndəliyi arasında imzalanmış əməkdaşlığa dair fəaliyyət planında da bu qurumun nümayəndələrinin dövlət uşaq müəssisələrinə həyata keçirilən başçəkmələrdə iştirakı ölkə təcrübəsinin təkmilləşdirilməsinə mühüm töhfələr verir.*

*Nəticədə Uşaq evinin uçot-qeydiyyat kitabları qaydaya salınmış, uşaqların şəxsi işlərində olan çatışmazlıqlar aradan qaldırılmışdır. Əlavə maliyyə tələb edən məsələlərin həll edilməsi üçün Şəki şəhər İcra Hakimiyyəti tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə müraciət olunmuşdur.*

***Lənkəran şəhər O.Mirzəyev adına qarışıq tipli uşaq evinə*** başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraiti və rəftarın qiymətləndirilməsi, uşaqların qidalanması və dərman təchizatı, tibbi xidmət, istilik təchizatı və diqqət yetirilməli olan digər məsələlərin təmini vəziyyətinin araşdırılmasından ibarət olmuşdur.

Başçəkmə keçirilən zaman müəssisənin yeməkxanasına, ərzaq anbarına və digər otaqlara baxış keçirilmişdir. O.Mirzəyev adına qarışıq tipli uşaq evinin uşaqları ilə təklikdə və qrup halında söhbət aparılmış, onlara hüquq və vəzifələri izah olunmuşdur. Uşaqlar onlara qarşı rəftar, geyim, qidanın verilməsi ilə bağlı heç bir problemlərinin olmadığını bildirmişdirlər.

***Gəncə Şəhər İcra Hakimiyyətinin Gəncə Uşaq Evinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı uşaq evinin direktoru tərəfindən məlumat verilərək bildirilmişdir ki, Gəncə Uşaq Evi 1997-ci ildən valideyn himayəsindən məhrum olunmuş uşaqlar üçün fəaliyyət göstərir. Uşaq evində 3-18 yaş arası olan uşaqların yaşaması nəzərdə tutulub. Burada onların təlim-tərbiyəsi ilə 50 mütəxəssis məşğul olur. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2012-ci ildə müasir standartlara uyğun olaraq təmir olunan uşaq evi lazımi avadanlıqlarla təchiz edilmişdir.

Uşaq evində ingilis dili və kompüter kursları təşkil edilmiş, habelə rəsm dərnəkləri, rəqs ansamblı və uşaq klubu faəliyyət göstərir. Uşaq evi aidiyyəti üzrə Gəncə Şəhər İcra Hakimiyyətinin təsdiq etdiyi Nizamnaməyə əsasən fəaliyyət göstərir. Uşaq evində xidmətlər psixoloqlarvə sosial işçilər tərəfindən həyata keçirilir.

Müəssisə bir korpusdan ibarətdir və 3-6, 6-8, 9-11, 12-14 yaşlı 4 qrupa bölünmüş uşaqlar üçün tam şəraitli və təmirli, ayrıca vanna otağı olan, zəruri avadanlıqlarla (kondisioner, televizor) təchiz edilmiş 4 yataqxana mövcuddur. Bundan əlavə müəssisədə mətbəx, yeməkxana, akt zalı, istirahət və oxu zalı, psixoloq kabineti, rəssamlıq dərnəyi otağı, uşaq əyləncəsi üçün attraksion otağı, kompüter otağı, əl işləri və kitabxana zalı, camaşırxana, dərzixana, sanitar qovşağı və hamam fəaliyyət göstərir.

Müəssisədə yaş qrupları fərqi ilə qızlar və oğlanların yataqxanası ayrıdır. Hazırda Gəncə Uşaq Evində 28 qız,41 oğlan olmaqla 69 uşağın qaldığını bildirilmişdir.

Müəssisəyə baxış zamanı uşaq evinin sakinləri ilə görüş keçirilmiş, onların ümumi şəraitlərinin (geyim, otağın istiliyi, yataq ləvazimatlarının təmizliyi, əyani vəsaitlər vəs.) normal olması, qrupdakı uşaqların məktəbəqədər hazırlıq dərnəyində məşğul olduqları müşahidə edilmişdir.

Müəssisədə bütün yaş qruplarının yataq otaqlarına, vanna otaqlarına, kompüter otaqlarına, istirahət otaqlarına, psixoloq otağına, rəsm-yaradıcılıq otağına, mətbəxə, ərzaq anbarına, tibb otağına, ümumi əraziyə baxış keçirilmişdir.Baxış zamanı uşaq evinin yataqxanalarının, psixoloq otağının, rəssamlıq dərnəyinin, kompüter otağının, mətbəxin, yeməkxananın, anbarın və ümumilikdə müəssisənin şəraitli, təmiz və səliqəli olması, hər otağın və xidməti otaqların (anbarların, mətbəxin) lazımlı avadanlıqlarla təchiz edildiyimüəyyən edilmişdir.

Verilmiş məlumata əsasən uşağın səhhəti nəzərə alınmaqla, onun fərdi qida qəbul etmək tələbatı tibb işçisi tərəfindən qiymətləndirildikdən sonra o, müvafiq qida ilə təmin edilir. Həmçinin müəssisədəki uşaqlar geyim, ayaqqabı və yumşaq inventarlarla Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 yanvar tarixli 15 nömrəli qərarı ilə təsdiq edilmiş "Bütün tipdən olan internat məktəblərdə, əqli və ya fiziki cəhətdən qüsurlu uşaqlar üçün internat məktəblərdə, uşaq evlərində, yetim və valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəblərdə tərbiyə olunan uşaq və yeniyetmələrin geyim, ayaqqabı, yumşaq inventarlarla təmin olunması norması"na uyğun təmin edilir.

*Uşaq evinin ərazisinə baxış zamanı uşaqlar üçün yeni korpusun tikinti işlərinə 2018-ci ilin dekabrında başlanıldığı, burada iki yataq otağı, qış idman zalı, əmək və istirahət otaqları, yeməkxana və camaşırxana nəzərdə tutulduğu, yeni korpusun yaxın vaxtlarda istifadəyə veriləcəyi bildirilmişdir.*

Uşaq evinin sakinlərinin ərazi üzrə tibb müəssisəsində uçota götürüldüyü, həmçinin hər bir uşaq barəsində fərdi tibbi kitabçalar tərtib edildiyi müəyyən edilmişdir.

*Uşaq evlərinin uçot-qeydiyyat kitablarında, uşaqların şəxsi işlərindəki nöqsanlar, bəzi hallarda uşaq evlərində mövcud olan sıxlıq, qidalanmada, dərman preparatlarının təchizatında mövcud olan çatışmazlıqlar qarşılaşdığımız əsas problemlərdir. Uşaq evləri üçün ayrılmış qida norması, tibbi ləvazimatlar, habelə dərman preparatları müəssisənin tutumuna uyğun ayrıldığından, uşaq sayının normadan çox olduğu hallarda rəftar, saxlama şəraiti ilə yanaşı, qidalanma və tibbi yardımın təşkilində də problemlər yaranır.*

# BÖLMƏ 3.

# HÜQUQİ TƏHLİL

Müvəkkilin MPM fəaliyyətinin əsas istiqamətlərindən biri də həyata keçirilmiş preventiv başçəkmələr və hüquqi maarifləndirmə tədbirləri zamanı əldə olunmuş məlumatların hüquqi təhlilidir.

Hüquqi təhlil prosesində həyata keçirilən fəaliyyət, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatlar, habelə tövsiyələrin, qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili və ümumiləşdirilməsi aparılır.

Bu fəaliyyət müvafiq orqanlara ünvanlanan təklif və tövsiyələrin, ərizə, şikayət və təkliflərin, həmçinin cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlama yerlərinə, qanunsuz miqrantların saxlanılma mərkəzlərinə, hərbi hissələrə, uşaqlar, pensiya yaşına çatmış, habelə əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinə, səhiyyə və təhsil müəssisələrinə başçəkmələrin, müvafiq müəssisələrdə aparılmış qəbul və araşdırmalar zamanı aşkar edilmiş müxtəlif halların, problem və çətinliklərinümumiləşdirilməsi və təhlili əsasında həyata keçirilmişdir.

Hüquqi təhlil prosesində dövlət orqanlarının və vəzifəli şəxslərin rəsmi cavablarından, dövlət qurumlarına təqdim edilmiş təklif və tövsiyələrdən, insan hüquqları üzrə milli və beynəlxalq seminar və konfransların materiallarından, vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində görülmüş işlərdən, kütləvi informasiya vasitələrində verilmiş məlumatlardanistifadə olunmuşdur.

Fakultativ Protokolun 19-cu maddəsində MPM-in hüquqi təhlil və qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi hüququ birbaşa təsbit olunmuşdur.

Ombudsmanın 24 saat fəaliyyət göstərən Qaynar Xəttinə daxil olmuş müraciətlərin də təhlili bu fəaliyyət üçün əsas mənbələrdən olmuşdur.

***Qanunvericliyin təkmilləşdirilməsi ilə bağlı.***Məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmələrin fəaliyyətində şəffaflığın və məhkəmə icraatının səmərəliliyinin artırılması, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsinin təmin olunması, süründürməçiliyin və bu kimi digər mənfi halların aradan qaldırılması üzrə tədbirlərin gücləndirilməsi baxımından "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı qanunvericiliyinvə təcrübənin təkmilləşdirilməsi baxımından olduqca səmərəli olmuşdur.

Fərmandan irəli gələntövsiyələrin həyata keçirilməsi məqsədilə ölkədə intensiv iş aparılmış, statistik məlumatlar təhlil edilərək ümumiləşdirilmiş, habelə qabaqcıl beynəlxalq təcrübə öyrənilmişdir.

Bu fəaliyyət çərçivəsində "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa, Mülki-Prosessual, İnzibati-Prosessual və Cinayət-Prosessual məcəllələrə dəyişikliklərin edilməsini nəzərdə tutan qanunlar, habelə həmin qanunların tətbiqini təmin edən müvafiq sərəncam və fərmanlar qəbul edilmişdir.

Bu normativ-hüquqi aktlar paketinəcəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, mülki prosessual qanunvericiliyin kompleks şəkildə təhlili və təkmilləşdirilməsi, Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırması üçün yeni mexanizmlərin təsbit edilməsi, məhkəmə ekspertizasının təyin edilməsi və keçirilməsi ilə bağlı müddəaların, habelə məhkəmə qərarlarının icrası mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı qanunvericilik aktlarının layihələri daxil olmuşdur.

Məhkəmə, cinayət təqibi və məhkəmə qərarlarının icrası orqanlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının, o cümlədən "Elektron məhkəmə", "Elektron icra" sistemlərinin tətbiqinin genişləndirilməsinə yönəlmiş qanunvericilik və praktiki tədbirlər də həyata keçirilməkdədir.

"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə Ali Məhkəmənin vahid məhkəmə təcrübəsi formalaşdırmaq vəzifəsinin və həmin vəzifənin icra olunması mexanizminin təsbit edilməsi, məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyinin təmin edilməsi məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün ciddi tədbirlər görülməsi, ədalət mühakiməsinin keyfiyyətinin artırılması məqsədilə məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi sahəsində fəaliyyətini gücləndirilməsilə əlaqədar müddəalar əksini tapmışdır.

*Müvəkkil hesab edir ki,vahid məhkəmə təcrübəsinin inkişaf etdirilməsi məhkəmələrin həll etdikləri mübahisələrə qanunun eyni cür və doğru tətbiqi baxımından mühüm əhəmiyyətə malikdir.*

Məhkəmələrin fəaliyyətinin daha optimal şəkildə qurulması, ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi və məhkəmələrdə işlərə baxılma müddətlərinin qısaldılması məqsədilə Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayının 200 nəfər artırılması da Fərmanda təsbit olunmuş mühüm məsələlərdən biridir.

Müvəkkil hakimlərinin sayının artırılmasının və bu prosesin davam etməsinin vacibliyini qeyd edir.

Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycanla bağlı qərarlarının təhlili, qərarlarının ölkə təcrübəsinə implementasiyası,nəticə olaraq isəvahid məhkəmə təcrübəsinin formalaşdırılması və müvafiq plenum qərarının qəbul olunması insan hüquqları sahəsində preventiv və effektiv fəaliyyətin həyata keçirilməsi işinin daha da sürətlənməsinə imkan verər.

Qeyd olunanları nəzərə alaraq, Müvəkkil işgəncə və pis rəftar halları ilə bağlı vahid məhkəmə təcrübəsi formalaşdırmaq istiqamətində addımların atılmasını təklif edir.

Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikası Qanununun 15.1.3-cü maddəsi tutulmuş və ya həbs edilmiş şəxslərin öz hüquq və vəzifələri, Daxili intizam qaydaları və s. ilə yazılı şəkildə onlara aydın olan dildə tanış olmaq hüququnu təsbit edir. Müvəkkil qanunvericiliyə oxuma-yazma qabiliyyəti olmayan şəxslər üçün şifahi məlumatlanma hüququnu nəzərdə tutan düzəlişin edilməsini zəruri hesab edir.

Müvəkkil, həmçinin beynəlxalq təcrübədə qanunyaratma tendensiyalarını və həssas əhali qrupları ilə bağlı etik məqamları nəzərə alaraq, ölkə qanunvericiliyində əliliyi olan şəxslərə münasibətdə insan ləyaqətini alçaldan (lal, kor, kar, şikəst və s.) söz və ifadələrdən istifadənin hələ də qaldığını xatırladaraq, bu kateqoriya sözlərin qanunvericilikdən çıxarılması, uyğun terminologiyadan istifadə edilməsini tövsiyə edir.

***KİV-də verilmiş məlumatların ümumiləşdirilmiş təhlili.*** İl ərzində media orqanlarında, o cümlədən son dövrlər geniş yayılmış və operativ reaksiya tələb edən sosial şəbəkələrdə saxlanılan şəxslərin hüquqları ilə bağlı çoxsaylı məlumatlar dərc olunmuş, bu məlumatlar MPQ tərəfindən gündəlik rejimdə təhlil edilərək lazımi araşdırmalar aparılmışdır.

*Sosial şəbəkələrdə Penitensiar Xidmətin Həbsxanasında cəza çəkən A.H.-nın fiziki təzyiqə məruz qaldığı, saxlanıldığı kameradan zorla çıxarılaraq naməlum istiqamətdə aparıldığı barədə məlumat yayılmışdır. Məlumatın həmin müəssisədə cəza çəkən T.B. tərəfindən ailə üzvləri ilə telefon danışığında bildirildiyi qeyd olunmuşdur.Müraciət üzrə dərhal Ombudsmanın Milli Preventiv Qrupu tərəfindən Penitensiar Xidmət və Həbsxana rəhbərliyi ilə əlaqə saxlanılmış, qeyd olunan məsələ araşdırılmışdır. A.H.-nın Qaradağ rayon məhkəməsinin qərarından verdiyi apellyasiya şikayəti ilə bağlı Bakı İstintaq Təcridxanasına köçürüldüyü*

*məlum olmuşdur. Vəkil Fariz Namazlının eyni məzmunlu müraciəti də cavablandırılmış və vəkilə ətraflı məlumatverilmişdir*[30].

*İnternet saytlarında İnzibati Həbs Olunanların Saxlama Mərkəzində (İHOSM) saxlanılan M.T., İ.N., Q.Ə. saxlanma şəraiti ilə bağlı ailə üzvlərinin şikayətləri dərc olunmuş və onlar həbs olunmuş yaxınlarının müəssisədə gəzinti, qidalanma, yataq dəstləri ilə bağlı narazılıqlarını bildirmişlər*[31] .

*Müraciətlər dərhal Ombudsmanın Milli Preventiv Qrupu tərəfindən araşdırılmış, nəticədə müraciətlər təmin edilmiş, yataq dəstləri dəyişilmiş, gəzinti və telefon danışıqları ilə bağlı çətinliyin olmadığı, hər hansı bir müraciət olduğu halda qanunvericiliyə uyğun həll ediləcəyi bildirilmişdir.*

Nardaran qəsəbəsində baş vermiş cinayət hadisəsi ilə əlaqədar məhkum edilmiş şəxslərdən olan və Penitensiar Xidmətin Müalicə Müəssisəsində saxlanılan ağır yataq xəstəsi Ə.B.-nın səhhətinin get-gedə pisləşməsi ilə bağlıyayılmış məlumatlar üzrə Ombudsman Azərbaycan Respublikasının Ali Məhkəməsinə müraciət edərək, həmin şəxsin kassasiya şikayətinə baxılarkən onun barəsində azadlıqdan məhrumetmə cəzasına alternativ cəza növünün tətbiq olunmasında yardımçı olunmasını xahiş etmişdir. Nəticə olaraq isə, adı çəkilən şəxs ağır xəstəliyi nəzərə alınmaqla məhkəmə tərəfindən cəzasının çəkilməmiş hissəsindən azad olunmuşdur[32].

İnternet səhifələrində və sosial şəbəkələrdə blogger Mehman Hüseynovun gecə saatlarında polis tərəfindən saxlanılması, xidməti avtomobilə mindiriləərək şəhərdən kənara aparılması və pis rəftara məruz qalması ilə bağlı məlumatların yayılmasından sonra məsələnin araşdırılması ilə bağlı Azərbaycan Respublikasının Daxili İşlər nazirinə və Baş Prokurora müraciət ünvanlanmışdır[33].

Ombudsman mətbuatda gedən və ictimaiyyəti narahat edən zorakılıq, intihar və s. kimi hallara dair məlumatlara dərhal reaksiya verməkləbu məsələlərin obyektiv araşdırılması ilə bağlı müvafiq qurumlara müraciətlər ünvanlamış, həmin məsələlər diqqətdə saxlanılmışdır.

***Penitensiar Xidmətin fəaliyyəti ilə bağlı.***

Həyata keçirilən başçəkmələrdə görüşülən şəxslərlə söhbət zamanı, habelə daxil olan ərizələrin təhlili prosesində ***Penitensiar Xidmətin***

---

[30]http://0s.o53xo.mf5gczdmnfys433sm4.cmle.ru/a/abbas-h%C3%BCseynov-haqq%C4%B1nda-yeni-cinay%C9%99t-i%C5%9Fi-ba%C5%9Flan%C4%B1b-/29710610.html

[31]http://aws-www.meydan.tv/az/article/seherler-bir-dilim-corek-ve-10-qram-yag-verirler/?ref=search

[32]https://apa.az/az/hadise/nardaran-hadiseleri-ile-bagli-hebs-edilen-sexs-azadliga-buraxilib-542073

[33]https://www.bbc.com/azeri/azerbaijan-50805315

***əməkdaşlarınınsaxlanılan şəxslərlə rəftarı*** ilə bağlı şikayət xarakterli müraciətlər də diqqətdə saxlanılmışdır.Müəssisələrə daxil olan yeni məhkumlara xüsusi vasitələrin tətbiqi, axtarış-baxış zamanı ləyaqəti alçaldan rəftara məruz qalma saxlanılan şəxslərin əsas şikayətlərindən olmuşdur.

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin təqdim etdiyi məlumatlara[34] əsasən illər üzrə xüsusi vasitələrin tətbiqi ilə bağlı statistik məlumatlar aşağıdakı kimidir.

**İllər üzrə xüsusi vasitələrin tətbiq edilmə halları:**




**Tətbiq edilən xüsusi vasitələrin statistikası aşağıdakı kimidir:**
- rezin dəyənəyin tətbiqi 2017 – 106 fakt, 2018 – 38 fakt, 2019 – 48 fakt
- əl qandalı 2019 – 64 fakt
- gözyaşardıcı qaz 2019 – 11 fakt

Xüsusi vasitələrin tətbiqi ilə bağlı tərəfimizdən müvafiq qeydiyyat jurnalları öyrənilərkən qeydlərin növünün və tarixinin dəyişdirildiyi, bu tədbirlərin qərar və aktlarla əsaslandırılmasına dair çatışmazlıqların olduğu müəyyən edilmişdir.

Axtarış-baxış tədbirləri zamanı hər hansı hərəkətə etiraz edən şəxsə rezin dəyənəyin tətbiqi, daha sonra cərimə təcridxanasına salınması da müraciətlərdə yer almış məsələlərdəndir. Qeyd etmək lazımdır ki, BMT-nin

[34]Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Ombudsmanın ünvanına daxil olan 17/2-17546 saylı, 04 dekabr 2019-cu il tarixli məktubunda əks etdirilmiş məlumatlar 2019-cu ilin ilk 11 ayını əhatə edir.

Məhbuslarla minimal standart davranış qaydaları intizam xətalarına görə cəza qismində xüsusi vasitələrin tətbiqini qadağan edir. Azərbaycan Respublikasının penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları haqqında Təlimat da xüsusi vasitələrin yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində tətbiqini nəzərdə tutur. Qeyd edilənləri nəzərə alaraq, xidmət əməkdaşlarının xüsusi vasitələrdən istifadə edilməsi qaydaları ilə bağlı mütəmadi olaraq təlimləndirilməsinə ehtiyac var.

Penitensiar Xidmətin təqdim etdiyi məlumatlara əsasən son illərdə həbs edilmiş şəxslər və məhkumlar tərəfindən törədilən rejim pozuntularının sayı azalmışdır.

**Rejim pozuntularının dinamikası:**




Son illərdə penitensiar müəssisələrdə rejim pozuntularının azalması cərimə təcridxanasına keçirilmə növündə intizam tənbehi tədbirlərinin də sayının azalması ilə müşayiət olunmaqdadır.

Lakin təhlillər göstərir ki, daxili intizam qaydalarını pozan şəxslər barəsində tətbiq edilən tənbeh tədbirləri içərisində cərimə təcridxanasında yerləşdirmə çoxluq təşkil edir.

Beynəlxalq təcrübələrə əsaslanaraq və qanunvericiliyin verdiyi imkanlardan istifadə edərək rejim pozuntularına görə cərimə təcridxanasına keçirilmə əvəzinə inzibati tənbeh kimi xəbərdarlıq və ya töhmətin daha çox tətbiq edilməsi tövsiyə edilir.

Həmçinin, cinayət törətmiş şəxslərin islah olunması və cəmiyyətə yenidən inteqrasiyasına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə ehtiyac var. İslah işini gücləndirməklə vaxtından əvvəl şərti azad olunmağa və ya daha yüngül rejimli müəssisəyə keçirməklə qarşıya qoyulmuş məqsədlərə nail olmaq mümkündür.

Məhkumlarla maarifləndirmə tədbirləri keçirməklə onların islah olunmasına nail olmaq, qanunvericiliyin tələblərinə riayət edən və nümunəvi davranış nümayiş etdirən şəxslərin vaxtından əvvəl azad edilməkimkanına malik olacaqlarına inam təmin edilməlidir. Bu tədbirlərin bütün məhkumlara şamil edilməsi üçün ardıcıl tədbirlərin görülməsi ilə yanaşı, islah işi ilə bilavasitə məşğul olan əməkdaşların sayının məhkumların sayına uyğun olaraq artırılması da məqsədəuyğundur. Məhkumların islah prosesinə diqqətin artırılması və aparılan tərbiyə işinin səmərəliliyinin artırılması məqsədilə işçi heyətin məhkum və həbs edilmiş şəxslərin sayına mütənasibliyinin təmin edilməsinə ehtiyac var.

Cəzaçəkmə müəssisələrində istehsal sahələrinin yaradılması və azadlıqdan məhrum edilmiş şəxslərin belə sahələrdə əməyə cəlb edilməsi əhəmiyyətlidir. Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi" haqqında 10 fevral 2017-ci il tarixli Sərəncamının tələblərindən biri də azadlıqdan məhrum edilmiş şəxslərin əməyə cəlb edilməsidir.

Müşahidələr göstərir ki, bu sahədə müəyyən işlər görülsə də, müəssisələrdə yeni istehsalat sahələrinin yaradılmasına, daha çox məhkumun ödənişli əməyə cəlb edilməsi işinin genişləndirilməsinə ehtiyac var.

Bəzi istisnaları çıxmaq şərti ilə Penitensiar Xidmətin müəssisələrində ***saxlanma şəraiti*** ilə bağlı əsas problem sıxlıqla bağlıdır. İstintaq təcridxanalarında saxlanılan şəxslərin saxlandığı kameralarda sıxlıq müşahidə olunur.

*CPT də öz tövsiyələrində qeyd edir ki, sıxlığın olması müəssisənin daxilindəki bütün xidmətlərə və fəaliyyətlərə mənfi təsir göstərir. Həddən artıq insanın fiziki mövcudluğu qeyri-insani və ya ləyaqəti alçaldan rəftara da şərait yarada bilər.*

İstintaq təcridxanalarında sıxlığa səbəb olan məqamlardan biri təqsirləndirilən şəxslərin cinayət işləri üzrə istintaq hərəkətlərinin uzun müddət davam etdirilməsidir. Ombudsman belə müəssisələrdəki sıxlığın azalması baxımındaniş üzrə istintaqınvaxtında yekunlaşdırılmasının əhəmiyyətli olduğunu hesab edir.

İstintaq təcridxanalarına həyata keçirilən başçəkmələr zamanı həbs qətimkan tədbiri seçilmiş şəxslərin sayının çox olduğu, bunun da sıxlığa

səbəb olduğu müşahidə edilir. Ombudsman sıxılığın azalması baxımından qətimkan tədbiri kimi həbsə alternativlərin seçilməsini məqsədəmüvafiq hesab edir.

Saxlanma şəraiti ilə bağlı Penitensiar Xidmətin bəzi müəssisələrində şəraitin qənaətbəxş olmaması da çətinlik yaradır.

Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramında da penitensiar müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, məhkum və həbs edilmiş şəxslərin saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması məsələsi qeyd edilmişdir. Ombudsman bu müəssisələrdə saxlanma şəraitinin yaxşılaşdırılması üçün Dövlət Proqramının tam şəkildə və ardıcıl icrasını, beynəlxalq standartlara uyğun yeni müəssisələrin tikilməsinin sürətləndirilməsini zəruri hesab edir.

Penitensiar müəssisələrdə verilən qida təminatının az olması, verilən yeməklərin miqdarının təsdiq edilmiş yemək menyusuna uyğun olmaması, arpa və ya buğda yarmasından hazırlanan yeməklərə üstünlük verilməsi, məhkumlarının çoxunun bu yeməkləri geri qaytarması, ağ çörəyə ehtiyacın olması damüşahidə edilmişdir. Ombudsman qida rasionunun Nazirlər Kabinetinin müəyyən etdiyi normalara uyğunlaşdırılmasını, qida təminatının yaxşılaşdırılmasını və keyfiyyətinin artırılmasını zəruri hesab edir.

Penitensiar Xidmətin müəssisələrində saxlanılan şəxslərin sağlamlığının qorunması hüququnun reallaşdırılması, ümumilikdə ***tibbi xidmətin təşkili*** ilə bağlı bəzi çətinliklər mövcuddur.

Əsas problemlərdən biri ruhi xəstəliklərdən əziyyət çəkən və ya cəza çəkdiyi dövrdə psixi sağlamlıq vəziyyətlərində ciddi dəyişikliklər baş vermiş şəxslərlə bağlıdır. Həmin şəxslərin öz xahişi əsasında və ya müəssisə tərəfindən təcrid olunaraq kamera şəraitində saxlanılması psixi sağlamlıq vəziyyətinin daha da ağırlaşması ilə nəticələnir.

Penitensiar Xidmət tərəfindən təqdim edilən məlumatlara əsasən, son illərdə stasionar qeydiyyatda olan ruhi pozuntulu şəxslərin sayında artım müşahidə edilir, lakin stasionar müalicə olunanların sayı ilbəil azalır. Bu nəticənin əsasən yerlərdə psixiatrik yardımın təşkilində səmərəliliyin artması və müəssisələrə dəstəkləyici müalicənin aparılması üçün preparatların ayrılması hesabına əldə olunduğu qeyd edilmişdir. Ombudsman cəzaçəkmə müəssisələrində psixiatrik yardımın təşkilinin səmərəliliyinin artırılmasını məqsədəmüvafiq hesab edir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 2011-ci il 29 noyabr tarixli 4 nömrəli Qərarı ilə "Cəzanın çəkilməsinə mane olan ağır xəstəliklərə düçar olmuş məhkumların tibbi şəhadətləndirilməsi Qaydaları"na əsasən məhkumlar penitensiar müəssisələrin tibb xidmətinin təqriri əsasında müəssisə müdiriyyətinin komissiyaya təqdimatı və ya

məhkəmədən daxil olmuş müvafiq qərar əsasında komissiya tərəfindən şəhadətləndirilirlər.

Penitensiar Xidmətdən daxil olan məlumatlara əsasən, əvvəlki illə müqayisədə 2019-cu ildə Xüsusi Həkim Ekspert Komissiyası (XHEK) fəaliyyətini intensivləşdirmiş, daha çox məhkumun məsələsi müzakirəyə çıxarılmışdır. 2019-cu ilin 11 ayı ərzində 19 məhkumun məsələsinə XHEK tərəfindən baxılmış və 2018-ci illə müqayisədə 2 dəfə çox məhkum (cəmi 12 nəfər) azadlığa buraxılmışdır. *Müşahidələr göstərir ki, ümumilikdə bu sahədə təcrübə effektiv deyildir, müvafiq sahədə tədbirlərə, həmin şəxslərin cəzaçəkmə müəssisələrində deyil, ixtisaslaşmış psixiatrik stasionarlarda yerləşdirilməsi ilə bağlı daha effektiv mexanizmlərin tətbiqinə ehtiyac var.*

Məhkumların, onların ailə üzvlərinin və ya müdafiəçilərinin Ombudsmana ünvanlanan müraciətlərində hərtərəfli müayinə və müalicə işinin təşkil olunmasında, Müalicə Müəssisəsinə göndərilmə və bəzən də əlillik dərəcəsinin müəyyən edilməsi üçün köməklik göstərilməsi xahiş olunur. Müraciətlərdə əks etdirilmiş məsələlər Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi qarşısında qaldırılmış və bu müraciətlərin böyük əksəriyyəti müsbət həll edilmişdir.

CPT tövsiyələrində qeyd edilir ki, *məhkumlar istənilən vaxt həkimə müraciət etmək imkanına malik olmalıdırlar. Tibbi xidmət elə təşkil edilməlidir ki, həkimlə məsləhətləşmək, konfidensial qəbul barədə xahişlər lüzumsuz yubanmalar olmadan yerinə yetirilsin*[35].

*Müvəkkil saxlanılan şəxslərin tibbi yardımla bağlı müraciətlərinə dərhal və həssas yanaşılmasının əhəmiyyətini vurğulayır.*

***Daxili İşlər Nazirliyinin müəssisələri ilə bağlı.***

***Saxlanma şəraiti*** ilə bağlı bəzi çatışmazlıqlar qalmaqda davam edir. Məsələn, Zaqatala RPŞ MSY-də istilik sistemləri ilə bağlı çatışmazlıq qeyd edilə bilər.

*Müvəkkil hesab edir ki, bu sahədə atılan kompleks addımlar davam etdirilməli, saxlanma şəraiti ilə bağlı standartlar milli qanunvericiklə yanaşı, beynəlxalq tələblərə də cavab verməlidir.*

Başçəkmələr zamanı müşahidə edilən spesifik çatışmazlıqlardan biri də əvvəllər məhkum olunmuş şəxslərlə məhkumluğu olmamış şəxslərin bir yerdə saxlanılması olmuşdur. MPQ-nin üzvləri bu tip halları Siyəzən RPŞ və Tovuz RPŞ-də həyata keçirdikləri başçəkmələrdə müşahidə etmişlər.

Eyni cinayət hadisəsi ilə bağlı saxlanılmış 3 nəfərin eyni kamerada saxlanılması Şəmkir RPŞ MSY-də müəyyən edilmişdir.

---

[35]CPT-nin 2-ci Ümumi Hesabatı, CPT/Inf(92)3

*Qeyd olunanları nəzərə alaraq, Müvəkkil DİN orqanlarının fəaliyyətində hüquqi maarifləndirmə işinin daha da gücləndirilməsini vacib hesab edir.*

DİN-in Bakı Şəhər Baş Polis İdarəsinin Yetkinlik yaşına çatmayanların müvəqqəti təcridetmə məntəqəsinəMPQ üzvləri tərəfindən həyata keçirilmiş başçəkmə zamanı müəssisədə təyinatına uyğun olmayaraq müxtəlif yaş qruplarından olan, dilənçiliklə məşğul olduqları bildirilən şəxslərin saxlanıldığı müəyyən edilmişdir. Bundan başqa saxlanılan şəxslərlə söhbət zamanı onlardan bir neçəsi 3 gündən artıq həmin müəssisədə saxlanıldıqlarını bildirmiş, o cümlədən saxlanma şəraitindən və qidalanmadan narazılıqlarını bildirmişlər. Həmçinin saxlama yerinə baxış keçirilən zaman çarpayı sayının saxlanılan şəxslərin sayından az olduğu, o cümlədən çarpayılarda müvafiq yataq dəstlərinin olmadığı aşkar edilmişdir. Başçəkmənin nəticələrinə dair Ombudsman tərəfindən DİN-ə müraciət olunmuş vəməsələ həllini tapmışdır.

***Saxlanılan şəxslərin hüquqi yardım almaq və vəkillə görüşmək hüququ*** *həbs edilmiş şəxslərlə pis rəftara qarşı 3 əsas təminatdan biridir və müvafiq hüquq sistemində azadlıqdan məhrumetmənin necə adlandırılmasından asılı olmayaraq (saxlanma, tutulma və s.) həmin təminatlar həbsin ilk anlarından tətbiq edilməlidir.*[36]

*Vəkillə görüşmək hüququ təkcə cinayət törətməkdə şübhəli bilinən şəxslərə deyil, məsələn, qanun əsasında polis məntəqəsinə getməyə və müəyyən müddətə orada qalmağa borclu olan istənilən şəxsə verilməlidir.*[37]

Müvəkkil öz səalahiyyətləri daxilində vəkillərin fəaliyyətinə dəstək verir. *Müvəkkil ölkədə vəkillik institunun inkişafını dəstəkləyir və qeyd edilən dövr ərzində bu sahədə görülən işləri alqışlayır.* Vətəndaşların hüquqlarının qorunmasında vəkillərin rolu əhəmiyyətlidir. Bu baxımdan vəkillərin sayının artırılması istiqamətində atılan addımlar, vəkilliyə qəbul üçün keçirilən imtahanlar müsbət hal kimi qiymətləndirilə bilər. Müvəkkil ölkədə vəkillərin sayının davamlıartırılmasını vacib hesab edir.

Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də vəkillərin hüquqlarını müdafiə etdikləri şəxslərlə görüşmək hüququnun həyata keçirilməsində yarana biləcək çətinliklərin qarşısının alınmasında Ombudsmanın İşgəncələrlə bağlı Qaynar Xətti effektiv mexanizm olaraq fəaliyyət göstərmişdir.

*Məsələn, vəkil Elçin Sadıqov Qaynar Xəttə müraciət edərək, hüquqlarını müdafiə etdiyi T. M. və Ə.S.-nin Salyan Rayon Polis Şöbəsində saxlandığını, həmin şəxslərin vəkili olaraq 4 saatdan artıq müddətdə order təqdim etməsinə baxmayaraq polis şöbəsinə daxil olmağına və hüquqlarını müdafiə*

[36]CPT, GR 2, 36
[37]CPT, GR 12, 41

*etdiyi şəxslə görüşünə imkan verilmədiyini bildirmiş və müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Müraciət üzrə dərhal Ombudsmanın Milli Preventiv Qrupu tərəfindən Salyan Rayon Polis Şöbəsi ilə əlaqə saxlanılmış və müraciət üzrə saxlanmanın əsasları araşdırılmışdır. Nəticə olaraq isə, vəkilin hüquqlarını müdafiə etdiyi şəxslərlə görüşü təmin edilmişdir*[38].

*Vəkil Xavər İsmayılova Qaynar Xəttə müraciət edərək hüquqlarını müdafiə etdiyi, Yasamal Rayon Polis İdarəsinin Müvəqqəti Saxlama Yerində saxlanılan Q.X. ilə vəkil vəsiqəsini təqdim etməsinə baxmayaraq görüşünə imkan verilmədiyini bildirmiş və müvafiq köməklik göstərilməsini xahiş etmişdir.*

*Oxşar situasiya B.M.-in DİN-in İHOSM-də saxlandığı müddətdə də müşahidə edilmiş, MPQ-nin müdaxiləsindən sonra vəkillə görüş hüququ təmin edilmişdir*[39].

Universal Dövri İcmal üzrə ölkəyə verilən tövsiyələr içərisində vəkillərin fəaliyyətinə əsassız müdaxiləni dayandırmaq və Azərbaycan Vəkillər Kollegiyasının səmərəli şəkildə müstəqil fəaliyyətini təmin etmək[40] məsələləri də yer almışdır.

*Ehtimal olunan işgəncə və pis rəftar hallarının qarşısının alınması baxımından vəkillərin hüquqlarını müdafiə etdiyi şəxslərlə maneəsiz şəkildə görüş imkanının yaradılması, əsassız müdaxilələrin dayandırılması vacibdir.*

*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü Orxan Kəngərlinin Binəqədi rayon Polis İdarəsinin 4-cü Polis Şöbəsində vəkil olduğu bilindiyi halda əsassız olaraq hüquqları məhdudlaşdırılaraq müdafiə etdiyi şəxsin də saxlanıldığı müvəqqəti saxlama yerinə salınması və pis rəftara məruz qalması ilə bağlı internetdə məlumatlar yayılmışdır.*[41] *Ombudsman məsələni araşdırmış və Daxili İşlər nazirinə də müraciət etmişdir.*

*Nəticədə yol verdikləri nöqsanlara görə Polis Şöbəsinin rəis müavini daxili işlər orqanlarında xidmətdən xaric edilmiş, təhqiqatçı tutduğu vəzifədən azad olunmuş, Polis Şöbəsinin rəisinə "şiddətli töhmət" elan olunmuş, digər 3 nəfər əməkdaşa müxtəlif intizam tənbehləri tətbiq edilmişdir.*

Ombudsman vəkillərin işinə maneçilik hallarının dərhal qarşısının alınmasını və müvafiq pozuntulara yol vermiş şəxslərlə bağlı qanunvericiliyin tələblərinə uyğun addımlar atılmasınızəruri hesab edir.

---

[38]https://d9mc3ts4czbpr.cloudfront.006Eet/az/site/news/32365/

[39]https://www.bbc.com/azeri/azerbaijan-47793346

[40]Report of the Working Group on the Universal Periodic Review, Rec. no 141.76 http://unazerbaijan.org/wp-content/uploads/2018/12/Universal-Periodic-Review_-Azerbaijan-2018.pdf

[41]https://report.az/hadise/vekil-orxan-kengerlinin-sikayeti-esasinda-arasdirma-aparilir/

***Saxlanılan şəxslərinməlumat vermək hüququ.*** CPT polis tərəfindən azadlıqdan məhrum edilmiş şəxslərin həbsi barədə özünün seçdiyi üçüncü şəxslərə məlumat vermək hüququna saxlanılan şəxslər üçün əsas təminatlardan biri kimi xüsusi əhəmiyyət verir. CPT-nin qənaətinə görə, bu hüquq müvafiq hüquq sistemində azadlıqdan məhrumetmənin necə adlandırılmasından asılı olmayaraq (saxlanma, tutulma və.s) həmin təminatlar həbsin ilk anlarından təmin edilməlidir.

Polis tərəfindən həbsə alınmış şəxsin həbsi barədə ailə üzvlərinə və ya yaxınlarınaməlumat vermək hüququ[42], prinsipcə, həbsin lap başlanğıcından təmin edilməlidir. *Əlbəttə, CPT etiraf edir ki, müəyyən istisna hallarda bu hüquq polis araşdırmasının qanuni maraqlarının müdafiəsi üçün məhdudlaşdırıla bilər*[43]. Lakin belə istisna hallar dəqiq müəyyən edilməli və zaman baxımından ciddi məhdudlaşdırılmalıdır; onlardan istifadə isə müvafiq təminatlarla müşayiət olunmalıdır.

Məsələn, həbsə alınma barədə məlumat vermənin gecikdirilməsi hər bir halda qeydə alınmalı və səbəbləri göstərilməli və bu qərar işə aidiyyəti olmayan yuxarı polis əməkdaşı və ya prokuror tərəfindən təsdiq edilməlidir.

Lakin təcrübədə hələ də bu təminatın həyata keçirilməsində bəzi problemlərə rast gəlinir.

*Ombudsmanın İşgəncələrlə bağlı Qaynar Xəttinə Türkiyənin İstanbul şəhərində saxlanılaraq Bakıya gətirilmiş A.C.-nin yerinin müəyyən edilməsində müvafiq köməklik göstərilməsinə dair həmin şəxsin anasının müraciəti üzrə dərhal Ombudsmanın Milli Preventiv Qrupu tərəfindən DİN BMCMİ ilə əlaqə saxlanılmış və müraciət araşdırılmışdır. Nəticə olaraq isə, adıçəkilən şəxsin Bakı İstintaq Təcridxanasında saxlanıldığı müəyyən edilmiş və müraciət müəllifinə məlumat verilmişdir*[44].

MSY-də saxlanılan şəxslərin ***tibbi müayinəsi*** pis rəftara qarşı əsas təminatlardan biridir. Ölkə qanunvericiliyi həbs edilmiş şəxslərin həbs yerlərinə qəbul edildiyi andan 24 saat ərzində həbs yerinin tibb işçiləri tərəfindən tibbi müayinədən keçirilməsini nəzərdə tutur. Tibbi müayinə həbs edilmiş şəxsin özünün seçdiyi digər tibb mütəxəssisləri tərəfindən də həyata keçirilə bilər.

Saxlanılan şəxslərin tibbi xidmətə əlçatanlığı məsələsi Ombudsmanın diqqət mərkəzindədir. Belə ki, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə həyata keçirilən başçəkmələrdə diqqət edilən məsələlərdən biri də şəxslərin tibbi təminatının monitorinqidir. Qeyd edilməlidir ki, həyata keçirilən başçəkmələr zamanı Ombudsmanın həkim üzvü də iştirak edir.

---

[42]Polis etikasına dair Avropa Məcəlləsi, 57-ci maddə

[43]CPT GR 12, 43

[44]http://www.turan.az/ext/news/2019/4/free/Social/az/79992.htm

*Göygöl RPŞ-nin MSY-ə həyata keçirilmiş başçəkmə zamanı müəyyən edilmişdir ki, MSY-ə gətirilən şəxslərin tibbi müayinəsi zamanı tibb işçisinin yanında polislər də iştirak edir. Halbuki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 aprel 2013-cü il tarixli Qərarı ilə təsdiq edilmiş "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi və psixoloji yardım göstərilməsi, habelə onların tibbi müəssisələrdə saxlanılması Qaydaları"-nın 2.8-ci bəndinə əsasən tibbi işçisi tibbi müayinələri digər şəxslərin iştirakı olmadan (təhlükəsizlik tədbirləri istisna olmaqla) aparır.*

***Qanunsuz saxlamanın qarşısının alınması.*** Azərbaycan Respublikasının Cinayət-prosessual qanunvericliyi hüquq-mühafizə orqanları tərəfindən şəxslərin saxlanılması məsələlərini nəzərdə tutur. Saxlanmanın əsasları, qanuniliyi, müddət və şərtləri, saxlanılan şəxslərin hüquqlarının təminatı, hüquq-mühafizə orqanlarının vəzifələri milli qanunvericiklə yanaşı beynəlxalq aktlar və müvafiq standartlarda da təsbit olunmuşdur.

*Təcrübədə isə bəzi hallarda qanunun tələblərinin pozulduğuna hələ də rast gəlinir. Ombudsmanın İşgəncələrlə bağlı Qaynar Xəttinə əvvəllər axtarışda olan Göyçay rayon sakini B.L. müraciət edərək, onun könüllü şəkildə Göyçay rayon İcra və Probasiya Şöbəsinə gəlməsi və bu səbəbdən barəsində elan olunmuş axtrarışın dayandırılması barədə müvafiq sənədinin olmasına baxmayaraq Balakən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanıldığı barədə məlumat vermiş və müvafiq köməklik göstərilməsini xahiş etmişdir.*

*Müraciət üzrə dərhal Ombudsmanın Milli Preventiv Qrupu tərəfindən Balakən RPŞ-nin rəhbərliyi ilə əlaqə saxlanılmış və müraciət üzrə saxlanmanın əsasları araşdırılmışdır. Vətəndaşın axtarışın dayandırılması haqqında məktubuna onun saxlanılmasını istisna edən hüquqi əsas kimi baxılmasının vacibliyi vurğulanmışdır.Nəticə olaraq isə, vətəndaş Balakən Polis Rayon Şöbəsindən azad olunmuşdur.*

Müvəkkil bu sahədə nöqsanların aradan qaldırılmasının vacibliyini vurğulayır, DİN rəhbərliyinin,polis və prokurorluq orqanları əməkdaşlarının bu məsələyə diqqətini artırmağa çağırır.

***Sənədləşmə və vahid qeydiyyat sistemi.*** Saxlanılan şəxslərlə bağlı müvafiq qeydiyyatın aparılması onların hüquqlarının təmin edilməsi istiqamətində mühüm və əsaslı təminatdır.İlkin tutmanın vaxtı və bu tədbirin səbəbləri, hüquqlar barədə məlumatlandırmanın vaxtı, yaxın qohumun, konsulluq nümayəndəsinin və ya vəkilin saxlanılan şəxslə təmasda olduğu və ya ona baş çəkdiyi vaxt, qidanın təklif olunduğu vaxt, dindirmənin vaxtı, başqa yerə köçürmənin və ya azad edilmənin vaxtını əks etdirən qeydiyyatın müfəssəl aparılmasına nəzarət gücləndirilməlidir.

*Həmin şəxslərin vəkilinin aparılan qeydiyyat kitablarındakı məlumatlarla tanış olmaq imkanı da olmalıdır.*[45]

Qeydə alınması zəruri olan müxtəlif xarakterli məlumatlar müxtəlif qeydiyyat kitablarında qeyd edilir. Xaçmaz RPŞ, Daşkəsən RPŞ, Yevlax RPŞ, Şəmkir RPŞ, Goranboy RPŞ və Göygöl RPŞ-də 2019-cu ildə həyata keçirilən başçəkmələr zamanı qeydiyyat kitablarında aşkar edilmiş nöqsanlar hələ də bu sahədə çatışmazlıqların olduğunu göstərməkdədir.

*Müvəkkil qeyd edir ki, saxlanılan şəxsin adı, saxlanma səbəbi, saxlanmanın vaxtı, dindirmə, başqa yerə köçürülmə, prosedurlar və digər məsələlər mütləq şəkildə müvafiq qaydada qeydiyyata alınmalı, məlumatlar müfəssəl şəkildə təsvir olunmalıdır.*

***Miqrantların saxlama şəraiti və onlarla rəftar.*** Bu sahədə də əvvəlki illərdə müşahidə olunmuş bir sıra çətinliklər hələ də qalmaqdadır.

Dövlət Miqrasiya Xidmətinin Yevlax Qanunsuz Miqrantların Saxlama Məntəqəsində həyata keçirilmiş başçəkmələrdəgörüş otağınabaxış zamanı həmin otağın lazımi avadanlıqlarla təchiz olunmadığı, orada ərizə və şikayətlər üçün qutunun, otağın görünən yerlərində sovqatların qəbulu, sovqatların təqdimetmə qaydaları, Mərkəzdə saxlanılan əcnəbilərə verilməsi və ya ötürülməsi, sovqatlarda gətirilməsi, bağlama və banderollarda göndərilməsi qadağan olunmuş əşyaların siyahısı barədə məlumat, habelə bu siyahıda göstərilən əşyaların yoxlamadan gizlətməklə və ya hər hansı digər üsulla verilməsi (göndərilməsi və ya ötürülməsi) ilə bağlı məsuliyyəti müəyyən edən normativ hüquqi aktların mətni, habelə həmin otaqların iş rejimi və müraciət edən şəxslərin qəbul günləri barədə məlumat lövhələrinin mövcud olmadığı müşahidə edilmişdir.

Mərkəzdəyerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 87.1.20-ci maddəsi ilə nəzərdə tutulmuş telefon əlaqəsindən istifadə etmək hüquqlarının həyata keçirilməsi üçün müvafiq telefon danışığı məntəqəsinin olmaması müşahidə edilmişdir. Həmçinin mərkəzin quruluşuna dair ümumi tələblərdə qeyd olunmuş obyektlərdən kitabxana, bərbərxananın mövcud olmaması müşahidə edilmiş, əcnəbilərlə psixoloji iş aparılması üçün psixoloq ştatında beynəlxalq hüquq ixtisası üzrə təhsil almış əməkdaşın çalışması və şəxslərə göstərilmiş psixoloji yardım işi, tətbiq edilmiş metodlar və nəticələri, şəxslərin psixoloji xarakteristikası barədə qeydiyyat aparılması üçün psixoloji yardım dəftərinin mövcud olmaması, mərkəzdə ixtisasca həkim olan tibb işçisinin olmadığı müəyyən edilmişdir.

Müəssisədə miqrasiya xidmətinin cəmi bir nəfər ixtisasca feldşer qadın əməkdaşının olması, həmin əməkdaşın həm tibbi müayinələrə, həm də qadın miqrantların şəxsi axtarış tədbirlərinə cəlb edilməsi müəyyən edilmişdir ki,

[45]CPT, GR2, 40

bu da saxlanılma mərkəzinin qadın miqrantlarla bağlı işinin təşkilində müəyyən çətinliklərin yaranmasına səbəb olur.

Müvəkkil Yevlax şəhərində yerləşən bu müəssisənin kifayət qədər müasir olduğu və saxlanma şəraiti ilə bağlı tələblərə cavab verdiyini vurğulamaqla yanaşı, qeyd olunan nöqsanların da aradan qaldırılmasının vacibliyini qeyd edir.

Müvəkkil DMX orqanlarının fəaliyyətində hüquqi maarifləndirmə işinin daha da gücləndirilməsini vacib hesab edərək, bu sahədə əməkdaşlıq imkanlarını təklif edir.

Dövlət Miqrasiya Xidmətinin Bakı şəhər Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə həyata keçirilən başçəkmə zamanı orada saxlanılan xarici vətəndaşlar M.A. və M.R. ilə bağlı Miqrasiya Məcəlləsinin 82-ci maddəsinin tələblərinin pozulduğu, 7 gün keçməsinə baxmayaraq bu şəxslər barəsində Mərkəzə yerləşdirmə ilə bağlı hər hansı bir qərarın qəbul olunmadığı məlum olmuşdur.

Müəssisəyə yerləşdirmə ilə bağlı qərarlar Dövlət Miqrasiya Xidmətinin özündə verildiyindən çox vaxt saxlanılan şəxslər barədə sənədlərin olmaması və ya belə qərarın gecikdirilməsi ilə rastlaşılır.

Müvəkkil qanunsuz miqrantların saxlanması mərkəzlərinə yerləşdirmə ilə bağlı qərarların qəbul edilməsi prosesində mobilliyin təmin edilməsini və həmin mərkəzlərə qərarların göndərilməsi ilə əlaqədar gecikmələrin aradan qaldırılması üçün müvafiq qərarların qəbul edilməsi səlahiyyətinin müəssisə rəhbərlərinə verilməsinin bu sahədə problemlərin aradan qaldırılacağını düşünür.

***Səhiyyə Nazirliyinin müəssisələri ilə bağlı.*** İl ərzində Səhiyyə Nazirliyinin müəssisələrinə keçirilənbaşçəkmələrdə Gəncə Rayonlararası Narkoloji Dispanserin binasının ümumilikdə köhnə və natəmiz olması, inventarların köhnə olması, palatalarda şəxslərin saxlanılması üçün şəraitin uyğun olmaması, istilik sisteminin mövcud olmaması, asudə vaxtın təşkili üçün şəraitin olmaması müşahidə edilmişdir. Müvəkkil narkoloji dispanser üçün yeni binanın tikintisi, əməkdaşların müəssisənin fəaliyyətini tənzimləyən normativ aktlarla tanış edilməsi, dispanserin fəaliyyəti ilə bağlı qeydiyyat işinin təkmilləşdirilməsi və saxlanılan şəxslərin qida rasionunun müxtəlifliyinin təmin edilməsini zəruri hesab edir.

Gəncə şəhər Səhiyyə İdarəsinin Gəncə Körpələr Evi ilə bağlı əsas narahatlıq doğuran məqam müəssisənin binasının köhnə və istifadəyə yararsız olmasıdır. Körpələr Evinin binasının əsaslı təmir edilməsi, körpə uşaqlar üçün müvafiq yeni inventarlarla təchiz edilməsi, müvafiq yaşa (3 yaş) çatdıqdan sonra körpələr evini tərk etməli olan sağlamlıq imkanları məhdud körpələrin digər müəssisələrə yerləşdirilməsi prosesinin təkmilləşdirilməsi, müəssisənin fəaliyyətini tənzimləyən müvafiq normativ-

hüquqi aktlar barədə əməkdaşların məlumatlılığının və peşə biliklərinin artırılması tövsiyə edilir.

***Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər müəssisələrdə saxlanma şəraiti və rəftarla bağlı.*** Bilgəh qəsəbəsində yerləşən Pensiya yaşına çatmış şəxslər üçün Sosial Xidmət Müəssisəsində "İnsan hüquqları aylığı" çərçivəsində burada yaşayan sakinlərlə keçirilən görüş sonrasında burada məskunlaşan şəxslərin bəzi problemlərinin həlli məqsədilə Səhiyyə Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Bakı Nəqliyyat Agentliyinə müvafiq məktublar ünvanlanmış, Səhiyyə Nazirliyinə ünvanlanmış məktubda şəkərli diabetdən əziyyət çəkən şəxslərə zəruri dərman preparatlarının verilməsi məsələsi qaldırılmışdır. Nəticədə tibbi xidmətlərə çatımlılıq, habelə sakinlərin geyim və şəxsi gigiyena vasitələri ilə təchiz olunması, saxlanma şəraitinin yaxşılaşmasına yönəlmiş infrastruktur dəyişikliklərinə nail olunmuşdur.

Təhsil Nazirliyinin tabeliyindəki müəssisələrə (məs. Balakən, Mingəçevir və Goranboy rayonlarının ərazisindəki inteqrasiya təlimli internat tipli gimnaziyalara) həyata keçirilən başçəkmələr zamanı bəzi müəssisələrdə maddi-texniki şəraitin, bəzilərində saxlanma şəraitinin qənaətbəxş olmadığı, mərkəzi istilik sisteminin olmadığı, ilkin tibbi yardım ləvazimatlarının və dərman preparatlarının əksik olduğu, sənədləşmədə çatışmazlıqların mövcud olduğu müşahidə edimişdir. Təhsil Nazirliyinin MPM mandatına aid edilən və əsaslı təmir-tikinti işinin aparılması zəruri olan müəssisələrində saxlanma şəraitinin standartlara uyğunlaşdırılması, bu müəssisələrin lazımi inventarlarla təchiz edilməsi məqsədəmüvafiqdir.

MPQ üzvləri tərəfindən Şəki şəhər qarışıq tipli uşaq evinə həyata keçirilmiş başçəkmə zamanı uçot-qeydiyyat kitablarının qarışıq vəziyyətdə olduğu, uşaqların şəxsi işlərində çatışmazlıqların olduğu, yerləşdirməyə dair sənədlərin tam olmadığı, yeməklərin miqdarının uşaqların sayına uyğun olmadığı, yataq otaqlarında sıxlıq, tibbi xidmətin yaxşı təşkil olunmadığı aşkarlanmış, nöqsanların aradan qaldırılması Şəki şəhər İcra Hakimiyyətiqarşısında qaldırılmış, nəticədə başçəkmə zamanı aşkarlanmış problemlərin müsbət həll olunmasına nail olunmuşdur. Uşaq evləri üçün ayrılmış qida norması, tibbi ləvazimatlar, habelə dərman preparatları müəssisənin tutumuna uyğun ayrıldığından, uşaq sayının normadan çox olduğu hallarda rəftar, saxlanma şəraiti ilə yanaşı, qidalanma və tibbi yardımın düzgün təşkilinə də problemlər yaranır ki, gələcəkdə belə problemlərin təkrarlanmaması üçün Maliyyə Nazirliyi tərəfindən əlavə maliyyənin ayrılması zəruridir.

Qeyd olunanlar onu göstərir ki, mövcud olan problemlər bir sıra hallarda sistemli və kompleks deyil, lokal və individual xarakter daşımışdır ki, onları da qısa zaman ərzində aradan qaldırmaq mümkündür.

Bu baxımdan Müvəkkil hesab edir ki, bir çox hallarda müəssisələr və onların tabe olduqları mərkəzi və yerli icra hakimiyyəti orqanları daxili imkanları hesabına, dövlət tərəfindən əlavə maliyyə və inzibati resurslar olmadan da, işlərini yüksək səviyyədə quraraq, nöqsanlara yol verməmək, mövcud çatışmazlıqları aradan qaldırmaq iqtidarındadır.

Müvəkkil bütün dövlət orqanlarını ölkədə gedən yeniliklər və islahatlara uyğun yanaşma nümayiş etdirməyə, məsuliyyətli və təşəbbüskar olmağa çağırır.

## BÖLMƏ 4.

## HÜQUQİ MAARİFLƏNDİRMƏ

Azərbaycan MPM-nin fəaliyyət istiqamətlərindən biri də şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslər və onlarla işləyən xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə tədbirlərinin təşkilidir.

Fakültativ Protokolun preambulası da maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb edir.

Bu baxımdan Ombudsmanın MPM fəaliyyəti çərçivəsində müxtəlif dövlət orqanları üçün kadr hazırlığını həyata keçirən tədris müəssisələri ilə səmərəli əməkdaşlıq əlaqələri üzrə hüquqi biliklərin artırılması məqsədini daşıyan tədbirlər davam etdirilmişdir.

Ədliyyə Akademiyası ilə əməkdaşlıq çərçivəsində icbari təlim kurslarının proqramına insan hüquqları, habelə Ombudsmanın MPM fəaliyyəti ilə bağlı mövzular da daxil edilmişdir.

Belə ki, Penitensiar Xidmətin orta rəis heyətinə qulluğa qəbul ediləcək namizədlər üçün "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Cəzaçəkmə müəssisələrində keçirilən başçəkmələr: milli və beynəlxalq təcrübə kontekstində" mövzusunda, Məhkəmə Ekspertizası Mərkəzinə qulluğa qəbul üzrə müsahibədə müvəffəqiyyət qazanmış namizədlər üçün "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyət istiqamətləri və Milli Preventiv Mexanizm mandatı" mövzusunda və Tibb Xidmətinə qulluğa yeni təyin edilmiş əməkdaşlar üçün "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində CÇM-in Tibb sanitar hissələrində həyata keçirilən başçəkmələr: milli və beynəlxalq təcrübə kontekstində" mövzusunda mühazirələr oxunmuşdur.

Mühazirələrdə BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunun icrasının təmin edilməsi ilə bağlı ölkə Ombudsmanının MPM funksiyalarını yerinə yetirən təsisat qismində müəyyən olunması, bu sahədə

fəaliyyətin daha səmərəli aparılması üçün ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə müntəzəm keçirilən başçəkmələr, verilmiş tövsiyələr və onların icrası vəziyyətinə dair məlumatlar milli, xarici ölkə və beynəlxalq təşkilatların təcrübəsindən misallar gətirməklə dinləyicilərin diqqətinə çatdırılmışdır.

Hüquq-mühafizə orqanları üçün kadr hazırlığını həyata keçirən tədris müəssisələri, o cümlədən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası ilə də səmərəli əməkdaşlıq əlaqələri davam etdirilmişdir. Qarşılıqlı əməkdaşlıq çərçivəsində Polis Akademiyasında Daxili işlər orqanlarında çalışan rəhbər kadrlar üçün "İnsan hüquqlarının müdafiə mexanizmləri" mövzusunda mühazirə təşkil edilmişdir. Ombudsman Aparatının şöbə müdiri, Milli Preventiv Qrupun rəhbəri Rəşid Rumzadə tərəfindən tədris edilmiş mühazirədə insan hüquqlarının milli və beynəlxalq müdafiə mexanizmləri, bu sahədə beynəlxalq qanunvericilik aktlarının implementasiyası məsələləri və tətbiqi əsasları haqqında fikirlərini bölüşmüş, təcrübədə mövcud olan çətinliklər və qarşıda duran işlər barədə iştirakçılara ətraflı məlumat vermişdir.

Təqdirəlayiq haldır ki, tərəfimizdən qaldırılan təşəbbüs əsasında "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza hallarının qarşısının alınmasına dair mövzular" Ədliyyə Akademiyasında, eləcə də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında tədris mövzularına daxil edilmişdir.

Başçəkmələr zamanı şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələr, o cümlədən penitensiar müəssisələr, müvəqqəti saxlama yerləri, təhsil, səhiyyə və sosial müdafiə müəssisələri əməkdaşlarına və həmin müəssisələrdə qəbul edilmiş saxlanılan şəxslərə ünvanlanmış hüquqi maarifləndirmə aparılmış, qaldırılan məsələlər üzrə hüquqi məsləhətlər verilmişdir.

Ombudsman Milli Preventiv Mexanizm qismində fəaliyyəti çərçivəsində növbəti dəfə Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin qadın məhkumlar üçün 4 saylı cəzaçəkmə müəssisəsində (CÇM) "Açıq qapı" qəbul təşkil etmişdir[46].

Qəbuldan öncə Müvəkkil müəssisə rəhbərliyinin və məhkumların geniş tərkibdə iştirakı ilə hüquqi maarifləndirici görüş keçirmiş, dövlətimizin humanizm siyasətinə uyğun olaraq mütəmadi əfv sərəncamlarının verildiyini, amnistiya aktlarının qəbul olunduğunu diqqətə çatdıraraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 fevral 2017-ci il tarixdə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar

[46]http://www.ombudsman.gov.az/az/view/news/1355/ombudsman-4-sayli-cezachekme-muessisesinde-achiq-qapi-qebulu-kechirmishdir

olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi" barədə Sərəncamının mahiyyəti və əhəmiyyətini vurğulamış, ölkədə həyata keçirilən hüquqi islahatlar barədə ətraflı məlumat vermiş, məhkumlara ünvanlanan geniş izahat və hüquqi maarifləndirmə işi aparılmışdır.

Hüquqi maarifləndirmə məqsədi daşıyan tədbirlər zamanı mövcud təcrübə ilə tanışlıq məqsədilə Ombudsmanın təşəbbüsü əsasında Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin professoruna, insan hüquqları və cinayət hüququ ixtisasları üzrə dissertasiya müdafiə etmiş magistrantlara müvafiqşərait yaradılmışdır. Bu da onların təcrübi baxımdan məlumatlanması baxımından əhəmiyyətlidir.

Məhkumlara ünvanlanan tədbirlər zamanı canlı diskussiyalar təşkil edilmiş, cinayətlərin de-kriminallaşdırılması, digər cinayət və mülki hüquq münasibətləri üzrə sualları qanunvericiliyə uyğun şəkildə cavablandırılmış, onlara hüquqları, əfvlə bağlı müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, qəbul olunmuş ərizə və müraciətlər üzrə izahatlar verilmişdir.

Müstəqillik tarixində dövlətimizin humanist siyasəti nəticəsində yeganə ölkə olaraq Azərbaycanda qısa müddət ərzində 65 Əfv Sərəncamının imzalandığı, 11 Amnistiya Aktının qəbul olunduğu, nəticədə isə minlərlə insanın ailələrinə, cəmiyyətə qovuşduğu diqqətə çatdırılıb.

Ombudsman təsisatının nümayəndələri azadlığa buraxılanlara ailələrinə və cəmiyyətə, sağlam həyat tərzinə qovuşmağı, dövlətçiliyə sadiq qalmağı, faydalı əməklə məşğul olmağı tövsiyə ediblər.Yekunda bu müəssisələrdəki əfv olunmuş məhkumlara azadlığa çıxmaları barədə sənədlər təqdim edilib.

Novruz bayramı günləri ərəfəsində keçirilən tədbirlər çərçivəsində Ombudsman Aparatının nümayəndələri Bilgəh qəsəbəsində yerləşən Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət məssisəsində, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə baş tutmuş və Qanunsuz Miqrantların Saxlanılması Mərkəzində, Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Qoşunlarının və Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələrinin N saylı hərbi hissələrində təşkil olunmuş bayram tədbirlərində iştirak ediblər.

Aparatın nümayəndələri tədbirlərdə insan hüquqları, o cümlədən uşaqların, qadınların və ahılların hüquqlarının təmin olunması və müdafiəsi sahəsində Müvəkkilin çoxşaxəli fəaliyyəti barədə ətraflı məlumat verərək, qarşıdan gələn Novruz bayramı münasibətilə Ombudsmanın salamlarını, bayram təbriklərini və xoş arzularını iştirakçılara çatdırıblar.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), Dövlət Miqrasiya Xidməti və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycanda miqrasiya

prosesləri və miqrantların hüquqlarının müdafiəsi” mövzusunda dəyirmi masa keçirilib.

Tədbir Azərbaycanda miqrasiya proseslərinin xüsusiyyətləri, dinamikası və tənzimlənməsi üzrə müzakirələrin aparılması, bu proses iştirakçılarının insan hüquqlarının səmərəli təmin edilməsi, həmçinin bununla bağlı təklif və tövsiyələrin dinlənilərək ümumiləşdirilməsi və daha sonra aidiyyəti dövlət qurumları ilə birgə məsləhətləşmənin təşkilinə yönəldilmişdir. Şəbəkə şəklində məlumatlandırma və əlaqələndirmə işinin genişləndirilməsi məqsədi daşıyan bu toplantıda dövlət qurumları, beynəlxalq təşkilatlar və KİV-in nümayəndələri ilə yanaşı Ombudsmanın nəzdində fəaliyyət göstərən Ekspertlər Şurası və digər QHT-lər, eyni zamanda Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın üzvləri iştirak ediblər.

Müvəkkil tədbirdə məruzə ilə çıxış edərək, bildirib ki, son illərdə intensiv miqrant axınlarına qarşı BMT-nin qərarlarına və beynəlxalq hüquqa zidd olaraq qəddar, qeyri-insani rəftar, işgəncələr, islamofobiya və ksenofobiya tüğyan etdiyi halda, 30 ildən çoxdur, davam edən Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkün əhalisi olmağına baxmayaraq, ölkəmiz öz iqtisadi inkişafı, sabitlik, tolerantlıq mühitinə görə miqrantlar üçün cəlbedici məkana çevrilib və buraya üz tutan miqrantların sayında artım müşahidə olunur.

Miqrantların hüquqlarının təmini vəziyyəti ilə bağlı aidiyyəti dövlət qurumlarına təkliflər ünvanladığını, nəticədə digər təkliflərlə yanaşı əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınma müddətinin uzadılması, həmçinin müşayiət olunmayan, valideyn himayəsindən məhrum olmuş və sığınacaq üçün müraciət edən uşaqların sosial müdafiəsi, xüsusi saxlanılma mərkəzlərinə yerləşdirilən əcnəbilərin saxlanılma şəraiti və hüquqi vəziyyətinin yaxşılaşdırılmasına dair təkliflərin nəzərə alındığını bildirib.

Eyni zamanda, Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Milli Preventiv Qrupun üzvləri tərəfindən Qanunsuz Miqrantların Saxlanılması Mərkəzlərinə mütəmadi baxışlar keçirildiyi, orada saxlanılan şəxslərin vəziyyəti, saxlanılma şəraiti, onlara qarşı rəftarın öyrənildiyi, həmin şəxslərə Müvəkkilin səlahiyyətləri çərçivəsində mümkün köməklik göstərildiyi söylənib.

Xüsusi qeyd olunub ki, ölkə daxilində olan miqrantlarla yanaşı ölkədən gedən Azərbaycan Respublikası vətəndaşları ilə də müntəzəm iş aparılır, bu xarici dövlətlərin ombudsmanları ilə, o cümlədən həmin ölkələrin Azərbaycandakı və ölkəmizin xarici dövlətlərdəki diplomatik nümayəndəlikləri ilə yaradılmış əməkdaşlıq əlaqələri inkişaf etdirilir. Xarici Ombudsmanlarla imzalanmış ikitərəfli müqavilələr əsasında xarici ölkələrdə yaşayan və işləyən soydaşlarımızın üzləşdikləri problemlərin həlli və qanuni miqrasiyanın təbliği məqsədilə bir çox hallarda qeyri-müəyyən vəziyyətdə

yaşayan şəxslərin statusları müəyyən edilib. Nəticədə həmvətənlərimizin xarici ölkələrdə, həm də xarici ölkələrin miqrant vətəndaşlarının ölkəmizin ərazisində pozulmuş insan hüquqları bərpa edilib, həmçinin vətəndaşsızlıq vəziyyətində olan şəxslər müvafiq sənədlərlə təmin edilməklə statuslarının rəsmiləşdirilməsinə nail olunub.

2019-cu ildə də DİN-nin tabe qurumlarında xidmət əməkdaşlarına ünvanlanan maarifləndirmə işi davam etdirilmişdir. Həyata keçirilən başçəkmələr zamanı müvafiq müəssisələrin rəhbərliyi və əməkdaşlarla hüquqi-maarifləndirici söhbətlər aparılmışdır. "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu, Milli Preventiv Mexanizmin funksiyası, "Tutulmuş və həbs edilmiş" şəxslərin hüquq və vəzifələri, saxlanılma məntəqələrində daxili intizam qaydaları və qeydiyyatın təkmilləşdirilməsi, saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı mövzular beynəlxalq təcrübə əsasında tədris olunmuşdur.

## BÖLMƏ 5.

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏBEYNƏLXALQ ƏMƏKDAŞLIQ

2019-cu ildə də dövlət orqanları, yerli vətəndaş cəmiyyəti qurumları, o cümlədən QHT-lər, KİV, regional və beynəlxalq təşkilatlarla, xarici ölkə MPM-ləri ilə informasiya və təcrübə mübadiləsinin aparılması, keçirilən tədbirlərdə qarşılıqlı iştirakın təmin olunması, eləcə də birgə tədbirlərin təşkili istiqamətində işlər davam etdirilmişdir.

Azərbaycan MPM-in fəaliyyəti barədə həm ölkə ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət mütəmadi olaraq ətraflı məlumatlandırılmışdır.

MPM-in fəaliyyət istiqaməti ilə bağlı 33 mətbuat açıqlaması yayılmışdır. Bunlardan 24-ü şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə həyata keçirilən başçəkmələr, 3-ü hüquqi maarifləndirmə, 1-i əfv, 5-i müxtəlif tədbirlərdə iştirak və digər məsələlərlə əlaqədar olmuşdur.

Ümumilikdə2009-2019-cu illər ərzində MPM-in fəaliyyəti ilə bağlı 1007 mətbuat açıqlaması yayımlanmışdır.

Press-relizlər (mətbuat açıqlamaları), həmçinin MPM-in fəaliyyətinə dair hesabatlar, MPQ-nin tərkibi barədə məlumat, habelə müvafiq normativ-hüquqi aktlar Müvəkkilin rəsmi internet saytında yaradılmış xüsusi bölmədə Azərbaycan və İngilis dillərində yerləşdirilmişdir. Hesabatlar Müvəkkilin rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı, aidiyyəti dövlət qurumlarına və beynəlxalq təşkilatlara da göndərilmişdir.

Müvəkkilin ünvanına, o cümlədən 24 saat fəaliyyət göstərən "Qaynar xətti"nə daxil olmuş müraciətlər və digər məlumatlar, QHT-lərdən, hüquq müdafiəçilərindən, vəkillərdən, kütləvi informasiya vasitələrindən alınmış, internet saytlarından götürülmüş informasiyalar bilavasitə yerində, yaxud bu və ya digər dövlət orqanına yoxlama tapşırığı verilməsi yolu ilə araşdırılması zamanı əldə edilmiş faktlar, toplanmış məlumat və materiallar, habelə şikayətlərin aidiyyət və kəmiyyət göstəriciləri həyata keçirilən başçəkmələr zamanı istifadə olunmuşdur.

Müvəkkilin MPM fəaliyyəti çərçivəsində KİV-lərdə mütəmadi adları çəkilən, tutulmuş, həbsdə saxlanılan və ya şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə olan şəxslərlə də mütəmadi olaraq görüşlər keçirilmişdir. Aparılmış araşdırmalar barədə press relizlər KİV-ə göndərilmiş, Müvəkkilin rəsmi internet saytında yerləşdirilmişdir.

MPM-in fəaliyyəti çərçivəsində dövlət orqanları, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları ilə yanaşı, KİV-lə də səmərəli əməkdaşlıq əlaqələri inkişaf etdirilmişdir.

MPM-in fəaliyyəti çərçivəsində də keçirilən başçəkmə və hüquqi maarifləndirmə tədbirlərində, o cümlədən müvafiq dövlət qurumlarının iştirakı ilə keçirilən görüşlərdə, qanunvericiliklə bağlı müzakirələrdə, müvafiq hesabatların hazırlanması prosesində vətəndaş cəmiyyətinin üzvlərinin cəlb olunması və ekspertlərin iştirakı mütəmadi olaraq təmin olunmuşdur.

Vətəndaş cəmiyyəti üzvlərindən ibarət tərkibdə Ədliyyə Nazirliyi yanında yaradılmış İctimai Komitə ilə də sıx əməkdaşlıq edilir. Ekspert qismində cəlb olunmuş Komitə üzvləri MPM-in işində yaxından iştirak edirlər.

Milli Preventiv Qrupun rəhbəri Azərbaycan Respublikası Ədliyyə Nazirliyi yanında İctimai Komitənin Seçkisi Komissiyasının üzvü kimi qeyd edilən dövr ərzində keçirilən müvafiq tədbirlərdə iştirak etmişdir.

***Beynəlxalq əməkdaşlıq.*** Beynəlxalq əlaqələrin daha da genişləndirilməsi, aparılan təcrübə və fikir mübadilələri Azəbaycan MPM-nin fəaliyyətinin effektiv həyata keçirilməsinə geniş imkanlar açmışdır.

Müvəkkil MPM qismində BMT və onun müqavilə qurumları, o cümlədən CAT, SPT, habelə CPT, Avropa Şurası, Avropa İttifaqı, ATƏT, İşgəncələrin Qarşısının alınması üzrə Assosiasiya (APT) və digər beynəlxalq təşkilatlar, habeləmüxtəlif ölkələrin MPM-ləri ilə əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır.

Müvəkkilin MPM fəaliyyətində beynəlxalq əməkdaşlıqistiqaməti kimi işgəncələrin qarşısının alınması sahəsində müxtəlif səmərəli görüşlərin təşkili, birgə tədbirlərin həyata keçirilməsi, Müvəkkil və MPQ-nin üzvlərinin beynəlxalq tədbirlərdə iştirakı və qarşılıqlı təcrübə mübadilələrini göstərmək olar.

MPM-in beynəlxalq əməkdaşlıq fəaliyyəti çərçivəsində Müvəkkilin UNICEF-in Bakı Ofisi ilə əməkdaşlığı uğurlu olmuş, dövlət uşaq müəssisələrində birgə monitorinqlər həyata keçirilmişdir. Müvafiq başçəkmələrdə MPQ-nin həkim və hüquqşünas üzvləri ilə birgə UNICEF-in ölkə üzrə nümayəndəliyinin sosial iş sahəsində fəaliyyət göstərən mütəxəssisləri, beynəlxalq ekspertlər də iştirak etmişlər.

Qarşılıqlı əməkdaşlıq, o cümlədən dövlət uşaq müəssisələrində uşaq hüquqlarının müdafiəsi məqsədi ilə birgə moitorinqlərə əsaslanan fəaliyyət, Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində həyata keçirilən birgə işlər UNICEF-in ölkə Ofisi tərəfindən yüksək qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, Ombudsman təsisatı ilə UNICEF arasında birgə fəaliyyət planı imzalanmışdır. Plan çərçivəsində Uşaq Hüquqları

Konvensiyasının müddəalarına, habelə BMT-nin müvafiq saziş qurumunun verdiyi tövsiyələrə əsaslanmaqla regionlarda uşaq hüquqlarının müdafiəsi sahəsində çalışan dövlət qurumlarının, hüquq-mühafizə və yerli icra hakimiyyəti orqanlarının ehtiyacların qiymətləndirilməsi və təlimlər vasitəsilə bacarıqlarının artırılması sahəsində tədbirlərin, habelə vətəndaş cəmiyyəti təsisatlarının və yerli icmaların hüquqi maarifləndirmə işi davam etdirilmiş, tədris vəsaitləri çap olunaraq yayılmış, dövlət uşaq müəssisələrində birgə monitorinqlər aparılmışdır.

İl ərzində Müvəkkil beynəlxalq qurumların nümayəndələri ilə bir sıra görüşlər keçirmişdir. Həmin görüşlər zamanı qonaqlar Müvəkkilin fəaliyyəti, o cümlədən MPM qismində həyata keçirdiyi fəaliyyətlə yaxından tanış olmuş, birgə əməkdaşlıq perspektivləri barədə müzakirələr aparmışdır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Azərbaycanda səfərdə olan Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə digər sahələrlə yanaşı Ombudsmanın MPM qismində fəaliyyətinə dair məlumatlar verilmişdir. Qeyd edilmişdir ki, ölkəmiz 2008-ci ildən BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyasının Fakültativ Protokolunu ratifikasiya etmiş, Milli Preventiv Mexanizm funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən olunmuşdur. Qonağa ötən müddət ərzində Milli Preventiv Qrup tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədikləri yerlərə, o cümlədən penitensiar müəssisələrə, müvəqqəti saxlama yerlərinə, psixiatriya xəstəxanalarına, habelə sosial obyektlərə, ahıllar və əlilliyi olan şəxslər üçün internat evləri və pansionatlara müntəzəm olaraq qrup tərəfindən başçəkmələrin həyata keçirildiyi barədə məlumat verilmişdir.

## BÖLMƏ 6.

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Müvəkkil MPM qismində həyata keçirdiyi fəaliyyətin nəticələrinin təhlili, saxlanılan şəxlərin hüquqlarının effektiv təmini məqsədilə aşağıdakıları təklif edir.

### Normativ hüquqi aktlarla bağlı

1. Pis rəftar və cəza əleyhinə hüquqi və institusional mexanizmlərin gücləndirilməsi. Qanunvericliyin analizi və beynəlxalq standartlara uyğunlaşdırılması *(Milli Məclis)*
2. İşgəncə və pis rəftar halları ilə bağlı vahid məhkəmə təcrübəsinin yenidən formalaşdırılması *(Ali Məhkəmə)*
3. Ahıl şəxslərin hüquqları ilə bağlımilli qanunvericilik aktlarının "Ahıl şəxslərə dair BMT prinsiplərinə" və digər beynəlxalq standartlara uyğunlaşdırılması*(Milli Məclis)*
4. Cinayət-Prosessual Qanunvericilikdə ( CPM 428-435) yetkinlik yaşına çatmayanlar barəsində icraatın aparılması qaydalarının BMT-nin Uşaq Hüquqları Konvensiyası və uşaq hüquqları sahəsində beynəlxalq sənədlərə uyğun şəkildə təkmilləşdirilməsi *(Milli Məclis)*
5. Ölkə qanunvericiliyində əlilliyi olan şəxslərə münasibətdə insan ləyaqətini alçaldan söz və ifadələrdən imtina edilməsi*(Milli Məclis)*
6. Oxuma-yazma qabiliyyəti olmayan həbs yerlərində saxlanılan şəxslər üçün şifahi məlumatlandırma hüququnu nəzərdə tutan düzəlişin edilməsi *(Milli Məclis)*
7. "Cəzanın çəkilməsinə mane olan ağır xəstəliklərə düçar olmuş məhkumların tibbi şəhadətləndirilməsi Qaydalarına" dəyişiklik edilərək, ruhi xəstəliklərdən əziyyət çəkən və ya cəza çəkdiyi dövrdə psixi sağlamlıq vəziyyətlərində ciddi dəyişikliklər baş verən şəxslərin psixiatrik stasionarlara yerləşdirilməsi ilə bağlı effektiv mexanizmlərin təsbit edilməsi*(Nazirlər Kabineti)*
8. Təhsil müəssisələrində, psixixəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarına yenidən baxılması *(Nazirlər Kabineti)*;

### Daxili İşlər Nazirliyinə tövsiyələr

1. MSY-də saxlanılan və barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərin qanunvericiliyin tələblərinə uyğun vaxt ərzində İT-yə göndərilməsi, tibb işçilərinin cəlb olunması və sənədləşmənin aparılması işinə nəzarətin gücləndirilməsi;

2. MSY-lərdə saxlanma şəraitin yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi;

3. Polis əməkdaşları arasında "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun geniş təbliği və qanunun icrasının monitorinqinin aparılması;

4. Müvafiq qeydiyyat kitablarının tərtibi sahəsində nöqsanların aradan qaldırılmaqla, CPT standartlarına uyğun olaraq hər bir tutulmuş şəxsin qeydə alındığı, həbsdə saxlamanın bütün aspektlərini və həbsə alınanlar barəsində görülən bütün tədbirləri əks etdirən əhatəli qeydiyyatın aparılması;

5. Hüquqlarını müdafiə etdiyi şəxslərlə vəkillərin maneəsiz görüşlərinin təmini üçün diqqətin artırılması;

6. Polis tərəfindən tutulmuş şəxslərlə bağlı cinayət prosessual qanunvericiliyin tələblərinə uyğun saxlama müddətlərinə riayət edilməsinə nəzarətin gücləndirilməs;

## Ədliyyə Nazirliyinə tövsiyələr

1. Azərbaycan Respublikasının penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları haqqında Təlimatda xüsusi vasitələrin tətbiqi müddətinin, həddinin və əsaslarının BMT-nin Məhkumlarla Rəftara dair Standart Minimum qaydaları, Avropa Penitensiar Qaydaları, eyni zamanda CPT və SPT tövsiyələrinə uyğun son zərurət tədbiri qismində təkmilləşdirilməsi;

2. Cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkili və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin fəaliyyətinin genişləndirilməsi, cəza çəkən şəxslərlə yanaşı, keçmiş məhkumların da cəlb olunacağı reabilitasiya və cəmiyyətə adaptasiya proqramlarının hazırlanması və icrası;

3. Bakı şəhəri Zabrat qəsəbəsində inşa edilən məhkum qadınlar üçün cəzaçəkmə, habelə yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsinin, Umbakı qəsəbəsində inşa edilən həbsxananın, Gəncə, Lənkəran şəhərlərində inşa edilən penitensiar komplekslərdə tikinti işlərinin sürətləndirilməsi;

4. Cəzaçəkmə müəssisələrində məhkumların əməklə islah olunmaları işinə diqqətin artırılması, yeni iş yerlərinin açılması, layihələrin həyata keçirilməsi və müəssisələrin özünün də istehsalat baxımından ixtisaslaşması;

5. Məntəqə tipli cəzaçəkmə müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, onların yeni formada təşkili vəya birləşdirilməsi məsələsinə baxılması;

6. CÇM-lərdə maddi-texniki bazanın daha da yenilənməsi, kadr korpusunun məsuliyyətinin artırılması;

7. Xidmət əməkdaşlarının xüsusi vaxitələrdən istifadə edilməsi qaydaları ilə bağlı maarifləndirmə işinin aparılması;

8. Beynəlxalq təcrübələrə əsaslnaraq və qanunvericiliyin verdiyi imkanlardan istifadə edərək rejim pozuntularına görə cərimə təcridxanasına keçirilmə əvəzinə inzibati tənbeh kimi xəbərdarlıq və ya töhmətin daha çox tətbiq edilməsi tövsiyə edilir.

9. Məhkumların islahı prosesinə diqqətin artırılması və tərbiyəvi işin yüksək səviyyədə qurulması, aparılan tərbiyə işinin səmərəliliyinin artırılması məqsədilə işçi heyətin məhkum və həbs edilmiş şəxslərin sayına mütənasibliyinin təmin edilməsi;

10. Azərbaycan Ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramında müvafiq sahə ilə bağlı nəzərdə tutulmuş müddəaların tam şəkildə və ardıcıl icrası istiqamətində addımların atılması;

11. Qida rasionunun müəyyən edilmiş normalara uyğunlaşdırılması, qida təminatının yaxşılaşdırılması və keyfiyyətinin artırılması;

12. CÇM-də psixiatrik yardımın təşkilinin səmərəliliyinin artırılması istiqamətində addımların atılması;

## Səhiyyə Nazirliyinə tövsiyələr

1. Psixiatriya xəstəxanalarında pasiyentlərin izolyasiya təcrübəsindən imtina edilməsi işinin təşviqi;

2. Psixiatriya müəssisələrində ictimai nəzarətin həyata keçirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi;

3. Psixiatriya xəstəxanalarında təmir-tikinti işlərininvə saxlanma şəraitinin yaxşılaşdırılması istiqamətində işlərin sürətləndirilməsi;

## Təhsil Nazirliyinə tövsiyələr

1. Qanunvericiliyin tələbləri əsasında yetkinlik yaşına çatmayanların hüquqpozmalarının profilaktikası baxımından açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinin fəaliyyətinin yenidən təşkili;

2. BMT-nin Uşaq Hüquqları Konvensiyası əsasında modullar üzrə təlimlərin keçirilməsi, pis rəftar halları ilə mübarizə və onun qarşısının alınması, uşaq hüquqları və onun müdafiə mexanizmləri, qanunla ziddiyətdə

olan uşaqlar və onların hüquqi vəziyyəti ilə bağlı mövzuların geniş və interaktiv şəkildə tədris edilməsi;

3. Saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə internat müəssisələrinin əsaslı təmirinin həyata keçirilməsi;

4. Dövlət uşaq müəssisələrində yaşayan uşaqların asudə vaxtlarının səmərəli təşkili istiqamətində təbirlərin genişləndirilməsi;

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tövsiyələr

1. Penitensiar müəssisələrdən azad edilmiş şəxslərin reabilitasiyası və sosial adaptasiyası sahəsində kompleksvə müasir proqramların həyata keçirilməsi, sosial xidmətlərin inkişaf etdirilməsi;

2. Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə əlilliyi olan şəxslərin mövcud potensialını maksimum inkişaf etdirməklə onların sərbəst yaşamaq imkanlarının artırılması məqsədilə abilitasiya proqramlarının həyata keçirilməsi;

3. Sosial xidmət müəssisələrinin, xüsusilə də yeni formalaşdırılan, reabilitasiya və sosial sığınacaq məqsədli müəssisələrin, eləcə də uşaq evlərinin lazımi kadrlarla (sosial işçi, psixoloq, loqoped və s.) təmini və əmək haqlarının artırılması;

4. Ahıl şəxslərin saxlanma şəraitinin, habelə bu sahədə milli qanunvericilik aktlarının “Ahıl Şəxslərə dair BMT prinsiplərinə” və digər beynəlxalq standartlara uyğunlaşdırılması;

5. Uzun müddətə azadlıqdan məhrum edilmiş şəxslərin resosiallaşdırılması üçün individual proqramların dəstəklənməsi və praktik tətbiq edilməsi, habelə Penitensiar müəssisələrdə məhkumlar üçün ibtidai orta təhsil və peşə təhsilinin həyata keçirilməsi işinin müasir tələblər əsasında yenidən təşkili;

## Dövlət Miqrasiya Xidmətinə ünvanlanan tövsiyələr

1. Yevlax rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzində yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin telefon əlaqəsindən istifadə etmək hüquqlarının həyata keçirilməsi üçün Mərkəzdə telefon danışığı məntəqəsinin yaradılması, tibb məntəqəsinin təşkil edilməsi;

2. Qanunsuz Miqrantların Saxlanılma Mərkəzlərində qadın əməkdaşların sayının artırılması;

3. Qanunsuz miqrantların saxlanması mərkəzlərinə yerləşdirmə ilə bağlı qərarların qəbul edilməsi prosedurunda mobilliyin təmin edilməsi və sadələşdirilməsi;

4. Yevlax rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinin ixtisasca həkim və psixoloq olan kadrlarla təmin edilməsi.

*Əlavə 1*






***Diaqram 3. MPM-in 2019-cu ildəhəyatakeçirdiyibaşçəkmələrinsayı (müəssisələrüzrə)***




***Diaqram 4. MPM-in həyatakeçirdiyibaşçəkmələrinsayı (illərüzrə)***




**_Diaqram 5. MPM-in mətbuataçıqlamalarınınsayı (illərüzrə)_**



*Əlavə 2*

# İŞGƏNCƏLƏRƏ VƏ DİGƏR QƏDDAR, QEYRİ-İNSANİ YAXUD LƏYAQƏTİ ALÇALDAN RƏFTAR VƏ CƏZA NÖVLƏRİNƏ QARŞI KONVENSİYANIN

## FAKÜLTATİV PROTOKOLU

### Preambula

Hazırkı Protokolun iştirakçı dövlətləri,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq edərək,

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın (bundan sonra "Konvensiya" adlandırılacaq) məqsədlərinə nail olunması və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin zəruriliyinə əmin olaraq,

Konvensiyanın 2-ci və 16-cı maddələrinin hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsini öhdəsinə qoyduğunu xatırlayaraq,

Dövlətlərin bu maddələrin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığını, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin gücləndirilməsinin və onların insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğunu və Konvensiyanın tətbiqi üzrə beynəlxalq qurumların milli tədbirləri tamamladığını və möhkəmləndirdiyini etiraf edərək,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb etdiyini xatırlayaraq,

Həmçinin, Vyanada 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında işgəncələrin kökünün kəsilməsi üzrə səylərin ilk öncə onun qarşısının alınmasına yönəlməli olduğunu bəyan etdiyini və saxlanma yerlərinə mütəmadi başçəkmə üzrə preventiv sistemin yaradılması məqsədi daşıyan Konvensiyanın fakültativ protokolunun qəbul edilməsinə çağırdığını xatırlayaraq,

Azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin saxlanma yerlərinə mütəmadi başçəkmələrə əsaslanan preventiv xarakter daşıyan qeyri-məhkəmə tədbirləri əsasında gücləndirə bilinməsinə əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## I HİSSƏ

## ÜMUMİ PRİNSİPLƏR

***Maddə 1***

Hazırkı Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradılmasından ibarətdir.

***Maddə 2***

1. Hazırkı Protokolda ifadə olunan funksiyaları yerinə yetirən İşgəncələrə qarşı Komitənin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üzrə Altkomitə (bundan sonra Qarşısını Alma üzrə Altkomitə adlandırılacaq) yaradılır.

2. Qarşısını Alma üzrə Altkomitə fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərinin, habelə Birləşmiş Millətlər Təşkilatının azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını rəhbər tutur.

3. Qarşısını Alma üzrə Altkomitə, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

4. Qarşısını Alma üzrə Altkomitə və iştirakçı dövlətlər hazırkı Protokolun həyata keçirilməsində əməkdaşlıq edir.

***Maddə 3***

Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

***Maddə 4***

1. Hər bir iştirakçı dövlət Hazırkı Protokola, 2-ci və 3-cü maddələrdə qeyd olunan mexanizmlərə uyğun olaraq yurisdiksiyası və nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin dövlət orqanının sərəncamı və ya onun göstərişi, yaxud icazəsi və ya susmaqla razılığı əsasında saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə (bundan sonra saxlanma yerləri adlandırılacaq) başçəkmələrə icazə verir. Zərurət olduqda bu başçəkmələr belə şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi məqsədi ilə həyata keçirilir.

2. Hazırkı Protokolun məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl həbsdə saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

## II HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏ

***Maddə 5***

1. Qarşısını alma üzrə Altkomitə on üzvdən ibarətdir. Hazırkı Protokolun əllinci ratifikasiya fərmanının və ya ona qoşulma haqqında sənədin saxlanma üçün verilməsindən sonra Altkomitənin üzvlərinin sayı iyirmi beş nəfərə qədər artırılır.

2. Qarşısını alma üzrə Altkomitənin üzvləri yüksək mənəvi keyfiyyətlərə malik və ədalət mühakiməsi, xüsusilə də cinayət ədalət mühakiməsi sahəsində, penitensiar sistemdə və ya polis orqanlarında, yaxud azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla aid istənilən sahələrdə təsdiq edilmiş iş təcrübəsi olan şəxslər sırasından seçilir.

3. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı ədalətli coğrafi bölgü və iştirakçı dövlətlərin müxtəlif mədəniyyət formalarının və hüquq sistemlərinin təmsilçiliyinin zərurətinə lazımi diqqət yetirilir.

4. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı həmçinin bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında tarazlaşdırılmış gender təmsilçiliyinə diqqət yetirilir.

5. Qarşısını alma üzrə Altkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz.

6. Qarşısını alma üzrə Altkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Altkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır.

***Maddə 6***

1. Hər bir iştirakçı dövlət hazırkı maddənin 2-ci bəndinə uyğun olaraq 5-ci maddədə təsbit olunmuş ixtisas və tələblərə cavab verən iki namizədi irəli sürə bilər, bununla belə dövlət həmin namizədlərin ixtisası haqqında ətraflı məlumat təqdim edir.

2. a) Namizədlər hazırkı Protokolun iştirakçı dövlətinin vətəndaşı olmalıdır;

b) irəli sürülmüş iki namizəddən ən azı biri onun namizədliyini irəli sürən iştirakçı dövlətin vətəndaşlığına malik olmalıdır;

c) bir iştirakçı dövlətin vətəndaşı olan iki nəfərdən çox namizəd irəli sürülə bilməz;

d) hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin vətəndaşını namizəd kimi irəli sürməkdən əvvəl, o, həmin iştirakçı dövlətə sorğu verir və razılığını alır.

3. Seçkilərin keçirilməsi nəzərdə tutulan iştirakçı dövlətlərin müşavirəsinin başlanmasından ən azı beş ay əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi iştirakçı dövlətlərə üç ay ərzində öz namizədlərini irəli sürmək təklifi ilə məktub göndərir. Baş katib bütün namizədlərin, onları irəli sürmüş iştirakçı dövlətlər göstərilməklə əlifba qaydasında siyahısını təqdim edir.

***Maddə 7***

1. Qarşısını alma üzrə Altkomitənin üzvləri aşağıdakı qaydada seçilir:

a) əsas diqqət hazırkı Protokolun 5-ci maddəsinin tələblərinə və meyarlarına əməl edilməsinə yetirilir;

b) ilk seçkilər hazırkı Protokolun qüvvəyə minməsindən sonra altı ay müddətindən gec olmayaraq keçirilir;

c) iştirakçı dövlətlər Qarşısını alma üzrə Altkomitənin üzvlərini gizli səsvermə yolu ilə seçir;

d) Qarşısını alma üzrə Altkomitənin üzvünün seçkiləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən iki ildə bir dəfə çağırılan iştirakçı dövlətlərin iclaslarında keçirilir. İştirakçı dövlətlərin sayının üçdə iki hissəsi

kvorum hesab edilən bu iclaslarda ən çox səs və iştirak edən və səs verən iştirakçı dövlətlərin nümayəndələrinin mütləq səs çoxluğunu toplamış şəxslər Altkomitəyə seçilmiş üzvlər hesab olunur.

2. Seçkilər zamanı hər hansı iştirakçı dövlətin iki vətəndaşının Qarşısını alma üzrə Altkomitənin tərkibində işləmək hüququnu əldə etdiyi təqdirdə, ən çox səs toplamış namizəd Altkomitənin üzvü seçilir. Bu vətəndaşların eyni sayda səs topladığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) namizədlərin yalnız biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə bu vətəndaş Qarşısını alma üzrə I Altkomitənin üzvü seçilir;

b) hər iki namizəd vətəndaş olduqları iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə, Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir;

c) namizədlərdən heç biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürülmədiyi təqdirdə Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir.

***Maddə 8***

Qarşısını alma üzrə Altkomitə üzlərindən birinin vəfat etdiyi və ya istefa verdiyi yaxud hər hansı digər səbəbdən Altkomitə üzvünün funksiyalarını yerinə yetirməsi mümkün olmadığı təqdirdə, onun namizədliyini irəli sürmüş iştirakçı dövlət seçilmək hüququ olan, 5-ci maddədə təsbit olunmuş ixtisasa malik və tələblərə cavab verən şəxsi teyin edir. Bu şəxs səlahiy-yətlərin müxtəlif sahələri arasında müvafiq tarazlığın təmin edilməsi zərurəti nəzərə alınmaqla, iştirakçı dövlətlərin növbəti iclasına qədər olan səlahiyyət müddətinə, onun iştirakçı dövlətlərin çoxluğu tərəfindən təsdiq olunması şərti ilə teyin olunur. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin ehtimal edilən təyinat haqqında bildirişindən sonra altı ay ərzində iştirakçı dövlətlərin yarısı və ya yarısından çoxu tərəfindən belə təyinata qarşı çıxış edilmədiyi təqdirdə təsdiqetmə baş tutmuş hesab olunur.

***Maddə 9***

Qarşısını alma üzrə Altkomitənin üzvləri il 4 müddətinə seçilir. Namizədlikləri irəli sürüldüyü təqdirdə onlar bir dəfə təkrarən seçilə bilərlər. İlk seçkilərdə seçilmiş üzvlərin yarısının səlahiyyət müddəti iki illik müddət bitdikdən sonra başa çatır; ilk seçkilərdən dərhal sonra bu üzvlərin adları 7-ci maddənin 1 d bəndində qeyd olunan iclasın Sədri tərəfindən keçirilən püşk atma yolu ilə müəyyən olunur.

***Maddə 10***

1. Qarşısını alma üzrə Altkomitə öz vəzifəli şəxslərini iki il müddətinə seçir. Onlar təkrarən seçilə bilərlər.

2. Qarşısını alma üzrə Altkomitə öz prosedur qaydalarını müəyyən edir. Bu prosedur qaydalar xüsusilə aşağıdakıları nəzərdə tutur:

a) üzvlərin yarısı üstə gəl bir kvorum təşkil edir;

b) Qarşısını alma üzrə Altkomitənin qərarları iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul olunur;

c) Qarşısını alma üzrə Altkomitənin iclasları qapalı keçirilir.

3. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Qarşısını alma üzrə Altkomitənin ilk iclasını çağırır. İlk iclasdan sonra Qarşısını alma üzrə Altkomitə prosedur qaydalarına müvafiq olan intervalda iclaslarını keçirir. Altkomitə və İşgəncələrə qarşı Komitə ildə bir dəfədən az olmayaraq birlikdə toplaşırlar.

## III HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏNİN MANDATI

***Maddə 11***

Qarşısını alma üzrə Altkomitə:

a) 4-cü maddədə qeyd olunan yerlərə baş çəkir və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi ilə bağlı iştirakçı dövlətlərə tövsiyələr təqdim edir;

b) milli preventiv mexanizmlərə münasibətdə:

i) zərurət olduqda, beləmexanizmlərin yaradılmasında iştirakçı dövlətlərə məsləhət verir və yardım göstərir;

ii) milli preventiv mexanizmlərlə birbaşa, zərurət olduqda konfidensial şəkildə əlaqə saxlayır və onların potensialının gücləndirilməsi məqsədi ilə peşəkar hazırlıq və texniki yardım sahəsində xidmətlər təklif edir;

iii) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri tədbirlərin qiymətləndirilməsi işində məsləhət verir və yardım göstərir;

iv) milli preventiv mexanizmlərinin imkanlarının və mandatının gücləndirilməsi məqsədi ilə işgəncələrin və digər qəddar, qeyri-insani yaxud ləya-

qəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün iştirakçı dövlətlərə tövsiyə və iradları təqdim edir.

c) işgəncələrin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurum və mexanizmləri ilə, habelə bütün şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi marağından çıxış edən beynəlxalq, regional və milli təsisat və ya təşkilatlarla əməkdaşlıq edir.

***Maddə 12***

Qarşısını alma üzrə Altkomitənin 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öhdəsinə götürür:

a) Qarşısını alma üzrə Altkomitəni öz ərazisində qəbul etmək və hazırkı Protokolun 4-cü Maddəsində müəyyən olunmuş saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

b) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Qarşısını alma üzrə Altkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

c) Qarşısını alma üzrə Altkomitə və milli preventiv mexanizmlər arasında əlaqələri təşviq etmək və asanlaşdırmaq;

d) Qarşısını alma üzrə Altkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

***Maddə 13***

1. Qarşısını alma üzrə Altkomitə 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirilməsi məqsədilə iştirakçı dövlətlərə müntəzəm başçəkmələr proqramını ilk dəfə püşk atma yolu ilə müəyyən edir.

2. Məsləhətləşmələrin keçirilməsindən sonra, Qarşısını alma üzrə Altkomitə öz proqramı haqqında iştirakçı dövlətləri məlumatlandırır ki, onlar təxirə salınmadan başçəkmələrin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Başçəkmələr Qarşısını alma üzrə Altkomitənin ən azı iki üzvü tərəfindən həyata keçirilir. Zərurət olduqda, bu üzvləri hazırkı Protokolun əhatə etdiyi sahələr üzrə təsdiq olunmuş iş təcrübəsinə və biliklərə malik ekspertlər müşayiət edə bilər. Ekspertlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı və Beynəlxalq Cinayətkarlığın Qarşı-sının Alınması üzrə Mərkəzi tərəfindən, iştirakçı dövlətlərin irəli sürdüyü təkliflər əsasında hazırlanmış ekspertlər siyahısından seçilir. Bu siyahının hazırlanması zamanı aidiyyəti iştirakçı dövlətlər 5 nəfərdən çox olmayaraq milli ekspert təklif edir. Aidiyyəti iştirakçı dövlət başçəkmə üçün təklif

edilmiş ekspertin namizədliyini rədd edə bilər, bundan sonra Altkomitə digər eksperti təklif edir.

4. Qarşısını alma üzrə Altkomitə zəruri hesab etdiyi təqdirdə, müntəzəm başçəkmənin həyata keçirilməsindən sonra növbəti qısa başçəkmə təşkil etməyi təklif edə bilər.

***Maddə 14***

1. Qarşısını alma üzrə Altkomitə mandatını həyata keçirə bilməsi üçün hazırkı Protokolun iştirakçı dövlətləri ona aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların saxlanma şəraiti haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

c) aşağıdakı 2-ci bəndə uyğun olaraq, bütün saxlanma yerlərinə, onların binalarına və obyektlərinə məhdudiyyətsiz buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda, tərcüməçi vasitəsilə, habelə Altkomitənin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi qaydada söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduğu yerləri və söhbət etmək niyyətində olduğu şəxsləri maneəsiz seçmək hüququ.

2. Konkret saxlanma yerinə başçəkməyə münasibətdə etirazlar yalnız təcili surətdə baş vermiş və başçəkməyə müvəqqəti maneə törədən milli müdafiə, dövlət təhlükəsizliyi, təbii fəlakət və ya baş çəkilməsi ehtimal edilən yerdə ciddi iğtişaşla bağlı inandırıcı mülahizələrə əsaslana bilər. Elan olunmuş fövqəladə vəziyyətin mövcudluğu başçəkmənin həyata keçirilməsinə etiraz səbəbi kimi gətirilə bilməz.

***Maddə 15***

Heç bir orqan və ya vəzifəli şəxs Qarşısını alma üzrə Altkomitəyə və ya onun üzvlərinə verilən hər hansı, istər doğru, istərsə də yalan, məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və heç bir belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

***Maddə 16***

1. Qarşısını alma üzrə Altkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə və zərurət olduqda, milli preventiv mexanizminə göndərir.

2. Qarşısını alma üzrə Altkomitə öz hesabatını iştirakçı dövlət tərəfindən müvafiq xahişin daxil olduğu təqdirdə, iştirakçı dövlətin iradları ilə birlikdə

dərc edir. İştirakçı dövlət hesabatın bir hissəsini açıqladığı təqdirdə Altkomitə hesabatı tam və ya qismən dərc edə bilər. Bununla yanaşı şəxsi xarakter daşıyan məlumatlar müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadan dərc edilə bilməz.

3. Qarşısını alma üzrə Altkomitə fəaliyyəti haqqında açıq illik hesabatını İşgəncələrə qarşı Komitəyə təqdim edir.

4. İştirakçı dövlətin 12-ci və 14-cü Maddələrə uyğun olaraq Qarşısını alma üzrə Altkomitə ilə əməkdaşlıq etməkdən və ya Qarşısını alma üzrə Altkomitənin tövsiyələrinə müvafiq olaraq vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görməkdən imtina etdiyi təqdirdə, İşgəncələrə qarşı Komitə Qarşısını alma üzrə Altkomitənin xahişi ilə iştirakçı dövlətə öz mülahizələrini ifadə etmək imkanı verdikdən sonra açıq bəyanatla çıxış etmək və ya Altkomitənin hesabatını dərc etmək barədə öz üzvlərinin səs çoxluğu ilə qətnamə qəbul edə bilər.

## IV HİSSƏ

## MİLLİ PREVENTİV MEXANİZMLƏR

***Maddə 17***

Hazırkı Protokolun qüvvəyə minməsindən, və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir iştirakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, teyin və ya təsis edir. Mərkəzsizləşdirilmiş orqanlar tərəfindən təsis edilmiş mexanizmlər hazırkı Protokolun məqsədləri üçün, Protokolun tələblərinə cavab verdiyi təqdirdə, milli preventiv mexanizmlər qismində teyin edilə bilər.

***Maddə 18***

1. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edir.

3. İştirakçı dövlətlər milli preventiv mexanizmlərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürür.

4. Milli preventiv mexanizmlərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statusuna dair Prinsipləri nəzərə alır.

***Maddə 19***

Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

***Maddə 20***

Milli preventiv mexanizmlərin öz mandatının yerinə yetirə bilməsi məqsədilə, hazırkı Protokolun iştirakçı dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürür:

a) 4-cü Maddədə müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ.

***Maddə 21***

1. Heç bir orqan və ya vəzifəli şəxs milli preventiv mexanizmə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

***Maddə 22***

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexanizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün təbirlərlə bağlı dialoq aparır.

***Maddə 23*** Hazırkı Protokolun iştirakçı dövlətləri milli preventiv mexanizmlərinin illik hesabatlarının dərc etməyi və yaymağı öhdələrinə götürür.

## V HİSSƏ

## BƏYANAT

***Maddə 24***

1. Ratifikasiyadan sonra iştirakçı dövlətlər hazırkı Protokolun III Hissəsinə və ya IV Hissəsinə uyğun olaraq öz öhdəliklərinin yerinə yetirilməsinin təxirə salınması ilə bağlı bəyanat verə bilər.

2. Belə təxirə salınma ən çoxu üç il müddətində qüvvədə qalır. İştirakçı dövlət tərəfindən müvafiq materialların təqdim edilməsindən və Qarşısını alma üzrə Altkomitə ilə məsləhətləşmələrdən sonra İşgəncələrə qarşı Komitə bu müddəti daha iki il uzada bilər.

## VI HİSSƏ

## MALİYYƏ MÜDDƏALARI

***Maddə 25***

1. Hazırkı Protokolun həyata keçirilməsi zamanı Qarşısını alma üzrə Altkomitə tərəfindən sərf edilmiş xərclər Birləşmiş Millətlər Təşkilatı tərəfindən ödənilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokola uyğun olaraq Qarşısını alma üzrə Altkomitəni funksiyalarını səmərəli şəkildə yerinə yetirməsi üçün zəruri işçi heyət və vəsaitlə təmin edir.

***Maddə 26***

1. Başçəkmədən sonra Qarşısı alma üzrə Altkomitə tərəfindən iştirakçı dövlətə irəli sürülmüş tövsiyələrin həyata keçirilməsi və milli preventiv mexanizmləri üçün tədris proqramlarının maliyyələşdirilməsi məqsədilə Baş Assambleyanın müvafiq proseduruna uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının maliyyə müddəaları və qaydaları əsasında idarə olunan Xüsusi Fond yaradılır.

2. Bu Xüsusi Fond hökumətlər, hökumətlərarası, qeyri-hökumət və digər özəl və ya dövlət qurumları tərəfindən ödənilən könüllü ödəmələr hesabına maliyyələşə bilər.

## VII HİSSƏ

## YEKUN MÜDDƏALAR

***Maddə 27***

1. Hazırkı Protokol Konvensiyanı imzalamış istənilən dövlətə imzalanmaq üçün açıqdır.

2. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlət tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanları saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlətə qoşulmaq üçün açıqdır.

4. Qoşulma bu haqda sənədin saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

5. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hər bir ratifikasiya fərmanının və ya qoşulma haqqında sənədin saxlanılması üçün təhvil verilməsi barədə hazırkı Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətləri məlumatlandırır.

*Maddə 28*

1. Hazırkı Protokol 20-ci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verildikdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Hazırkı Protokol iyirminci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün təhvil verildikdən sonra onu ratifikasiya edən, yaxud ona qoşulan hər bir dövlət üçün həmin dövlət öz ratifikasiya fərmanını, yaxud qoşulma haqqında sənədini saxlanılması üçün təhvil verdikdən sonra otuzuncu gün qüvvəyə minir.

*Maddə 29*

Hazırkı Protokolun müddəaları heç bir məhdudiyyət və istisna olmadan federativ dövlətlərin bütün hissələrinə şamil olunur.

*Maddə 30*

Hazırkı Protokola dair hər hansı qeyd-şərtlərə yol verilmir.

*Maddə 31*

Hazırkı Protokolun müddəaları saxlanma yerlərinə başçəkmə sisteminə əsaslanan istənilən regional konvensiyalar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə toxunmur. Təkrarlanmadan yayınmaq və hazırkı Protokolun məqsədlərinə səmərəli nail olunmasını təmin etmək üçün Qarşısını alma üzrə Altkomitəyə və belə regional konvensiyalara uyğun olaraq təsis edilmiş orqanlara məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək təklif olunur.

*Maddə 32*

Hazırkı Protokolun müddəaları 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara dair 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə, habelə beynəlxalq humanitar hüquqla əhatə olunmayan vəziyyətlərdə iştirakçı dövlətin Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən saxlanma yerlərinə baş çəkməyə icazə vermək hüqu-quna toxunmur.

*Maddə 33*

1. Hər hansı iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər. Bundan sonra Baş katib hazırkı Protokolun və Konvensiyanın iştirakçı dövlətlərini bu barədə məlumatlandırır. Denonsasiya Baş katib belə bildiriş aldıqdan bir il sonra qüvvəyə minir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiya qüvvəyə mindiyi tarixə qədər baş verə bilən hər hansı hərəkətinə və ya vəziyyətinə görə və ya Qarşısını alma üzrə Altkomitə tərəfindən aidiyyəti iştirakçı dövlətə münasibətdə qət edilən və ya qət edilə bilən tədbirlərə görə hazırkı Protokol üzrə öhdəliklərindən azad etmir və denonsasiya qüvvəyə mindiyi tarixə qədər

Altkomitədə baxılmış hər hansı məsələnin davam edən baxışına heç bir halda xələl gətirmir.

3. İştirakçı dövlət tərəfindən bəyan edilmiş denonsasiyanın qüvvəyə mindiyi tarixdən sonra Qarşısını alma üzrə Altkomitə həmin dövlətə aid yeni məsələnin baxılmasına başlaya bilməz.

***Maddə 34***

1. Hər hansı iştirakçı dövlət hazırkı Protokola dair düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif olunmuş düzəlişi hazırkı Protokolun iştirakçı dövlətlərinə göndərərək, bu təklifə baxmaq və onu səsə qoymaq məqsədilə iştirakçı dövlətlərin konfransının çağırılmasına razı olub-olmamalarını ona bildirməyi xahiş edir. Bu məktubun göndərildiyi tarixdən keçən dörd ay ərzində iştirakçı dövlətlərdən ən azı üçdə biri belə konfransın çağırılmasına razılıq verdiyi təqdirdə Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi ilə konfrans çağırır. Baş katib bu konfransda və səsvermədə iştirak edən iştirakçı dövlətlərin üçdə ikisinin çoxluğu ilə qəbul edilən hər hansı düzəlişi təsdiq üçün bütün iştirakçı dövlətlərə gön-dərir.

2. Bu Maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş hazırkı Protokolun iştirakçı dövlətlərinin üçdə ikisi həmin düzəlişi öz konstitusiya prosedurlarına uyğun qəbul etdiklərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirdikdən sonra qüvvəyə minir.

3. Düzəlişlər qüvvəyə mindikdən sonra, onları qəbul etmiş iştirakçı dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə qəbul etmiş olduqları hazırkı Protokolun müddəaları və əvvəlki düzəlişlər məcburi olaraq qalır.

***Maddə 35***

Qarşısını alma üzrə Altkomitənin üzvlərinə və milli preventiv mexanizmlərinin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetirilməsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. Altkomitənin üzvlərinə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və immunitetləri haqqında 13 fevral 1946-cı il tarixli Konvensiyasının 23-cü fəslinin müddəalarına əməl olunmaqla, həmin Konvensiyanın 22-ci fəslində sadalanan imtiyaz və immunitetlər verilir.

***Maddə 36***

İştirakçı dövlətə baş çəkərkən Qarşısını alma üzrə Altkomitənin üzvləri hazırkı Protokolun müddəa və məqsədlərinə və istifadə edə biləcəkləri imtiyaz və immunitetlərə xələl gətirmədən:

a) baş çəkilən dövlətin qanun və normalarına riayət edir;

b) vəzifələrinin qərəzsiz və beynəlxalq xarakteri ilə bir araya sığmayan hər hansı hərəkət və fəaliyyətdən çəkinir.

***Maddə 37***

1. İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnləri bərabər olaraq autentik olan hazırkı Protokol saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokolun təsdiq edilmiş nüsxələrini bütün dövlətlərə göndərir.